Azərbaycan Milli Məktəbi - 150 il

# Müəllim

## Lirik pedaqoji poema



NAMİQ ATABƏYLİ

BAKI 2016

# MÜƏLLİM

*Lirik pedaqoji poema*
*Azərbaycan Milli Məktəbi -150 il*



*“Elm və Təhsil” nəşriyyatı*
*Bakı - 2016*

NAMİQ ATABƏYLİ

Redaktorlar: Aynur Atabəyli (Fərəcova).
Firəngiz Əliağa Vahid qızı (İsgəndərova).

Məsləhətçilər: Dilavər Arif.
Rəşid Fərəcov.
Turac Seyidzadə.

Rəyçilər: Osman Musayev.
Vahid Hacı.
Ağanəcəf Qədirli.

Dizayner və bədii tərtibatçı: Gülnar Namiqqızı.

Namiq Atabəyli (Şirvani). "Müəllim" lirik-pedaqoji poema.
Yubiley nəşri. Bakı-2016, "Elm və Təhsil" nəşriyyatı, 240 səh.
Kitabın arxa üzündəki "Greta Bridge" rəsm əsərinin müəllifi **John Sell Cotman**-dır *(16 May 1782 – 24 July 1842).*
Kitabda istifadə olunan şəkillər açıq mənbə saytı Vikipedia-dan götürülmüşdür.

Yubiley kitabı Azərbaycan Milli Məktəbinin qarşıdan gələn 150 İlliyi (1869-2019) münasibətilə nəşr olunur. Bu kitabda poemanın Baş qəhrəmanı İsmayıl müəllimin şəxsində Azərbaycan Milli Məktəbinin şərəfli tarixinə bədii nəzər yetirilmiş, Dünya pedaqoji fikrinin əsas simalarının bədii-pedaqoji obrazları yaradılmışdır. Əsər müəllifin poema janrında nəşr olunan dördüncü kitabıdır.

Ümumi tiraj: 1000.
Birinci buraxılış:

**4702000000-209**
**A N098-2015**

Müəllifin elektron poçt adresi:
**namiq_atabeyli @ yahoo.com**

© **Namiq Atabəyli** (Fərəcov Namiq Rəşid oğlu)

Aynur ATABƏYLİ
*( İstanbul. Bahçeşehir Universitetinin magistri.)*

## ÖN SÖZ

Yadındamı doğulduğun zaman:*
Sən ağlar idin, gülərdi aləm.
Bir öylə ömür keçir ki, olsun
Mevtin** sənə xandə***, xalqa matəm.
*(Qurani-kərimin ayətlərindən iqtibas edilmiş bu*
*Qitənin tərcüməsi Əli bəy Hüseynzadəyə məxsusdur.)*

Yeni minilliyin başlıca inkişaf xətti İnformasiyalı cəmiyyət quruculuğudur. Tərəqqinin ruporu həmişə olduğu kimi indi də Müəllim və Məktəbdir. Bu gün ölkələr bir-birlərindən daha çox müasir təhsilin səviyyəsinə görə fərqləndirilir. Dünya ədəbiyyatı tarixində ilk pedaqoji poema (nəzm ilə) olaraq qələmə alınmış ”Müəllim” əsərində ictimai həyatımızda Maarifçiliyin ümumbəşəri və milli əhəmiyyəti öz bədii ifadəsini tapmışdır.

--------

*PS: Veledetke ummuka yebne ademe bakıyyen
Vennasu havleke yadhakune surura.
Feched linefsike en tekune iza bekev
Fi yevmi mevtike dahiken mesrura.

Bax: Mehmet Akif Ersoy. Türkiyə Cümhuriyyətinin “İstiqlqal Marşı”nın müəllifi:
Kurandan ayetler, İstanbul-1944, səh.-245.
**PS; *** PS: Mevt—ölüm, xandə--sevinc. Ərəb dilindən keçmə sözlərdir.

Bu əsərin önəmli bir cəhəti də həyat yolunu və ictimai ideallarını bədii əks etdirdiyi İsmayıl müəllimin şəxsində Azərbaycan Milli Məktəbinin qarşıdan gələn 150 İlliyinə (1869-2019) ithaf edilməsidir.

Əsərdə ilk dəfə Müəllim şəxsiyyətinin cəmiyyətdəki aparıcı rolu (heç bir ideoloji təsirə məruz qalmadan) Baş qəhrəman səviyyəsinə yüksəldilmişdir:

Müəllim millətin, xalqın özündə
Ən uca mənəvi zirvədir, sondur...
Həyat nə qədər var: Haqqın gözündə
Müəllim İlahi bir etalondur.

Üç min illik qədim Şirvanşahlar dövlətinin paytaxt şəhərlərindən biri olmuş Şamaxıda 1869-cu ildə ilk Milli-anadilli Məktəbimizin əsasını qoymuş dahi şair-pedaqoqumuz Hacı Seyid Əzim Məhəmməd oğlu Mir Cəfərzadənin (1835-1888) 19 illik pedaqoji fəaliyyətinə işğalçı Çar Rusiya hökuməti ”Za userdiye” medalı ilə qiymət verdi.

Lakin yerli-daxili qaragüruh isə bu hadisəyə ilk Milli Müəllimimiz (rüsumunu uzun müddət ödəyə bilməməsinə görə) gecikmiş medalını sinəsinə sancdığından cəmi 10 gün sonra onun həyatına 53 yaşında xitam verməklə reaksiya göstərdi.

Beləliklə, sələfləri Abbasqulu ağa Bakıxanov, Mirzə Şəfi Vazeh, Mirzə Fətəli Axundov və Qasım bəy Zakirdən ibarət XIX əsr ziyalılarımızın Maarifçilik Hərakatının ilk Maarif Qaranquşu yurdumuza Azadlıq baharı gəlməmiş öz doğma yuvasındaca boğulub məhv edildi...

Endir qədəhi, saqiya, ərvahi-Seyidçin,
Fərdayə tutaq üz yenə səbbahi-Seyidçin.

Zöhd əhli bu Yer üzündə hər cürmü* törətdi,
Şahid çağıraq göydəki Allahı Seyidçin.

Ey piri-muğan, meykədə, meyxanədə yasdı,
Əhli-xərabat ərşə çəkir ahı Seyidçin...

Dünya malı düyada qalar, ey dəni-tüccar.
Üqba da gülər vicdana, vallahi, Seyidçin.

Xaqani, Nişat, Ağaməsih, Bixudi-Sabir,
Eylər duavü-sənaları dahi Seyidçin.

Sınmış qədəhin cürmü böyükdür bizə, ey şux,
Bəstə çağıraq şövq ilə Dərgahı Seyidçin.

Zəbani-Seyid** ilə, Ata, çak*** elə köksü,
Gahi özünə ağlaya dil, gahi Seyidçin…

Poemanın Baş qəhrəmanı Qədim Şirvan diyarının Çiyni adlanan ucqar bir dağ kəndində bütün mənalı ömrünü Müəllimliyə həsr etmiş İsmayıl İsmayılovdur. Onun məktəb odisseyası hər bir gənc müəllim üçün bu gün əsl mənəvi nümunədir.

--------------------------

*PS: “cürm” günah deməkdir.

**PS: zəbani-Seyid, yəni Seyidin dili ilə.

***PS: çak etmək, yəni yaxa cırmaq.

Əsərin süjet xətti janrın əzəli epik tələblərinə uyğun olaraq, İsmayıl müəllimin ömrünün bütün mərhələlərini bədii lövhələrlə əks etdirir. Uşaqlıq çağları, tələbəlik dövrü, Müəllimlik fəaliyyəti və həyatının digər önəmli hadisələri gözlərimizin önündən gəlib keçir. Onun kənddə pedaqoji və ictimai nailiyyətləri Seyid Əzimlə salnaməsi açılan ilk Milli Məktəbimizin yandırdığı Maarif məşəlinin bu gün də sədaqətli və əmin əllərdə olduğuna dərin inam yaradır.

İsmayıl müəllimin mükəmməl pedaqoji obrazı onun süjetdəki Rupor rolunu daha parlaq və cazibadar edir. Çiyni kənd məktəbinin timsalında biz ilk Milli Müəllimimiz Seyid Əzim Şirvaninin pedaqoji məramının ölməzliyinə qəti əmin oluruq.

Poemada İsmayıl müəllimin vətənpərvərliyi, elinə, obasına ürəkdən bağlılığı parlaq bədii boyalarla təsvir edilib:

Uca dağ köksündə Çiyni kəndim var:
Torpağı mənimdir, daşı mənimdir!
Sellərə güc gələn möhkəm bəndim var,
Qurusu mənimdir, yaşı mənimdir.

İlahi, bir ömür səbir ver mənə,
Kəndimə xidməti əcr ver mənə.
Çiynimin üstündə qəbir ver mənə,
Bilim ki qəbrimin daşı mənimdir.

Onsuz nə sevincim vardır, nə qəmim.
Çiynidir həyatım, dünya-aləmim.
Gülüşü, sevinci könül məlhəmim,
Gözündə hər damcı yaşı mənimdir...

Alman romantiki Şiller qəhrəmanlarının birinin dili ilə deyirdi: ”Bir nöqtəyə cəm olub, dünyanı qazan.” Həqiqətən, boş sünbülün, quru bir küləşin səmtsiz küləklərə qoşulub hara gəldi ”səyahəti” yalnız avara-veyil adamların əyləncəsi sayıla bilər. Arif insan üçün həyatın hər bir sahəsində hünər göstərmək üçün meydan vardır. Odur ki, İsmayıl müəllimin öz doğma kəndinə bu qədər dərin bağlılığı (poemada bu rəmzi olaraq, köklü bir palıd ilə poetik müqayisə edilib) nəzərlərdə daha çox onun mənəvi böyüklüyünü ifadə edir.

Pedaqoji poemanın ilk bəndlərindən etibarən, biz tez- tez Müəllim simasının Günəş ilə poetik müqayisəsini görürük. Bu bənzətmə Yeni Məktəbin (üsuli-cədidin) yaradıcısı XVII əsr dahi çex pedaqoqu Yan Amos Komenskiyə (1592-1670) məxsusdur. Poemada Müəllimin Günəşdən daha parlaq obrazı diqqəti çəkir. Bildiyimiz kimi, Günəş işıq, energi və hər bir canlı həyatın ilk mənbəyidir. Lakin N.Atabəyli bizi inandırır ki, Müəllim durduğu ictimai pillədə yerindən, yaşadığı coğrafi

məkandan asılı olmayaraq, həmişə, hər yerdə, hər vaxt parlaqlığını, işığını, enerjisini qoruyub saxlayır, onu heç vaxt azaltmır, əksinə gündən günə daha da artırır. Hətta fani həyatdan köçüb əbədi aləmə qovuşanda da... Lakin Günəşin enerjisi, işığı (bizə nəzərən) durduğu yerdən asılı olaraq, tülu, zenit və qürubunda azalıb artır.

Müəllim elə bir nurdur cahanda,
Günəşdən parlaqdır könül dünyası.
Müəllim olubdur hər bir zamanda
Bəşərin mürşidi, piri, mövlası.

Bu mənada, İsmayıl müəllimin bədii obrazı müəllifin ideya və bədii qayəsini mükəmməl əks etdirir.

Bu poema bədii yaradıcılıq metoduna görə, postmodernizmə aiddir. Poema ədəbi janr olaraq, Qədim Yunanıstan və Romadan öz ənənəvi başlanğıcını götürsə də, dini-ideoloji hakimiyyətlər dövründə, ilk orta əsrlərdən ehtibarən sıradan çıxarılmışdı. Onun İslam aləmində ilk tətbiqi tacik şairi Əbülqasim Firdovsinin adı ilə bağlıdır. Poemanın sonradan hər hansı milli ədəbiyyatda görünməsi Milli İntibahla əlaqələndirilir. Azərbaycan yazılı ədəbiyyatında ilk poema Əfzələddin Xaqani Şirvaninin (1126-1199) adı ilə bağlıdır. Xaqaninin ”Töhfətül-İraqeyn” (1156) poeması Qərb İntibahına qədərki dövr üçün Renessans ədəbiyyatının bütün tələblərinə cavab verən ilk poemadır. Firdovsi ”Şahnamə”yə ifrat şovinizm gətirmişdi: mövzu və qəhrəmanlarını şovinistləşdirmişdi... Odur ki, onun poemasını əsla Dünya intibahının bünövrəsi hesab etmək olmaz.

Bu poemanın yeni postmodernist təmayülü, əslində, dünya ədəbi prosesində uzun illər davam edən indistrual siyasi-ideoloji deqradasiyalardan sonra, İntibaha doğru müəllifin təkrar addımlamaq cəhdidir.

Namiq Atabəylinin gənclik illəri modernizmin nəzəri və təcrübi əsaslarının tədqiqi ilə keçib. O, BDU-da filoloji təhsil aldığı 70-80-ci illərdə Tələbələrin VIII Respublika elmi Konfransına təqdim etdiyi Verlibr (Sərbəst şeir) poetikası üzrə tələbə elmi işinə görə Respublika Təhsil Nazirliyi, LKGİ MK, Tələbə Elmi-tədqiqat işləri üzrə Respublika Şurası tərəfindən ”Qızıl medal”a layiq görülmüşdür. Eyni zamanda, Birinci, İkinci dərəcəli diplomlar almış, sərbəst vəzndə xeyli bədii əsərlər yaratmışdır. Daha sonralar heca vəznli poemalar və müxtəlif şeirlər də yazıb kitab formatında çap etdirmişdir.

Nəhayət, 2013-cü ildən klassik şeirə keçərək, ard-arda üç qəzəl kitabını nəşr etdirmişdir ki, bunlardan da sonuncusu ötən il (2015) ”Elm və Təhsil” nəşriyyatında işıq üzü görmüş ilk Divanından ibarətdir.

“Müəllim” pedaqoji poemanın postmodernist bədii medodunda yazılması müəllifin yeni ictimai eranın—Postsənaye dövrünün tarixi mahiyyətinin Məktəbin əzəli xarakteri ilə heç də antoqonist olmadığını xüsusi nəzərə çarpdırmaq istəyini ifadə edir. Sənaye erasının tənqidi və sosialist, habelə digər bədii ”izm”lərinin ideoloji-siyasi məqsədləri Pedaqogikanın müasir Məktəbin üzərinə qoyduğu vəzifələri ilə üst-üstə düşmür. Müəllim sinfi düşmənçilik aləti, müxtəlif ideoloji proqramlardan ötrü vasitə ola bilməz... Kapitalizm və sosializmin süqutu qaçılmaz tarixi zərurətə çevrilib. Yeni postindistrual

cəmiyyətdə Məktəb bəşəriyyətin ən başlıca İntellektual ehtiyatlarının ötürücü mərkəzidir. Yeni məktəbin yaradıcısı dahi çex maarifçisi Yan Amos Komenskinin (1592-1670) ”Böyük didaktika”sıının (1632) “hamıya hər şeyi öyrətmək” məramnaməsi bugünkü cəmiyyətin başlıca həyat fəlsəfəsinə çevrilib.

Poemada şeirimizin müxtəlif şeir vəznlərində yazılmış hissələrlə qarşılaşırıq.

Bunlar ədəbiyyata sintezləşdirilmiş yeni metrik baxışların tətbiq edilməsi cəhdidir. Müəllif bu üslubu öz Universitet və Sənət müəllimi şair Bəxtiyar Vahabzadənin ”Muğam” poemasında heca və əruzun qarşılıqlı tətbiqi praktikasından əxz etmişdir.

Dünya, cəmiyyət və İnsan haqqında bəşəriyyətin qazandığı sistemli Məlumatların, yəni Biliyin bütün Bəşəriyyət tərəfindən qeyd-şərtsiz ümumi istifadəyə verilməsi, Biliyin Bacarığa çevrilməsi, yəni həyata tətbiq edilməsi, cəmiyyətin bütün təbəqələrinin intellektuallaşdırılması, idarəçiliyin elektronlaşdırılması, nəhayət, bəşəriyyətin Planetar universal qüdrətinin hümanizmdə birləşdirilməsi çağdaş Müəllimin və Məktəbin izlədiyi qayə bu gün yalnız belə olmalıdır. “Böyük didaktika”nın ilk milli Azərbaycan mücahidinin, Seyid Əzimin bizə göstərdiyi yol da elə budur:

--Demə, bu kafər, ol müsəlmandır,
Hər kimin elmi var: o, İnsandır.

Əsərdə müstəqil səslənən paralel isim Seyid Əzimdir. O, İsmayıl müəllimin ”Estafet” adlandırdığı Gündəliyində ayrıca fəsil kimi diqqəti çəkir. Seyidi bütün milli

maarifçiliyimizin Baş ideoloqu, Bayraqdarı olaraq görürük. Odur ki, müəllif bəzi məqamlarda hətta Seyidin özünə ”canlı” müraciətlər edərək, onun poetik-pedaqoji irsindən də Oxucuya maraqlı misallar gətirir:

--Səni Həqq qıldı faili-muxtar,
Hər əməl qılsan, ixtiyarın var.
...Səni Həqq şərrə etməyib məcbur,
Bu xəyalat əqlindəndir dur.
İşlədən şərri nəfsi-insandır.
Xaliqi-xeyrü şərr Yəzdandır.

Müasir postmodernist ədəbi cərəyan (o, həmçinin bədii metoddur) üçün başlıca cəhətlərdən biri onun ifaçılığında bədiilik ilə elmiliyin qarışması, demarkasyon xətlərinin silinməsidir. Ədəbiyyatımızda bu ilk Pedaqoji poemanı da belə bədii-elmi sintezin ilk nümunəsi saya bilərik. Ümumdünya Maarif Estafetinin milli və beynəlmiləl tarixi nailiyyətlərininin bədii tərənnümündə elmi dürüstlük o qədərdir ki, bu poemanı ədəbi əsər olduğu qədər, mənzum elmi traktat da hesab etmək mümkündür. Əlbəttə, əsər janr etibarilə bədiidir. Lakin ona postmodernizm baxımından, bədii mətn etibarilə tamamilə ciddi elmi kriteriyalarla yanaşılmışdır. Məsələn, 1869-cu ilin timsalında o illərin tarixi tamamilə açıq hadisələrinə verilən qiymətləndirmədə Yaponiya, Rusiya və Osmanlı Türkiyəsi imperatorluqları, İran-Türk Qacarlar şahlığı, ABŞ və s. ölkələrin maarifçilik fəaliyyətləri nəzərdən keçirilib.

Müəllifin poemada ədəbi mövqeyi onun hadisələrə elmi münasibətindən qətiyyən fərqlənmir. Bu mənada, bədii əsər elmi müzakirələr üçün də tribunadır. Müəllif

bu tribunada milli pedaqoji mənafeyin ifadəçisi kimi görünür. Lakin o, əsərin bədii mahiyyətinə baxmayaraq, elmi yanaşmalarında da heç bir subyektivizmə yol verməmişdir. Yaxud bilərəkdən bunlara cəhd göstərməmişdir:

Baburlar, Qacarlar, tüm Osmanlılar
Bilik cəbhəsində yendilər Qərbə.
Müəllim, Məktəblə, Elm ilə onlar
Vura bilmədilər düşmənə zərbə...

1865-ci ildə
İlk bina tikildi Darülfünuna
Osmanlı adlanan Turani eldə...
İndi qiymət verin özünüz buna?!

Cəmi ikicə il türklərdən sonra,
Beyrut Amerika Universiteti
Açıldı: qəpiksiz yığaraq ora
Qeyri-müsəlmanı Tələbə etdi...

1869-cu il.
Darülfünuni-Osmaniyyədə
Yatanlar ayıldı xabdan elə bil:
İlk tələbə qeydi başlandı hələ...

O həmin ildir ki, Seyid Əzim də
Bizə Şamaxıda bir Məktəb açdı:
Maarif günəşi Ana dilimdə
Odlar Yurdumuza ilk işıq saçdı!!.

O həmin ildir ki, Yaponiyada
Çökdü Tokuqava Sequnatı *da.
”Meydzi isin”lə** bu kiçik ada
Yerindən oynatdı kainatı da...

İkicə il sonra o Yaşıl ada
Ümumi məcburi təhsilə keçdi.
İbtidai Məktəb tüm Yaponiyada
Millətə maarif libası biçdi!

Öz Bilk gücüylə Sakura yurdu
Çini, Hindi-Çini qul edəcəkdi.
Darmadağın edib Port-Arturu
Çar Rusiyasını çökdürəcəkdi!

Ağılsız güc-qüdrət bir heyvanlıqdır,
Mənəvi ölümdür Biliksiz həyat.
Göyün də Kamalı nurdur, işıqdır,
Günəşdən Dərs alır bütün kainat!

--------------------

*PS:Tokukava sequnatı son Samuray hökumətidir. 1869-cu ilin mayında Emonoto flotununməğlubiyyəti ilə 250 illik bu pejim tarixin zibilliyinə yuvarlandı. **PS:1866-cı il dekabrında 16 yaşlı varis Meydzi (Mutsuxito) İmperator taxtına oturdu. O, Yaponiya mərkəzləşdirilmiş dövlətçiliyini bərpa edib, islahatlara başladı. “Meydzi isin” yaponca Meydzi islahatları deməkdir.

Şirvan poeziya məktəbinin Seyid Əzimlə başlayan bu ictimai-publisistik şeir üslubu yeni Postmodernist poeziyaya təsadüfən gətirilməyib. Klassik şeirimizin son mogikanı bütün didaktik əsərlərini, mənzum hekayələrini məhz publisistik şeir üslubunda qələmə almışdır. Düzdür ki, Seyidin publisistik şeir dili ərəb-fars sözləri, izafətləri ilə ağır yüklənmişdir. Bu, klassik Əruz vəzninin təfilə, ritm konstruksiyalarının məcburi tələbindən və tarixi ənənədən irəli gəlirdi. Lakin N.Atabəyli poemanın heca vəznində verilmiş bütün hissələrində Milli dilimizin təmizliyini (məcburi Avropa terminləri istisna olunmaqla) tamamilə qoruya bilmişdir. Əsərin süjetinə daxil edilmiş didaktik mənzumlu hekayətlərin də dil və üslubu, əsasən, təmiz poetik təhkiyyədən ibarətdir.

Şair elm və təhsili bütün insanlığın tarixində ən aktual və möhtəşəm Hadisə kimi qiymətləndirib. Bununla, Renassans və Maarifçiliyin İnsan temasını Məktəb müstəvisinə gətirərək, Müəllimliyin yalnız bir rupor deyil, həmçinin ən böyük Tarixi Meydanda əsl Qəhrəmanlıq hadisəsi olduğunu bədii dillə ifadə etmişdir.

Qədim Yunanıstanda "İliada" və "Odisseya" eposlarının əsas hadisəsi olaraq, Troya müharibəsini götürmüşdülər. Miladdan əvvəl V əsrdə yunan Pindar artıq Olimpiya Oyunlarının qaliblərinin şərəfinə odalar (lirik-epik mədhiyyələr) yazırdı. Lessinq "Müdrik Natan" (1779) dramatik poemasını xarakterlərin deyil, ideyaların mübarizəsi üzərində qurmuşdu. Həmin əsərdə Maarifçilik ideyası müxtəlif əsrlərin tanınmış

insanlarının dili ilə verilirdi. Romantik Bayronun "Manfred", "Qabil", "Səma və Yer", Şellinin "Azad olunmuş Prometey" və s. poemalarda da bu tarixi təcrübə müxtəlif şəkildə davam etdirilib.

Namiq Atabəylinin "Müəllim"ində kompozisiya-struktur elementi olaraq tətbiq edilmiş "Estafet" adlandırılan Gündəlik dahi ingilis şairi Bayronun "Çayld-Haroldun səyahəti" poemasının səfər təhkiyəsini xatırladır. Bu kompozisiyadan rus şairi Tvardovski də "Üfüqlərdən üfüqlərə" poemasında yaradıcılıqla istifadə etmişdir. Azərbaycan sovet şairi Səməd Vurğunun yarımçıq qoyduğu iki dahiyanə poemasında: "Bakının dastanı" və "İslam" əsərlərində də bu yaradıcılıq ənənəsi açıq nəzərə çarpır.Tarixin ən böyük hadisəsi olaraq, "Müəllim" əsərinin ideya-məzmununu müəyyənləşdirən Maarifçilik hərəkatı, yeganə leytmotiv xətt kimi bu poema ilə çağdaş qlobalizmə fəal müəllif müdaxiləsinə tarixi haqq qazandırır.

Şərq klassik ədəbiyyatının ənənələrindən (Firdovsi, Əmir Keykavus, Xaqani, Nizami, Rumi, Sədi, Bakıxanov, Seyid Əzim, Zakir və b.) yararlanaraq, əsərin sujetinə məntiqi asılılıqlı muxtar sügetli əhvalatların salınması poemanın ideya-didaktik mahiyyətindən irəli gəlir. Puşkin "Qafaz əsiri"ndə lirik-epik planda rus dekabrist şairlərin sürgün həyatının mənəvi yaşantılarını qələmə alıb. Rıleyev isə "Voynarovski" poemasında Ukraynanın müstəqilliyi uğrunda mübarizədə Mazepanın məğlubiyyətindən sonra, Sibir sürgünündəki ukrayn ziyalısının Vətənin gələcək taleyi barədə milli düşüncələrini əks etdirib. "Müəllim" poemasında əsərin qəhrəmanının başlıca ideya məfkurəsini də, təbii ki, Müstəqil Azərbaycançılıq təşkil edir. İsmayıl müəllimin maarifçilik "Estafet"inin məğzi də Tarixə böyük

ümumbəşəri mədəniyyət sərvəti bəxş etmiş Azəri türklərinin Milli İstiqlal, Azadlıq və Birləşmək ruhundan ibarətdir. İblis ilə İnsanlığın arasındakı İlahi savaşın da başlıca məramı İnsanın məhz fərdi (və milli) azadlıq məsələsidir. Poema oxucuya təlqin edir ki, o hər cür azadlığa yalnız mənəvi güc ilə nail ola bilər. Həmin gücün mənbəyi həmişə, hər yerdə Məktəb və Müəllimdir:

Bu dünya Allahın bir Kitabıdır.
Açın vərəq-vərəq, oxumaq üçün!
Məktəb insanlığın ilk mehrabıdır,
Müəllim sonuncu imamı bu gün!

Elmdən kənarda dünya qaranlıq,
Müəllimsiz məclis--cəhalət xoru.
Açılan sabaha baxın bir anlıq:
Günəş də boylanır Kitaba* doğru.

"Müəllim" posmodernist pedoqoji poema Yeni Məktəbin, yəni "üsuli- cədidin" banisi çex maarifçi-hümanisti, dahi pedaqoq-yazıçı Yan Amos Komenskinin (Comenius. 28.III.1592—15.XI.1670.) idrakın üç mənbəyi hasab etdiyi Hiss, Ağıl və Etiqadın (İnam) üzərində yaratdığı Beş mərhələli Ömürlük təhsil-tərbiyə sisteminin dövrləşməsinə uyğun olaraq, beş bədii hissəyə bölünmüşdür: İlk məktəb, Ali məktəb, Həyat məktəbi,

-----------------

*PS: İslami görüşlərə görə, Dünya, İlahi vəhylər və İnsan Allah taalanın kitabları hesab olunur.

Azadlıq məktəbi və Əbədiyyət məktəbi. Bu beş hissənin adları Y.A.Komenskinin təlim-tərbiyəni dövrləşdirməsindən az-çox fərqlidir. Dahi çexin "Böyük didaktika" əsasında təkmilləşdirərək yazdığı Yeddi cildlik "Bəşər fəaliyyətinin təshihi haqqında Ümumi məsləhət" əsəri Ümumdünya Pedaqoji fikrinin zirvəsidir. Böyük Müəllimin bu kitabı ümumilikdə 3000 səhifədir. Y.A.Komenski bu son əsəri 1644-cü ildən ömrünün sonunacan yazmışdır. Onun ilk iki cildi: "Panqeriya" (Ümumi oyanış) və "Panovqiya" (Ümumbəsirət) 1667-ci ildə nəşr edilmişdir. Digər beş hissə: "Pansofiya" (Ümumi müdriklik), "Panpediya" (Ümumi tərbiyə), "Panqlotiya" (Ümumi dil), "Panortoziya" (Ümumi islah) və "Pannuteziya" (Ümumi xəbərləşmə/məlumatlanma) isə XX əsrin 20-ci illərində tapılıb üzə çıxarılmışdır. Böyük Ustadın bəşəriyyət üçün nəzərdə tutduğu Ömürlük təhsil-tərbiyə Məktəbi aşağıdakı təlim-tərbiyə mərhələlərinə bölünürdü: 6 yaşınacan Ana məktəb (uşağın bilavasitə Anadan, Ailədən aldığı təlim-tərbiyə), 6-12 yaş arasında Anadilli məktəb. Burada əsasən, Ana dili, hesab, həndəsədən müəyyən hissələr, coğrafiya, təbiətşünaslıq və Müqəddəs kitablar öyrədilir. Qeyd edim ki, belə bir məktəb Azərbaycan təhsil tarixində ilk dəfə 1869-cu ildə dahi pedaqoq-şairimiz Seyid Əzim Şirvani tərəfindən Şamaxıda yaradılmışdır.

Latın məktəbi (başqa adla Gimnaziya: 12-18 yaşlar arasında ), 18-24 yaşlarında Akademiya, yəni bizim indiki dillə desək, Ali məktəb. Ömrün bundan sonrakı bütün qalan hissəsini Komenski "Həyat məktəbi"

(Panpediya) adlandırır. Bu dövrün təhsil-tərbiyə fəaliyyətləri hər bir kəsi Həyata və Əbədiyyətə hazırlayır. Panpedik-pansofik məzmunlu son təhsil mərhələsi ilə İnsan kamilliyin ən yüksək səviyyəsinə nail olur.

N.Atabəyli milli ədəbiyyatımızda bu ilk pedaqoji poemanın Baş qəhrəmanı İsmayıl müəllimin "Estafet"i ilə Həyat və Əbədiyyət məktəblərini Ömürlük təlim-tərbiyə sisteminin başlıca Ruporuna çevirmişdir. Bununla müəllif Milli Pedaqoqumuzun şəxsində, eyni zamanda tarixi Ümumdünya pedaqoji hərakatını bədii ümumiləşdirməyə nail olmuşdur. Poemanın müxtəlif yerlərində nəzərə dəyən şeir bəndlərinin tərənnüm etdiyi müxtəlif pedaqoji Simalar sanki İsmayıl müəllimin davam etdirdiyi "ESTAFET"-n açdığı qapılardan keçərək Tanrı hüzuruna (Əbədiyyətə) gəlib çıxırlar:

Bir Sokrat qanmaza güdaza getdi,
Min Sokrat doğuldu onun yerində.
İmperator öldü, Sokratsa indi
Yaşayır dünyanın Məktəblərində.

Yan Amos Komenski: müasir məktəb.
XVII əsrin parlaq Günəşi!
"Böyük didaktika" və "Ana məktəb":
Budur Prometeyin əsl atəşi!

Cəlal Ünsizadə, Mir Möhsün Nəvvab...
Məşədi İsmayıl*, Mirzə İsmayıl**...
Mirzə Həsən Rüşti, Məhəmməd Tağı***...
Məgər bu isimlər bir Günəş deyil?!

Babil, Qədim Misir, Hindistanla Çin:
İlk Müəllimləridir bəşərin bunlar.
Odur ki, deyirəm bütün Qərb üçün:
Tərbiyəsizlikdir  Şərqdə Oyunlar...

Turan dağ deməkdir, A/İ/ran çöl, “ara!..”
Az salın irqçilik söhbətin bura.
Dara kitabəsi üstə “arika”
“Azğın” söyləməkdir, “ari irq” hara?..

------------------------

*PS:Məşədi İsmayıl Hacı Kazımzadə--Bəzmi. (Mirzə Kazım Qazi Əsgərzadə Axund Əhmədov.İ832:Təbriz mahalı,Sərabın Bərəquş qəsəbəsi—1892. ) İrəvan milli məktəbinin (28 mart 1882-ci il)  banisi.

**PS:  Mirzə İsmayıl (-Qasir) Molla Səlim oğlu Axundov. (1806:Şirvan Diyarının Ləki  kəndi.—1900) Lənkəran milli məktəbinin (1883--1900-ci illər) banisi. Qasirin adı 1884-cü ildən etibarən 1900-cü ilədək 18 il “Kavqazskiy kalendar”ın nəşrlərində ikisinifli ibtidai məktəb müəllimlərinin Siyahısında çəkilir.

***PS: Məhəmməd Tağı (-Sidqi) Səfərov. (1854: Naxçıvan mahalı--1904) Naxçıvanda  1892-ci ildə (Ordubadda: “Əxtər”) və 1894-cü ildə (Naxçıvan şəhərində: “Məktəbi-tərbiyə”) anadilli məktəblər açmışdır.

Xaqani məktəbi. Ulu Şirvanım!
Dünyaya İntibah gətirdi gəldi.
Fəxr edir Səninlə Azərbaycanım:
Can Vətən Tarixin necə gözəldi!

Nizami, Nəsimi, Füzuli—məktəb!
Müdriklik, cəsarət, heyrət məktəbi.
Sözdən başlanğıc götürür mətləb,
Simurq qanadıdır Müəllim təbi...

Burada dolaşdırılmış bir "məsələyə" münasibət bildirmək istərdim.Bəzi elmi araçdırmaçılar süni yerli təəssübküşliyə uyaraq, Azərbaycan Milli Məktəbinin tarixini bir qədər uzatmağa və banisinin ismini dəyişdirməyə cəhd göstərmişlər. Əlbəttə, bu elmi nöqteyi-nəzərdən yolverilməz haldır. Belə ki, ilk Anadilli məktəbin tarixini Talış mahalının Qaradonlu sərhəd zastavasında (əslən Qarabağlı olan) Mirzə Sadiq bəy Mehmandarovun (Səməd bəy Mehmandarovun atasıdır. Səməd bəyin özü də bu məktəbin 50 şagirdindən biri olmuşdur.) təşəbbüsü və maliyyə yardımı ilə (əslən Şirvanlı olan) İsmayıl Qasirin müəllimlik etdiyi məktəbdən başlamaq istəyirlər. 1848-ci ildən fəaliyyət göstərmiş bu məktəb "Anadilli məktəb" statusunda və təyinatında olmamışdır. Çarizmin Qafqazı işğalından sonra yerlərdə rejimin inzibati təlabatları ilə bağlı xeyli belə məktəblər intişar tapmışdır. Onlar, əsasən, mütərcimlər və digər sahələr üçün kiçik çar məmurları yetişdirirdilər. Əski mollaxana, mədrəsə təhsili də ayrıca

fəaliyyətini davam etdirirdi. Belə ki, Şamaxının özündə XIX əsrin 30-cu illərində 17 azərbaycanlı molla 395 şagirdin təhsili ilə məşğul olurdu. 1858-ci ildə Şamaxı quberniyasında artıq 299 məktəb və mədrəsə çalışırdı ki, bunlarda 4700 nəfər təhsil alırdı. Bu məktəblərdə, əsasən, Quranın təfsiri, ərəbcə Oxu-yazı, Fars dili və İran tarixi öyrədilirdi. Sonralar buraya rus dili də daxil edildi. Bu fəaliyyətlərin nizamlanması üçün hətta Qafqaz Çar Canişinliyinin rəhbərliyi ilə 1829-cu ildə I Nizamnamə, 1835-ci ildə II Nizamnamə hazırlanıb təsdiq edilmişdi.

Zaqafqaziyada Qəza məktəblərinin yaradılması ideyası da məhz ilk olaraq, canişin general Yermolovun 1825-ci ilin aprelində Rusiya Maarif naziri Şişkova rəsmi Məktubunda açıqlanmışdır. Qaradonlu sərhəd zonasında açılmış məktəb də belə məktəblərdən biri olmuşdur. Həmin məktəbin "banisi" hesab edilmiş Mirzə İsmayıl Qasirin özü sonralar Mirzə Sadıq bəyə ithaf etdiyi farsca şeirlərindən birində yazmışdı:

Ariflərin arifidir Mirzə Sadıq bəy--
Duz-çörəkli, düz çərəkli, könül əhli bir insan.
Elmin bütün nöqtəsinə dəymiş onun qələmi.
Saf idrakı bir dəryadır, kamalısa asiman.
Onun ürfan ocağında oxuyurdu uşaqlar,
Yüz beytlik lüğət yazdım şeir ilə o zaman.
Fars dilindən, şəriətdən, bir də şeir-sənətdən
Dərs deyirdim...

Pedaqoq-şairimizin öz etirafı onu zorla "Azərbaycan Milli Məktəbi"nin banisi etmək istəyənlərə tutarlı cavabdır. Qasirin ədəbiyyat və pedaqogika tariximizdə yerini əsla kiçiltmədən deyə bilərəm ki, məhz bizim bu

həmyerlimiz 1860-cı ildə ilk dəfə "Talış dilinin qrammatikası" adlı dərs vəsaitini yazmışdır. Onun Seyid Əzimin təsirilə qələmə aldığı anadilli məktəbimiz üçün ilk Dərs vəsaiti isə 1894-cü ildə yazdığı "Qanuni-Mirzə İsmayıl Qasir" əsəridir. Bu da onun 1883-1900-cü illərdə Lənkaran iki sinifli ibtidai məktəbində 18 illik Ana dili və şəriət müəllimi kimi pedaqoji fəaliyyətinin nəzəri-təcrübi yekunu idi.

Tarixi faktlar sübut edir ki, Azərbaycan Milli Məktəbinin banisi dahi şair-pedaqoqumuz Seyid Əzim Şirvani olmuşdur. Onun 1869-cu ildə Şamaxıda yaratdığı Anadilli xüsusi məktəb xalqımızın ilk Milli Məktəbidir. Təsadüfi deyil ki, bundan bir il sonra, yəni 1870-ci ildə dahi pedaqoq-şairimiz S.Əzim də Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin açılışına xüsusi dəvətlilər arasında olmuşdur. Seyid Əzimin Anadilli məktəbi əsası Y.A. Komenski tərəfindən qoyulmuş Sinif-dərs sistemli Yeni məktəbin (üsuli-cədidin) bütün tələblərinə və prinsiplərinə cavab verirdi. Belə ki, burada keçilən Dərs kitabları da müasirliyi ilə xüsusi seçilirdi. Bu ilk Anadilli milli məktəbimizdə rus dili K.D.Uşinskinin "Vətən", hesab isə Yevtuşenkonun "Hesab məsələləri" dərsliklərindən tədris edilirdi.

Azərbaycan Peaqoji Universitetinin 2014-cü ildə "Elm və Təhsil" nəşriyyatında çap etdirdiyi "Azərbaycan məktəb və pedaqoji fikir tarixi" adlı Dərsliyin "Seyid Əzim Şirvaninin anadilli məktəbi" bölməsində oxuyuruq: "Məktəbin tədris planında Ana dili əsas yer tuturdu. Məhz bu xüsusiyyətlərinə görə

həmin məktəb Azərbaycan Məktəb Tarixində ilk nümunəvi anadilli məktəb hesab edilir" (Göst. əsər.H.Əhmədov, səh.:185.). Müəllim" pedaqoji poeması Azərbaycan Milli Məktəbinin qarşıdan gələn 150 İlliyinə sanballı töhfədir. Poemanın süget xətti nəsillərarası bir
Estafet yürüşünü xatırladır. Sokrat –Komenski—Seyid Əzim—İsmayıl müəllim bu Maarifçilik hərəkatının Məşəl daşıyıcıları kimi Dünəni, Bu günü və Sabahı bədii-mənəvi təcəssüm etdirirlər.

Elm İlahinin odudur! Sanma
Biriylə başlayıb, biriylə bitdi.
Bəşər yaranandan bəri daima
Məktəb sona çatmaz bir Estafetdir.

Poema barədə hər bir Oxucunun öz rəyi olacağına inanıram. Fikir plüarizminə sayğımı bildirməklə bərabər, düşünürəm ki, Azərbaycan Milli Məktəbinin qarşıdan gələn 150 İlliyi (2019) münasibətilə qələmə alınmış bu Pedaqoji poemaya əsl diqqəti və qiyməti də Müəllim və Məktəb verəcəkdir.

Unudulmaz pedaqoq və gözəl insan İsmayıl İsmayılovun əziz xatirəsinə həsr edilmiş bu əsər, inanıram ki, hər bir mərifət əhlinin stolüstü kitabı olacaqdır.

Bütün müəllimlərimizə, Müəllifin və şəxsən özümün adımdan, uzun ömür, can sağlığı, ailə səadəti və pedaqoji fəaliyyətlərində uğurlar arzulayıram.

# MÜƏLLİM



*(lirik-pedaqoji poema)*

(Bu poema öz qəhrəmanına--unudulmaz pedaqoq, gözəl insan İsmayıl müəllim İsmayılovun əziz xatirəsinə ithaf olunur)

Cəfər, ey nuri-dideyi-Seyyid!
Qönçeyi-növrəsideyi-Seyyid!..
Sənə hər kimsə elm edər təlim,
Ona vacibdir eyləmək təzim.

*(Hacı Seyid Əzim Şirvani. 1835-1888.*
*Azərbaycan milli məktəbinin banisi, şair-pedaqoq.)*

Müəllim elə bir nurdur cahanda,
Günəşdən parlaqdır könül dünyası.
Müəllim olubdur hər bir zamanda
Bəşərin mürşidi, piri, mövlası.

Bu dünya Allahın bir Kitabıdır.
Açın vərəq-vərəq oxumaq üçün!
Məktəb insanlığın ilk mehrabıdır,
Müəllim əbədi imamı bu gün!

İsmayıl müəllim!.. Gəlin bu ömrün
Kitabın bir yerdə biz vərəqləyək.
Susaq xatirəyə ehtiram üçün:
Bir qələm danışsın, bir də ki ürək...

# I HİSSƏ

# İLK MƏKTƏB

“Müəllimin (alimin) mürəkkəbi şəhidin qanı qədər müqəddəsdir”*.
(Allahın son elçisi Məhəmməd ə.s.)



*PS: Müəllim sözü “alim” sözü ilə bir mənada işlənib.
Bilikli, elmli, bilik öyrədən deməkdir.

1

Bu qoca dünyada bir uzun yol var:
O yol sürdüyümüz həyat yoludur.
(Ömür kitabımız min-min əfsuslar
Həm sevinc, həm də ki qəmlə doludur.)

İsmayıl müəllim! Rəhmət min kərə!..
Bir adda nə qədər nur, işıq vardır!
Qələmə aldığım bu xoş xatirə
O nəcib insandan bir yadigardır.

Müəllim imtiyaz, rütbə, silk deyil,
Yeni nəsillərə bir bünyad qoyur.
Vətənə, övlada sərvət, mülk deyil,
Vicdandan ibarət təmiz ad qoyur.

Müəllim güzgüdür, şagird seyrçi:
Şagirdə baxanda gör Müəllimi.
Müəllim ömründə şagirdi, dərsi
Birləşər əks ilə bir güzgü kimi.

Bəşər insanlığın dərk eləyəndən
Sokratdır dünyanın ilk Müəllimi.
Müdrik Afinanın ilk Dan yerindən
Boylanır Vicdanın heykəli kimi!..

Elm-maarifdən millət boy atar,
Zavala uğrayar məktəbsiz bir el.
Minlərlə könüldə tufan yaradar
Müəllim köksündə səslənən hər tel.

Dünyaya gözünü açdığı ilk gün
”İSMAYIL” söylədi ona atası.
Vətənə, millətə pak xidmət üçün
Fədakar böyüsün könül dünyası.

İsmayıl böyüdü dağlar qoynunda,
Uca Baba Dağ tək vüqarlı oldu.
Könlünün, gözünün hər arzusunda
Minlərlə mənəvi Zirvə doğuldu...

2

Əlvənd dağlarının məğrur köksündə
”Çiyni” söylənilən çiçəkli kənd var.
Enib gələr bura hər su içəndə,
Baba Dağda qanad yormuş qartallar.

Balaca İsmayıl o qartalların
Səma həvəsindən qanad alardı.
Arzuya çevirib xoş xəyalların
Zəka dağlarında zirvə salardı.

Böyüyüb hamı tək məktəbə getdi...
Bir istək qol atıb min budaq oldu.
Arzusu məktəbə tez getmək idi,
Məktəbdə arzudan arzu doğuldu...

Baxıb İsmayılın gülər üzünə
Müəllim soruşdu: Kim olacaqsan?
Şagird bal qataraq təbəssümünə:
Müəllim olacam!- dedi həmin an.

İlk dərs, ilk müəllim, bir də ilk qərar
Pozulmaz əhd oldu uşaq könlündə.
Şahmatda Oyunun üç hissəsi var:
Aqibət məlumdur Debüt edəndə...

3

Tanrı mələkləri bir gün çağırdı,
Beyət ediniz İnsana!- dedi.
Mələklər baş əyib səcdəyə vardı,
Yalnız İblis onun haqqını yedi...

--İnsan bir torpaqdır,- söylədi İblis,--
Torpağa başımı əymərəm bir an!
Yarandım xilqətdə İnsandan təmiz,
Hər şey təmizlənər mənim odumdan.

Tanrı üstünlüyün saydı İnsanın,
Onu öz ağlına nişanə çəkdi.
Söylədi üzünə üzsüz Şeytanın:
--İnsan soyuq zəka, odlu ürəkdir!

Onda ağıl da var, sevən ürək də,
Ağılsız, sevgisiz bir həyat heçdir.
İnsanlıq zəkada, könüldə, dildə
Xeyir yaratmağı arzu seçmişdir.

--Torpaq şər deməkdir, heç yoxdur aram,
İnsan da torpaqdır, inammam ona!
İnsanı dünyada nə qədər varam,
Peşiman edərəm yarandığına...

--Mən göyün ağlıyam, o, Yerin ağlı,
Bacarsan, hökmünü sən də sübut et!
Daha bu əflaka deyilsən bağlı,
İnsanlıq hardadır, arxasınca get!..

Haqqın qüdrətidir verdiyim Ağıl,
İnsanı sındırsan, demək, haqlısan.
Sənin dediklərin səmavi  nağıl,
Fəqət həqiqətdir Yerdəki İnsan!!

O gündən başlayır Yerdəki cihad:
Məktəb İlahinin öz cəbhəsidir.
İblislə savaşır şüurda Həyat:
Məktəb ilahinin məhkəməsidir.

Müəllim tanıdır Haqqın sevgisin
Bütün insanlığa gündə yüz kərə.
Salavat çevirib,  "Amin"lər desin
Gərək bəşəriyyət Dərs olan yerə!

Elə ki, Məktəbə uşaqlar gəlir,
Arzu qanad açır ağ mələk kimi;
Dünyanın üzünə həqiqət gülür,
Bahara boylanan ağ çiçək kimi.

Şeytanlı, mələkli bu Yer üzündə
Nə qədər sinədə çarpan ürək var:
İnsan həyatının hər dönəmində
Məktəbdən başlayır əsl arzular...

İlk məktəb həyata açılan səhər,
Taleyin ömürdə ilk gündüzüdür.
Məktəb tale üçün gedilən səfər,
Müəllim taleyin elə özüdür!.

4



Əlvənd dağlarının məğrur köksündə
”Çiyni” çağırılan çiçəkli kənd var.
Enib gələr bura hər su içəndə
Baba Dağda qanad yormuş qartallar...

--Ey dağlar mələyi, ürəyim Çiyni!
Səni tərk edirəm məni bağışla...
Bakıda artırmaq gərək biliyni:
Yoluma uğur de büllur yağışla!

Çiyni kənd məktəbi öz qartalların
Uçurur ən yüksək zirvələrindən.
Bakıya yollayır İsmayılların,
Ayırıb canını öz ciyərindən...

Yalnız arzularda dərin məna var,
Könül bir atlıdır, dünya bir cıdır.
Nöqtə ilə bitir bütün kitablar,
Həyat sonluq deyil, başlanığıcdır!

İsmayıl "müəllim olmaq" arzusun
Həyata keçirmək üçün yollanır.
Çiynidən ayrılıb, Təhsilin yolun
Həyatda özünə əsl Həcc sanır.

Elm Çində olsa, get arxasınca!—
Allahın elçisi söyləyib belə.
Bu böyük həqiqət dünya durunca
Baş proqramdır bu vətənə, elə!..



Allah "Oxu" dedi. "Quran" qiraət
Dərsidir bəşərin neçə əsrdir.
Məktəbə, kitaba eləyib beyət
Əsl müsəlmanlar neçə nəsildir.



Ürəyin Kəbəsin Məkkə səmtdə,
Zəkanın qibləsin sən Məktəbdə bil.
Üstünlük göstərsə, hər kim rütbədə,
Kitabsız yaşarsa, o, heç kim deyil!

Fərabi, Xarəzmi, əl-Kindi, Sina...
Çoxmudur hesabı bu dahilərin?!
Tanrımın Rəsulu şahiddir buna:
Haqq cənnətdə verib Müəllim əcrin.

Həyat bir gözəlin deyildir nazı,
O çox gicbəsərin taxtın devirdi.
Tanrının verdiyi ən böyük Ruzi
Ağıldır! Haqq onu qanana verdi.

Bir qara tablodur Yazı taxtası,
Bir də ağ təbaşir Məktəbin gücü...
Bütün ömrümüzün bəyaz mənası
Bu qara tabloya cəmləyir bizi!..

# II HİSSƏ

# ALİ MƏKTƏB



## 1

Tələbə İsmayıl o xoş illəri
Yazdı  həyatının ağ səhifəsinə.
Hərdən də qəlbinin hicran dilləri
Qovuşdu Çiyninin qərib səsinə.

O gözəl çağlardan qoy danışım mən.
Tələbə illəri... O əziz çağlar...
Xatirə düşdükcə bilmirəm nədən
Könüllər həm gülər, həm də ki ağlar...

Dillənin, hardasız, tələbə dostlar?!
Həyat hər bir kəsi sınağa çəkdi.
Gənclik ömürlərdə əbədi bahar,
Dostluq könüllərdə solmaz çiçəkdir.

Bu dostluq tarixi sınaqdan keçib,
Kəndlərə, şəhərə nur saçmalıydı.
Şərəfli Müəllim yolunu seçib,
Elmin sirlərindən baş açmalıydı.

İnsanlıq yaranan gündən ta bəri
Ağıl qüdrətindən dərya tək daşıb...
İnsanlıq qət edib bütün hər yeri,
Məktəblə, kitabla sərhədlər aşıb.

İsmayıl qatlaşıb hər əziyyətə
Oxudu, öyrəndi qalın cildləri.
Bir an ayırmadı istirahətə,
Bakıya ayağın qoyandan bəri.

Gənclik fürsətidir darülfünunlar,
Verilir anlayan, qanan hər kəsə.
Doğulub ölməyin nə mənası var,
Könül arzulara əgər yetməsə.

İsmayıl düşünür, xəyala dalıb,
Ömrün əvvəlini, ömrün sonunu.
Arzular qanadı üstünə alıb,
Uzaq ünvanlara aparır onu...

(Duz-çörək, düz çürək yeyib böyüdük:
Atalar-analar buna öyrətdi.
Daim özümüz tək könlümüz böyük
Məqsədlər, arzular ardınca getdi.)

Yalana, doğruya bölünüb dəhir:
Müşküldür məqsədə düzlüklə yetmək.
Müəllim olmağın ilkin şərtidir,
Bu əyri dünyanın düz yolun getmək.

Müəllim qaydalar, qanunlar dili,
”Məxzənül-əsrar”a düşən açardır.
Qalmaz pünhanların bağlı kilidi,
Nə qədər dünyanda müəllim vardır.

Nizamı baqidir bu yerin, göyün,
Nizam kainatın gözəlliyidir.
Qaydasız yaşamaq istəyənlərin
Yeri Afrikanın cəngəlliyidir!

Tanrı elçilərin Müəllim kimi
Göndərdi dünyaya,- öyrədin,- deyə.
Din də din deyildir, yoxsa təlimi,
“Quran” bir Oxudur,-öyrənin,- deyə.

İman bu dünyada insanılq yolu:
Anla iman nədir, anla din nədir...
Müəllim Tanrının ilk apostolu,
Məktəb yer üzünün ilk məbədidir!

Əsl pedaqoqa mərifət gərək,
Nümunə göstərə o cəmiyyətə.
Hər işıqlı zəka, hər odlu ürək
Mürşid olmalıdır mürid millətə.

...Seminar dərsləri, mühazirələr,
Beyin yorulsa da, könül yorulmur.
Tökülür alnından kağızlara tər:
Həyatda heç bir şey zəhmətsiz olmur.

Qalın kitablarla keçir günləri,
İsmayıl oxuyur hər gecə, gündüz...
Pedaqoji təhsil alandan bəri
Nə ürək dincəlir, nə də gözləri.

Vaxtı boş keçirə bilməz o, çünki
Bu gün tələbədir, sabah-- Müəllim!
Bilənlər bunu da yaxşı bilir ki,
Oxuyub yazmaqdan yaranır elm.

Açır ”Didaktika” kitablarını.
Müəllimlik deyil hər kəsin işi.
Bugünkü yaddaşda yaşayır hamı:
Bəşərin sabahı, həm də keçmişi...

Elm bir yarışdır, Məktəb bir klub:
Qələbə yüksəldir millətin adın.
İnsan yaranandan sitayiş olub.
Kitabdır məbudu ilk etiqadın.

Tələbə İsmayıl asudə dəmdə
Açıb səhfələyir ”Gündəliy”ini:
Yeni elmlərlə bərabər, həm də
Həyatla artırır öz biliyini...

Gəlin, biz də baxaq bu "Gündəliy"ə,
Yazılan hər sətir "Tarix"dir  deyə:

--Övliya Çələbi deyib bir zaman,
Batini göz ilə, bəsirət ilə
Görünən dünyaya bax ki, ey İnsan,
Gürdüyün bir gerçək deyildir hələ...

Bir kor, ya bir çolaq doğulsa biri,
Qəzavü-qədərdir düşdüyü halı.
Allaha duadan durmasın geri,
Üqbada əcrini alar məlalı.

O kəs ki, dünyada şikəst edilər,
Ya da namusunu verər əlindən.
Ona da gülməsin gərək bir nəfər,
Məzhəkə quraraq faciəsindən.

Bəla o bəladır: şəxs kasıb ola,
Həm də ki əxlaqsız, arsız və nadan...
Bu bir rüsvayçılıq gərək sayıla,
Heç vaxt adam olmaz belə bir heyvan!..

Kasıblıq dünyada bir dərd deyildir,
Baxıb bu halına utansın bəşər.
Var-dövlət küləyi hər səmtə əsir:
Səadət rəhni deyil simuzər.

Rəhmətlər ruhuna Övliya sənin,
Rüsvayçılıq haqda haqdır hər sözün.
Bu gözəl millətin, gözəl Vətənin
Tanrı bağlamasın bəsirət gözün!..

Kasıblıq da gördük həyatda, əlbət,
Cahan savaşında keçdi ömrümüz.
Yarıac-yarıtox yaşadıq, fəqət
Təlim-tərbiyəsiz yaşamadıq biz.

Tanrı elçilərin Müəllim kimi
Göndərdi bəşərə Dərs öyrətməyə.
Bir din din sayılmaz yoxsa təlimi,
"Quran" bir OXU-dur, kasıba, bəyə!

Bəşər yarandığı gündən ta bəri
Ağlının gücündən dərya tək daşır.
Qanada çevirib bu bilikləri
Məktəblə, Kitabla zirvələr aşır...

Elm İlahinin odudur! Sanma
Biriylə başlayıb, biriylə bitdi.
Bəşər yaranandan bəri daima
Məktəb sona çatmaz bir Estafetdir.

Müəllim millətin, xalqın içində
Ən uca mənəvi zirvədir, sondur...
Həyat nə qədər var: Haqqın gözündə
Müəllim İlahi bir etalondur!..

6

Burada bir söhbət açım sizə mən
"Estafet" adlanan bir Gündəlikdən.



Tələbə İsmayıl hər axşam bir az
Yazıb ağ kağıza bildiklərini,
Özündən sonraya qoyubdur miras
Gündəlik şəklində son Dəftərini...

Vaxtı boş keçirə bilməzdi, çünki
Bu gün tələbədir, sabah--MÜƏLLİM!
Bilənlər bunu da yaxşı bilir ki,
Oxuyub yazmaqdan yaranır ELM!

Gəlin, birgə baxaq bu Gündəliyə,
Yazılmış hər sətir Tarixdir deyə:

***

--Əsil pedaqoqda mərifət gərək,
Nümunə göstərə bu cəmiyyətə.
Hər işıqlı zəka, alovlu ürək
Mürşüd olmalıdır əziz millətə.

Yalandır müstəbid, oğru, ya nadan,
İkiyə bölünüb şüurlu canlar.
Vardır tərbiyəli, kamallı İnsan,
Bir də tərbiyəsiz, cahil bir heyvan.

Hər oğru, hər qatil, hər cür hoqqabaz
Yalnız tərbiyəsiz adamdan çıxar.
İnsanlıq həddini bir santı aşmaz
Hər kimdə tərbiyə, mədəniyyət var.

Açıb vərəqləyək Tarixi burda:
Qədim Yunanıstan--Sokrat məktəbi.
Ana təbiətin yaşıl qoynunda
Yalnız elm idi ağlın kövkəbi.

Cəhalət Sokratı (e.ə.470-399) edam edəndə
Dünya zülmət içrə hələ yatırdı.
Əflatun, Ksenofont alıb qələmə,
Sokratı bu günə, bizə çatdırdı...

İmperator dedi: Haqq edin mənə,
Sokrat işıq idi bizə gərəksiz.
Nifrət eləyərək onun elminə,
Bununçün o şamı söndürmüşük biz!

Sokrat şərəfinə, ağlı gücünə
Akademiya Qul Əflatun açdı.
Alıb ESTAFETi mürşiddən yenə
Ərəstu cahana nur, işıq saçdı!..

Təlimlə, təhsillə, tərbiyə ilə
Özünə işıqlı yol açıb bəşər.
Günəş də bir gündüz deyildir hələ,
İnsan zəkasında açmazsa Səhər!

Bir Sokrat qanmaza güdaza getdi,
Min Sokrat doğuldu onun yerində.
İmperator öldü, Sokratsa indi
Yaşayır dünyanın Məktəblərində:

(-Söyləyin Ləyaqət nə olan şeydir?
Sokrat sual verib cavab istəyir...
Nadan şah da olsa, lovğa səfehdir,
Ləyaqət- müdriklik, bilikdir!-deyir.

Cəllad ola bilməz savadlı insan,
Nadandır birər tüm qatı tiranlar.
Bizi Yunanıstan etmədi "yunan",
Bizi elm etdi müdrik insanlar.

Kamillik- tərbiyə, təhsil deməkdir,
Ədalət kamala bağlıdır ancaq.
Sənə düşməndən çox şər gələcəkdir:
Cahili özündən tutmasan uzaq.

Nəticə-səbəbi sual-cavab bil:
Qürub zilli doğar, tülu sabahı.
Vəzifə, libas, pul bir kimlik deyil,
*"Danış, görüm səni":* sən kimsən, axı?!*

Yalnız bilik ilə canlıdır ürək,
Nadan yaşamaqdan ölüm yaxşıdır.
Günəş qaranlığa qarşı olan tək,
Ağıl da cahilə daim qarşıdır.)

---

*PS: İfadə Sokrata məxsusdur.

Bu, köhnə düsturdur, deyildir təzə:
Vicdan olan qəlbdə vətəndaşlıq var.
Vicdanı özündə olan hər kəsə
Vicdan güzgüsüdür digər İnsanlar.

Müəllim vicdanın ilk etalonu:
Çalış  "beş" qiymət al onun gözündə.
Məktəbdir mənliyin əvvəli, sonu
Dünyanın, varlığın tam mərkəzində.

Özünə qiyməti qoymayan biri
Ən alçaq nəzərlə süzər hər kəsi.
Belə ölülər var nə qədər "diri",
Gedib-gəlir yalnız quru nəfəsi...

Şərt deyil bəzəyin-düzəyin nədir,
Vicdanın bircənə nişanəsi var:
Diqqətlə ətrafa baxıb, et fikir,
Səni hansı gözlə görür İnsanlar.

Qoy duyub anlasın bunları bəşər,
Dünyalar baqidir nizamı varsa.
Kainat dağılıb yerə tökülər,
Ulduzlar Günəşi lağa qoyarsa.

Allaha, Qurana haqsızlıqdır:
Həyatda özgənin haqqını yemək.
Dünyada ən gavur kitabsızlıqdır,
Bazar süpürənə ”Müəllim” demək.

Müəllim millətin, xalqın içində
Ən uca mənəvi zirvədir, sondur...
Həyat nə qədər var: Haqqın gözündə
Müəllim İlahi bir etalondur!..

7

Burada bir söhbət açım sizə mən
“Estafet” adlanan bir gündəlikdən.
Gəlin, birgə baxaq bu Gündəliyə,
Yazılmış hər sətir Tarixdir deyə:

--Ey “İxvan üs-Səfa”! Keçdi əsrlər,
Sizi unutmadı İslam aləmi.
Durubsuz tarixdə, bilir nəsillər:
Dünyada ilk Qamus yaradan kimi!

“Səfa” qardaşları: ”İxvan üs-Səfa”.
Yaxın Şərq. X əsr. Xilafət.
51 traktat—nəhəng risalə:
İslam dünyasında budur həqiqət!

Müslüm Əndəlüsdən alıb Avropa
Çevirdi “Qamus”u bütün germana...
Su töküb İnkiviz od-tonqallara,
Biz elmi qaytardıq qərbli insana*.

Əflatun, Ərəstu İslamdan keçib,
Səlib Avropaya müyəssər oldu.
Böyük Nyutonlar zəhmətlər çəkib,
İbn-Sinalardan sonra doğuldu...

...Dünyanın Birinci darülfünunu
Bağdadda qurulmuş ”Nizamiyyə”dir.
Səlcuq Alp Arslanım açmışdır onu,
Tarix: 1066 milad ildədir!..

Cəmi beş il sonra Malazigirddə
Yenildi Bizansın məşhur ordusu.
Durdu Türkiyəmin doğduğu yerdə
Qələmli, Qılınclı Turan Ordusu!

Qoy Tarix söyləsin, tərəf tutmayaq,
Qələm, yoxsa Qılınc yendi Yunanı?..
Qələmi Qılınca durarsa dayaq,
Zəfər izləyəcək hər vaxt Turanı.

-------------------

*PS: Bu tarixi fakt dahi postmodernist yazar Umberto Ekonun şatolar, tacirlər və şairlər haqqında yazdığı “Ortaçağ” kitabının “Bilim və Teknik” bölməsində təfsilatlı şərh edilmişdir. Bax. İstanbul. “Alfa.Tarih”nəşri, 2015-ci il.

600 min kitab--bir Mədrəsədə
İkinci min ilə işıq, nur saçdı.
600 min şagird: hesab, həndəsə...
Turana Türkiyə yolunu açdı!..

Xətib Təbrizilər, əl-Qəzalilər...
Urməvi, Bərdəvi, Sübhəverdilər!..
Hər biri tarixdə Qızıl bir səhər!
Elm ilə zülmətə sinə gərdilər!..



Xaqani məktəbi. Ulu Şirvanım!
Dünyaya İntibah gətirdi gəldi.
Fəxr edir Səninlə Azərbaycanım:
Can Vətən Tarixim necə gözəldi!



Nəsimi, Həbibi, Füzuli, Seyid...
Hər biri dünyanın şah məktəbidir.
Hər biri bir Qazi, hər biri şəhid,
Hər biri bir mövla, bir Çələbidir!

...Cığatay bir yalnız Teymur xan deyil,
Herat məktəbidir, Nəvailərdir.
Durub Bayraq kimi səflə elə bil:
Əbru, Səmərqəndi, Mirxond,
Xandəmir!..

Qoca Hindistanı Mahmud, Babur yox,
Behzad, Sultanəli, Vaizlər tutdu.
Mənim ürəyimi ağrıdır bu çox:
Nədən öz tarixin Turan unutdu?

8

İsmayıl müəllim ”Gündəliy”ində
Tək bircə nəfərə ayrı yer verib.
O, böyük dahiyə özülüyündə
Xüsusi iltifat, hörmət gəstərib!!

Ayırıb diqqəti biz də ayrıca
Xüsusi mənada yanaşdıq Ona;
Məktəb tariximdə bütün mənada
Seyid Əzimimin tək olduğuna!



Tarixin sınağı, imtahanları
İçində hər kəsin qiyməti yatır.
Bəşər pətək üstə deyildir arı:
Tale insanlarda fərqlər yaradır.



***

Çəkilibdir ən uca ərşi-müəllayə Seyid,
Dönə, Allah, nə ola, bir də bu dünyayə Seyid!!

Döyünən qəlbə odur sevgi-məhəbbət gətirən,
Bir könül qasididir hər büti-zibayə Seyid.

O, behişt, cənnətin öz ilk maarif xadimidir:
Verə üqbadə də dərs Xızra, Məsihayə Seyid.

Qoca Şirvanımın ən ülvi, uca zirvəsidir:
Çəkə dünya üzünə dağlar ilə sayə Seyid.

Bu könül xəstəsinə, söylə, təbib neyləyəcək,
Dəva-dərmandı özü dərdlərə dəvayə Seyid.

Oxu, ey bülbüli-zar, bağü-gülüstanda səhər,
Güli-həmradı bütün bülbüli-şeydayə Seyid.

Seyidanə, ey Ata, şeyrü-qəzəllərlə yaşa,
Həmi dünyayə hökmdardı, həm üqbayə Seyid.

***

1869-cu il!..
Seyid məktəb açdı doğma Şirvanda.
Milli bir ruh olub, elədi mənzil
Bu ilk Ana dilli məktəb Turanda!

-- “Cəfər, ey nuri-dideyi-Seyyid!
Qönçeyi-növrəsideyi-Seyyid!
...Demə bu kafər, ol müsəlmandır,
Hər kimin elmi var, o, İnsandır!

Elm bir nur, cəhl zülmətdir,
Cəhl cəhənnəm, elm cənnətdir.
Sənə hər kimsə elm edər təlim,
Ona vacibdir eyləmək təzim.

Harda gördün ona “Salam!” eylə,
Baş əyib önündə ehtiram eylə.
...Bil ki, ustadın, ey rəşid püsər,
Sənə ruhaniyyətdə oldu pədər.

Atan ki bir mənəm, bir də ustadın,
Cəhd qıl yaxşı çıxmağa adın”.
*”Padşahi-püsər bə məktəb dad,*
*Lövhi-siminbəsi dər kənar nəhad.*

*Bər səri lövhi u nəviştə bə zər:*
*Cövri-ustad beh zi mehri-pədər.”(Sədi)*
--Bir padşah oğlunu məktəbə yazdı,
Boynundan bir qızıl lövhəcik asdı:

“Ata sevgisindən artıqdır yenə,
Müəllimin versə min cövr sənə.”
Belə aparırdı məktəbdə təlim,
Hacı Seyid Əzim-Milli müəllim:

--“Elmdir baisi-tərəqqiyi-tam,
Alimə tay deyil güruhi-əvam.
...Hələ qalsın bu rəmzlər bari,
Elmsiz adəmin nə miqdari?”

--“Əvvəla bizdə yox o məktəblər
Ki, verə kəsbi-elmi xalqa səmər.
Nə o günə kitablar əlan
Ki, ola öz lisanımızda bəyan.”

--“Məgər ol Əsgəri-Gorani gələ,
Neçə məktəb dəxi gələ əmələ.
...Aça onlar da mən kimi məktəb,
Çəkələr ruzü şəb əzabü təəb...”

“Kitabül-tac”, ”Uşaq baharı”, ”Tarix”
Seyid yorulmadan yazdı Dərsliklər:
Hər biri şah əsər, Vətənə layiq.
(Gündüzə yol açar Günəş tək təklər!)

“Əkinçi” ilə də edib yoldaşlıq,
Yazırdı elmdən şeir, məqalə...
Qurtara bu zillət, bu gözü yaşlıq,
Millət gətirilə başqa  bir halə.



--“Həsən bəy, nəcibi-dövri zaman,
Sənin insafına olum qurban.
Ki, nəsihətdir xalqa göftarın,
Heyfdir söhbəti-şəkərbarın.

Sözlərin, ey cahani-fəzlü hünər,
Əhli-hikmət yanında canə dəyər.”
Seyidi görürəm mən hər sözündə,
Vətənin açılan hər gündüzündə...

53 yaşında ömrünə qıyıb
Seyidi məhv etdi bir ovuc harın...
Silinməz adından o qanlı ayıb
Müəllim öldürdən o nadanların...

Çarın təşviqilə 20 mayda (1888)
Məktəbə gedərkən qəsd edib ona,
Büsat qurmaq üçün cahil Sarayda
Böyük bir kamalı vurdular sona.

Seyidim! Ey mənim ilk müəllimim!
Zaman sənə qarşı cinayət etdi.
Məhəbbət izləyir adını daim,
Canlı arzuların məqsədə yetdi.

Puşkinə Moskva heykəl yapanda,
Seyid bu tədbirə bir şeir yazdı*.
Bu gün öz Vətəni Azərbaycanda
Seyidə min heykəl qoyulsa, azdır!..

---------------------
*PS: Puşkinə heykəl qoyulması münasibətilə (“Nizami-aləmin icrasına hər qəridə bir kəs” şeiri).

Sən Ana dilimdə ilk Məktəbimsən!
Mürşüdüm, mövlanam, ustadım: Seyid!
Bisütun zülməti yarıb kökündən
Dağlara yol açan Fərhadım: Seyid!

***

Müəllim öldürmək, ölkədən qovmaq
Nadan əsrlərin bir adətidir.
Müəllim öldürmək, məktəb qapatmaq
Dünyanın ən böyük cinayətidir.

Dünya materialdır, Müəllim- həyat,
Təhsil, tərbiyədir İnsan doğulmaq.
Göylərdə allahlıq etməkdən qat-qat
Çətindir Yer üstə Müəllim olmaq.

Müəllim son pikdir bütün millətə,
Sonsuzluq Müəllim adıyla bitir...
Dünyanın Məktəbdir böyüklüyü də!
Müəllim həyatın təmizliyidir!

Bütün ağılların Baş qəhrəmanı,
Bütün könüllərin şahı-- Müəllim.
Biliklə tanısaq əgər İnsanı:
Dünyada yeganə dahi-- Müəllim!

Müəllim millətin ən yanar şamı,
Həm də ki bu şamın pərvanəsidir.
Müəllim Vətənin fazil insanı,
Həm də ki Məcnunu, divanəsidir!..

Elm qüdsiyyətin ən dadlı barı,
Məktəb insanlığın ilk baharıdır.
Dünyanın ən ağır həyat yolları
Müəllim alnının qırışlarıdır.

Ən qızıl yazıdır o alında bəxt,
O həm də könüldə min göz yaşıdır.
Mən ki Müəllimə baxıram nə vaxt:
Görünən bir yalnız Haqq savaşıdır.

Müəllim öldürmək, ölkədən qovmaq
Nadan əsrlərin bir adətidir.
Müəllim öldürmək, məktəb qapatmaq
Dünyanın ən böyük cinayətidir.

Maarifçi çex Yan Amos Komenski
(1592-1670)
--“Hamıya hər şeyi öyrədək!”-dedi.
Açıb Avropada Yeni Məktəbi
--Budur millətlərə Baş, Ürək!-dedi.

Bir nadan, ağılsız çex hökmdarı
Yana vətənini tərk elə!-dedi.
Sürgün oldu elm, dərs kitabları,..
Bir cahil kor etdi bütün milləti.

Yanın ”Pansofiya” ideyaları
Bütün Avropanı aldı başına.
“Böyük didaktika”(1632) zəkanın barı
Çevrildi tarixin məhək daşına.

Yan Amos doqmatik, dar baxışları
”Ana məktəb”indən kənara atdı.
İnsandan Xaliqə, Allaha sarı
Əbədi, sarsılmaz körpü yaratdı.

“Alman maketi”ni həmin məktəbin
Sovet İttifaqı tətbiq eylədi.
Qoşulub Amosa kommunist Lenin:
Oxumaq, oxumaq, oxumaq!-dedi.

Bilik-- nəzəriyyə, bacarıq-- əməl,
Vərdişlər, sadəcə, həyat tərzidir.
“Böyük didaktika” deyir müfəssəl:
Məktəb universal həyat dərsidir!

İlk yzı lövhəsi, ilk parta, silgi,
Bir də ilk təbaşir: Seyidin dərsi!
İlk məktəb, müəllim, ilk elm, bilgi
Milli məktəbimdə Seyidin irsi...

***

Bir qara tablodur Yazı taxtası,
Bir də ağ təbaşir Məktəbin gücü...
Bütün ömrümüzün nurlu mənası
Bu qara tabloya cəmləyir bizi!..

***

Endir qədəhi, saqiya, ərvahi-Seyidçin,
Fərdayə tutaq üz yenə səbbahi-Seyidçin.

Zöhd əhli bu Yer üzündə hər cürmü törətdi,
Şahid çağıraq göydəki Allahı Seyidçin.

Ey piri-muğan, meykədə, meyxanədə yasdı,
Əhli-xərabat ərşə çəkir ahı Seyidçin...

Dünya malı düyada qalar, ey dəni-tüccar.
Üqba da gülər vicdana, vallahi, Seyidçin.

Xaqani, Nişat, Ağaməsih, Bixudi-Sabir,
Eylər duavü-sənaları dahi Seyidçin.

Sınmış qədəhin cürmü böyükdür bizə, ey şux,
Bəstə çağıraq şövq ilə Dərgahı Seyidçin.

Zəbani-Seyid ilə, Ata, çak elə köksü,
Gahi özünə ağlaya dil, gahi Seyidçin…

***

9

Tələbə İsmayıl  Müəllimliyin
Şanlı tarixini öyrənir bir-bir.
Sokratın, Amosun, Seyid Əzimin
”Estafet”i bitməz bir an da!—deyir.

Elmin Səməndəri, Simürğüyük biz,
Millətin uğrunda yanıb kül olluq.
Fəda eləmişik, çün hər birimiz
Elmə, Maarifə ömrü biryolluq!..

Tanrı elçilərin hicrətlə sınar,
Qəriblik ürfana aparan yoldur.
”Çox gəzən çox bilər!”- deyib atalar,
”HƏRƏKƏT”-- bəşərin taleyi budur.

Maarif hərakat, elm yürüşdür,
Yerində sayanlar qalacaq geri.
Həyat qaranlıqla qanlı döyüşdür,
Elmlə fırlanır fələyin çərxi...

Nisgillər dindirir hərdən ki qəlbi,
Doğma Çiyni də tez düşür yadına.
Gəlin qınamayaq heç bir qəribi,
Hicran acı qatır gənc həyatına.



Doğma kənd, dost-tanış, ana və ata
Ürəyə:-Hardasan? Qaqyıt, gəl!—deyir.
Çəkib qəlbi, ruhu min xəyalata:
Gözüm yolundadır!- bir gözəl deyir.

Hər Dilbər gözəlin öz aləmi var,
Yorar gözlərini uzun intizar.
Nə qədər hicranla düşünərsə baş,
O qədər acıdır gözdən axan yaş.

Eşq də həyatdır, Elm də həyat,
Onlar ayrı deyil bir-birlərindən.
Eşqlə nizamlanır bütün kainat,
Elmlə boylanır Gün Dan yerindən.

Mənim bu fani dünyada bəqayə ehtiyacım var,
Yara namə yetirməkçin səbayə ehtiyacım var.

Yem üçün yer gəzən çərkəz deyiləm, ey könül, əlhəqq,
Səməndər xislətəm, daim səmayə ehtiyacım var.

Çəkə bilməm Musa tək xəlqimi bir səmtə, ah, neylim?
Bu köçhaköç, qaçaqaçda əsayə ehtiyacım var.

Deyildir könlümün yarı nə bir Leyla, nə bir Şirin,
Mənim eşqi-məhəbbətdə vəfayə ehtiyacım var.

Dura bilməz mənə qarşı nə Ərzən-rum, nə keşiş Marr,
Kəräminəm, gözəl Əslim, bəlayə ehtiyacım var.

Param-parça olan qəlbim qan ağlayır gecə-gündüz,
Aman, Allah, önündə bir ətayə ehtiyacım var.

Necə bəs əl çəkim, ey dil, cananları
tərənnümdən,
Bütün canlar mənə söylər: Atayə ehtiyacım var!

***

İdeal və Gerçək!! Eşq və Həqiqət...
Hər kəsin ömründə vardır bu təzad.
Müəllim olsaq da, sirr deyil, əlbət,
Bizi də suala çəkir bu həyat...

Vardır qəlbimizdə Füzuli eşqi,
Biz də Məcnunuyuq bu səhraların.
Oxu dastanını,  həsrətim Çiyni,
Yollara boylanan sərvi-nigarın.

“Yandı könlüm, gözdə qanlı qətrələr vardır hələ,
Od sönübsə, şöləmizdə yüz şərər vardır hələ.”
(M.Füzuli.Fars divanından.)

Ey deyən kim dünya zülmət içrədir, yox sübh-
səbah,
Üzməm ümmid, qarşıda çox sübh-səhər vardır
hələ.

Yusifi-Misrəm, mənə gəl baxma təriz gözüylə,
Yaqubi-Kənana məndən xoş xəbər vardır hələ.

Vermişəm bu canımı, canana qurban etmişəm:
Candan ayrı cana, ey can, min zərər vardır
hələ...

Etməsinlər Xosrov ilə məni əsla bir qiyas,
Şirini-eşq azdır, ona min Şəkər vardır hələ.

Gülzari-eşq içrə ötən bülbüli-şuridəyəm,
Susmaram, ey gül, könüldə qəm, kədər vardır
hələ.

Bir Atayi-pirəm, ey şux, əğyar-ədu bilmərəm,
Ərseyi-eşq içrə öndə min zəfər vardır hələ.

***

Sevgi, eşq ürəyə şölən salsa da,
Elm beyinlərdə yaranır yalnız.
Əzəli qaydadır qoca dünyada:
Günəş boylananda yox olur ulduz...

Tələbə təkliyə öyrəşməlidir,
Hicrət hərəkətin başlanğıcıdır.
Kim ki "Çinə qədər elm üçün gedir":
Allahın gözündə əsl hacıdır!

10

...Tələbə İsmayıl hər gecə-gündüz
Çevirir tarixi hey vərəq-vərəq.
Nə qədər oxuyub öyrənir, hərgiz,
Gözündə, könlündə tükənmir maraq.

1882-ci ildə
İsmayıl Bəzmi Hacı Kazımov
Seyidə qoşulub bu Estafetdə
Saldı İrəvana məşəldən alov.

1883. Şuşa. S.Vəlibəyov:
Qoydu binasını yeni məktəbin.
Onun uğuruna "İnşallah" deyib,
Davam elətdirdi Nəvvab Mir Möhsün.

1892. Ordubad.
Açdı "Əxtər"ini Məhəmməd Tağı.
Büründü maarifə bahar tək həyat,
Yayıldı hər yerə məktəb sorağı...



İkicə il sonra Naxçıvanda da
"Məktəbi-tərbiyə" yaratdı Sidqi.
"Qaranlıq içindən"* yetib imdada,
Çəkdi maarifə, təhsilə xalqı.

*PS: İfadə C.Məmmədquluzadənindir.

Yardı Şirvanımın ürfan işığı
Arazın bulanıq, boz sularını.
Yaydı güneylərə ilk bahar çağı
Seyidin gül açan arzularını!..



Təbriz də, Tiflis də bu yolu getdi.
Seyid Əzimləri artdı millətin.
Vətənin cəhalət dövranı bitdi,
Kimsə ora bizi qaytarsın, çətin...

Gəlin yada salaq Mirzə Həsəni!
İrəvan! Təbrizim! Nəhayət, Tehran!
Müzəffərəddin şaha tutub üzünü
Deyir:-- Ana dillə nurlansın İran

1899-cu il.
”Rüşdiyyə məktəbi”. Üsuli-cədid!
Qoşulur Tehrana Maku, Ərdəbil...
Oxuyan cəmisi 200 şagird?!.

Şah qovur ölkədən Mirzə Həsəni...
Qapadır məktəbi. Qınayaq onu:
Çünki həmin gündən, əmrdən yəni
Başladı tarixdə Qacarın sonu...

Güney Azərbaycan, öz Təbrizimdə
İlk Anadilli Məktəb quran şəxs:
Hacı Seyid Həsən! O Tağızadə (1878-1970)
Haqqında eyləmək istəyirəm bəhs.

O kitab evləri, okul, nələri...
Çıxmaz Millətimin yadından heç vaxt.
Həsənim Sürgündə (1903; 1911): İstanbul şəhri
Bunu əbədiyyən xatırlayacaq...

Təbriz məktəbində türk dilli illər
Seyidin Dərsliyin cildləyib Kitab;
Seyid Əzim oğlu gənc Seyid CƏFƏR,
Tağıyev puluna eyləmişdi çap!

Səttar xan məşrutə hərakatında (1906-1911)
Millətin önündə Həsən yer aldı.
11-də İstanbul sürgünatında
Məhəmmədəminlə* bir evdə qaıdı...
(*PS: Məhəmmədəmin Rəsulzadə nəzərdə tutulur.)

İlk Sosial-demokrat Firqə İranda
Sənin də adınla bağlıdır, Həsən!
Silinməz izin var Türk tək Tehranda:
Nazir, Məclis sədri, deputatdın sən!

Məhəmmədəminim gözün yumanda
Sən yazdın Birinci vida sözünü.
İRAN boğulanda kibrü-yalanda
Sən idin söyləyən Sözün düzünü.

Vətən yer vermədi qoynunda sənə...
Bir ömür yaşadın acı qürbəti;
Verdi qulağını ingiliscənə
Nyu-York Kolumbiya Universiteti!



Sən Zəki Vəlidi Toğanla birgə
Bəzədin ABŞ-ın Müəllimliyin.
Kitabsız Tarixdə, dilsiz ürəkdə
Mənəvi fəxrimdir milli kimliyin!!.

Kazak yalı yemiş Mazandarani—
50 il İranda Türkə "xər" dedi.
"Pəhləvi" bir qanmaz gəda Rzanı
Qərb Turan üstündə padişah etdi?!

Heykəllər, dəbdəbə, mundir, qalın bığ...
Kazak tulasının taleyi oldu.
Qərbin Demokratik gözündə açıq
Güneydə Azəri türkü boğuldu...

45-də bir daha Pişəvərimi
Arxadan namərdcə vurdular, əlan.
Mənim öz hüququm var!- deyən kimi
Boğuldu qanında Azərbaycan.

Hüququm Babəkin, Qılıncın dili!
Hüququm Nəsimi fəlsəfəsidir!
Güney Azərbaycan Azəri eli
Qəlbimin sabahkı zəfər səsidir!

... Gəlin yada salaq Mirzə Həsəni!
İrəvan! Təbrizim! Nəhayət, Tehran!
Müzəffərəddin şaha tutub üzünü
Deyir:-- Ana dillə nurlansın İran!

1899-cu il.
”Rüşdiyyə məktəbi”. Üsuli-cədid!
Qoşulur Tehrana Maku, Ərdəbil...
Oxuyan cəmisi  200 şagird?!.

Şah qovdu ölkədən Mirzə Həsəni...
Qapatdı məktəbi. Qınayaq onu:
Çünki həmin gündən, əmrdən yəni
Başlandı tarixdə Qacarın sonu...

Əgər Dil ölərsə, Millət yox olar.
Dildə rəvac tapar bütün arzular.
Dil--Millət, Vətəndir. Dildir hüquq, haqq!
Hər kəslə dilində danışır Allah!

Baburlar, Qacarlar, tüm Osmanlılar
Bilik cəbhəsində yendilər Qərbə.
Müəllim, Məktəblə, Elm ilə onlar
Endirə bilmədi düşmənə zərbə.

1865-ci ildə
İlk bina tikildi Darülfünuna
Osmanlı adlanan Turani eldə...
İndi qiymət verin özünüz buna?!



Cəmi ikicə il türklərdən sonra,
Beyrut Amerika Universiteti
Açıldı:  qəpiksiz yığaraq ora
Qeyri-müsəlmanı Tələbə etdi...

1869-cu il.
Darülfünuni-Osmaniyyədə
Yatanlar  ayıldı xabdan elə bil:
İlk tələbə qeydi başlandı hələ...

O həmin ildir ki, Seyid Əzim də
Bizə Şamaxıda bir Məktəb açdı:
Maarif günəşi Ana dilimdə
Odlar Yurdumuza ilk işıq saçdı!!.

O həmin ildir ki, Yaponiyada
Çökdü Tokuqava Sequnatı da.
”Meydzi isin”lə bu kiçik ada
Yerindən oynatdı kainatı da...



İkicə il sonra o Yaşıl ada
Ümumi məcburi təhsilə keçdi.
İbtidai Məktəb tüm Yaponiyada
Millətə maarif libası biçdi!

Öz Bilk gücüylə Sakura yurdu
Çini, Hindi-Çini qul edəcəkdi.
Darmadağın edib Port-Arturu
Çar Rusiyasını çökdürəcəkdi!

Ağılsız güc-qüdrət bir heyvanlıqdır,
Mənəvi ölümdür Biliksiz həyat.
Göyün də Kamalı nurdur, işıqdır,
Günəşdən Dərs alır bütün kainat!

Milyon Axillesin Troya yürüşü
Dəyməz bir uşağın ilk Dərs gününə.
Min Troya Atı, min At gedişi
Dəyməz cocuq yazan ilk "A" hərfinə!..

Dərs qəlbin ən zərif təranəsidir,
Məndən inciməsin Homer, Vergili...
Dünyanın ən kamil hadisəsidir
Şagirdin yazdığı nöqtə, vergülü.

"Müdrik Natan"ını (1779) xoca
Lessinqin
Yüz "Odisseya"dan üstün tuturam.
Adınızı sizin Çingiz Timurçin,
Volteri görəndə mən unuduram.



Şumer uşağının bir gil “Dəftər”i
Misir “Xeops”unın mininə dəyər.*
Kölgədə buraxar tüm dahiləri
Gəmiqayamıza cızılmış əsər!..*



*PS:Misir piramidaları içərisində ən ucasıdır. İlk hündürlüyü 147 metr olmuşdur. Hər biri 2 ton yarımlıq 2 mln. 300 min daş-qaya parçasından ibarət olmaqla, Firon Xufunun şərəfinə inşa edilmişdir.

*PS:Naxçıvan ərazisində ən qədim yazılı abidə.

# III HİSSƏ

# HƏYAT MƏKTƏBİ



1

Yan Amos Komenski: müasir məktəb.
XVII əsrin parlaq Günəşi!
“Böyük didaktika” və ”Ana məktəb”:
Budur Prometeyin əsl atəşi!

Cəlal Ünsizadə, Mir Möhsün Nəvvab...
Məşədi İsmayıl*, Mirzə İsmayıl**...
Mirzə Həsən Rüşti, Məhəmməd Tağı...
Məgər bu isimlər bir Günəş deyil?!

---

*PS: Məşədi İsmayıl Hacı Kazımzadə--Bəzmi. İrəvan milli məktəbinin banisi.

**PS: Mirzə İsmayıl Qasir Molla Səlim oğlu Axundov. Lənkəran milli məktəbinin banisi. M.İ.Qasir 1883-1900-cü illərdə 18 il Lənkaran ikisinifli ibtidai məktəbində Azərbaycan dili və şəriət müəllimi olmuşdur. 1884-cü ildən etibarən onun da adı “Kavqazskiy kalendar”ın müəllimlər siyahısında çəkilməyə başlamışdır. Qasir 1860-cı ildə ilk “Talış dilinin qramatikası” dərsliyini, 1894-cü ildə isə Seyid Əzimin ənənəsini davam etdirərək “Qanuni-Mirzə İsmayıl Qasir ” adlı Milli dərs vəsaitini yazmışdır.

Təlimlə, təhsillə, tərbiyə ilə
Tarixdə işıqlı yol qoyub bəşər.
Günəş də bir gündüz deyildir hələ
İnsan zəkasında açmazsa səhər.

Bir qara tablodur Yazı taxtası,
Bir də ağ təbaşir Məktəbin gücü...
Bütün ömrümüzün bəyaz mənası
Bu qara tabloya cəmləyir bizi!..

2

Uca dağ köksündə Çiyni kəndim var:
Torpağı mənimdir, daşı mənimdir!
Sellərə güc gələn möhkəm bəndim var,
Qurusu mənimdir, yaşı mənimdir…

İlahi, bir ömür səbir ver mənə,
Kəndimə xidməti əcr ver mənə.
Çiynimin üstündə qəbir ver mənə,
Bilim ki qəbrimin daşı mənimdir.

Onsuz nə sevincim vardır, nə qəmim.
Çiynidir həyatım, dünya-aləmim.
Gülüşü, sevinci könül məlhəmim,
Gözündə hər damcı yaşı mənimdir.

***

***

Sənin adın ilə ömrə yol açdım,
Əğyarı, dostumu bildim, Məktəbim!
Sayəndə aləmə Günəş tək saçdım,
Zülməti gözlərdən sildim, Məktəbim!

Eşqinlə bulaq tək coşub çağladım,
Andına əbədi könül bağladım.
Sənsiz ötən günə, aya ağladım,
Səninlə illərlə güldüm, Məktəbim!

Dərya mürəkkəbi, bağlar qələmi
Kaş əvəz edəydi, yazam sevgimi...
Bisütunlar yaran bir Fərhad kimi
Səninçin dağları dəldim, Məktəbim!..

Elmdir ömrümün açan səhəri.
Elmdir bağçamın bahar bəhəri.
O ana qoynuna düşəndən bəri
Sanıram həyata gəldim, Məktəbim!

***

...Daha arxadadır Təhsil illəri,
O illər mənasız ötüb keçməyib.
Özünə həyatda Müəllimliyi
İsmayıl ötəri sənət seçməyib.

Halalı, haramı birinci dərsdən
Məktəbli ayırıb tanımalıdır.
Yandan köçürənlər qaçmır nəzərdən:
Bilik hər bir kəsin şəxsi malıdır...

Parta ardındadır sabahkı oğru,
Haqqın Mənsuru da hələ burdadır.
Böyük yalanların nadir ustası
Əlinə düşəni təzə aldadır...

Köçürmək, dublyor cavablar bitib,
İsmayıl müəllim "halal" dərs deyir.
Şagirdə ətraflı izahlar edib,
Bəzi suallara cavab istəyir...

Müəllim dilindən çıxmaz bir yalan,
Məktəb həqiqətin ilk carçısıdır.
Şagird dərsə haram qatdığı  zaman
Şeytanın əlinin bir qamçısıdır.

Bicliyi, gicliyi elm sayanlar
Millətin başında sabah baltadır.
Dərsdə artist kimi rol oynayanlar
Həyatda özünü yalnız aldadır.

İsmayıl müəllim baxır gənclərə,
Min kitab oxuyur bir lal baxışda.
Vaxt gərək itməsin heç hədər yerə,
10 illik zəhmətçin qarda, yağışda...

Boy atıb böyüyən bu yeni nəsil
Ad qazandırmalıdır elə-obaya:
Kiçik Çiynimizin daim ilbəil
Şöhrəti yayılsın bütün dünyaya.

Hər şagird mühitin bir meyvəsidir,
İrsin izləri var hər birisində.
Hər tale bir könül hekayəsidir,
Min hikmət uyuyur onun içində...

Dəf edib mühitin, irsin təsirin,
Şagirdi tərbiyə yoluna çəkmək.
Hətta ən dələduz, tərsin beyinin
Şumlayıb, tumlayıb, Mərifət əkmək!

Bilik nəzəriyyə, bacarıq əməl,
Vərdişlər hər kəsdə həyat tərzidir...
Didaktika deyir: hər şeydən əvvəl
Məktəb universal həyat dərsidir.

Məktəbdən gəmisi çıxmayan losman
Dalağalı dəryanın ən cahilidir.
Məktəbdir dənizə açılan liman,
Sinif gəmilərin ilk sahilidir.

Öz könül qanıydı piltənin yağı,
Seyid yandıranda Dərsdə ilk çıraq.
İlk Dərsə, ilk Sözə hər il qabağı
Başlayaq Seyidi xatırlayaraq:

“Yüz sərvi-xuraman ola, könlüm səni istər,
Yüz baği-gülüstan ola, könlüm səni istər.

Yüz Zöhrə-cəbin, mahi-liqa, mehri-dilara,
Yüz min məhi-taban ola, könlüm səni istər.

Bu zülməti-zülfündə ləbin abi-bəqamız,
Min çeşmeyi-heyvan ola, könlüm səni istər.

Ey xubilərin şahı, könüldür sənə talib,
Aləm hamı xuban ola, könlüm səni istər.

Ey dusti, bizə huriyi-qılman nə gərəkdir,
Yüz huriyi-qılman ola, könlüm səni istər.

Seyyd deyiləm bəndi olam hər güli-alə,
Yüz qönçeyi-xəndan ola, könlüm səni istər.”
(Seyid Əzim Şirvani.1835-1888)

***

Seyid Məktəbinin tələbəsi tək,
Könlümün səsini dinləyərək mən.
Klassik şeirə göz yetirərək,
Hər gün dərs alıram şair Seyiddən:

***

Mənum Məcnun olan könlüm neçə dəştdən
cavab istər,
Nari-duzəx yaxan dövrüm cigərlərdən kabab
istər.

Neçə Fərhad töküb qanın Bisütunlar üstə bəstə,
Şirini-eşq ilən güllər külüngümdən sirab istər.

Xərabat əhli bir muğam, yerim meyxanələr
küncü,
Nəmə lazımdı göftgulər, xumar könlüm şərab
istər.

Verər qətlimə fərmanın məni kafər bilib ol şux,
Nə din, iman, sual-sorğu, nə dəftər, nə kitab
istər.

Salıb əduyi-əğyarla məni hər gün min bəlayə,
Müsəlmana müsəlmanın məkrubundan səvab
istər.

Əsiri-eşq üçün yoxdur bu dünyada xoş ötən gün,
Cünun boynunda tövq-zəncir cünundan gör nə
tab istər?!

Ey Ata, gəl, sədaqətlə çıxardaq ad könüllərdə,
Məhəbbət məşhəri bir gün bu dünyadan hesab
istər.

Xaqani,  Nəsimi,  Füzuli: məktəb!
Müdriklik, cəsarət, heyrət məktəbi.
Sözdən başlanğıc götürür mətləb,
Simurq qanadıdır şairin təbi...

Hamıya hər şeyi öyrətmək lazım!--
Məhəbbət olmasa, həvəs də olmaz?..
Sevgisiz, inamsız mən necə yazım:
Cənab Komenski?.. Əziz Yan Amos?!

Xaqanim, Füzulim sevgi dərsidir,
Günəş də odunu onlardan alır.
Elə ki, qəlbimi zülmətlər didir:
Simürqlər qanadın üstümə salır.

Hərdən tənhalıqla danışır insan,
Təklik daha munis gəlir ürəyə.
Cəmiyyət fərdliyi sıxdığı zaman
Allahı görməkçin baxırıq göyə.

...Dünən qalustuklu birisi gəlib,
Onun dərs işini yoxlamaq üçün.
Məktəbə yürüşün eləyib Səlib,
Orta əsrləri qaytara bir gün...

İsmayıl müəllim baxır ”uşağa”,
Başında heç nəyi yoxdur məmurun:
Qaban qarınını verib qabağa,
Böyüyə, kiçiyə göstərir burun...

Xeyr, gədalığa don geyindirib,
Məktəbə “cihad”la dərs vermək olmaz.
Nə qədər bisavad məktəb ”bitirib”:
Hələ çox görəcək göz belə qanmaz...

Başı boş, ağlı küt belələrinə
Seyiddən bir hikmət Dərsi söyləyir.
--Hədə-qorxuların daim yerinə
Mərifət, elmdən danışın!- deyir:

--“Dedi bir kəs cənabi-Loğmanə,
Ey hünərvər, həkimi-fərzanə!
Hikməti kimdən iktibas etdin
Ki, belə feyzi-əzəmə yetdin?

Dedi ki, hikməti mən, ey sail,
Kor olandan etmişəm hasil.
Bir yeri kor bilməsə möhkəm,
Qoymaz ol mövzeü məhəllə qədəm.”
(Seyid Əzim. “Hikməti kimdən öyrəndin”şeiri)

3

Yan Amos Komenski: müasir məktəb.
XVII əsrin parlaq Günəşi!
“Böyük didaktika”  və  “Ana məktəb”:
Budur Yer üzünün əsl atəşi!

Müəllim qaydalar, qanunlar dili,
“Məxzənül-əsrar”a düşən açardır.
Qalmaz pünhanların bağlı kilidi,
Nə qədər dünyanda müəllim vardır.

Budur, inciyibdir kiçik Cəbrayıl,
Müəllim deyəni o niyə etmiş?..
“Böyük tənəffüs”də ona İsrayıl
“Sən kişi deyisən, satqınsan”- demiş.

Doğruluq, kişilik, həqiqət dərsin
Öyrədir şagirdə Sinifdənxaric:
Haqsıza Həqiqət axı neyləsin,
Gülür xısın-xısın hələ İsrayıl...

Bu kiçik şeiri yazır dəftərə,
Cəbrayıl,  Müəllim gündəliyindən.
Dönüb Haqdan dönməz  Nəsimilərə
Həqiqət Mənsuru olur o gündən:

***

Hər zaman piyadadır,
Atsız olur həqiqət.
Zəqqutum, zəhər dadır,
Dadsız olur həqiqət.

Çoxdur üzə söyəni,
Dalda ağız büzəni...
Yoxdur tərif deyəni--
Tostsuz olur həqiqət.

Ayaq çarıq, yol çamır...
Gözlərindən qan damır.
Aləm görür, tanımır--
Adsız olur həqiqət.

Çəkməz  bir addım geri:
Heç yerdə yoxdur yeri...
Saysızdır düşmənləri,
Dostsuz olur həqiqət.

Yan Amos doqmatik, dar baxışları
“Ana məktəb”indən kənara atdı.
İnsandan Xaliqə, Allaha sarı
Əbədi, sarsılmaz körpü yaratdı.

4

Yalana, doğruya bölünüb dəhir:
Müşküldür məqsədə düzlüklə yetmək.
Müəllim olmağın ilkin şərtidir,
Bu əyri dünyanın düz yolun getmək.

İsmayıl müəllim ilk Dərsi üzrə
Aparır özünün ilk təhlillərin.
Dediyi hər Sözdə şagirdlər içrə
Görür gələcəyin xoş əməllərin.

Zaman yürüdükcə, illər keçdikcə
Onlar böyüyəcək arzular kimi.
İnsanlıq kamala gəlib yetdikcə
Ömürlər axacaq lal sular kimi...

***

"Sərfi-nəqdi-ömr edib mən kəsbi-ürfan
etmişəm,
Əhli-dünya həm kamali-cəhl ilə təhsili-mal.
Dəhr bir bazaridir hər kim mətain ərz edər:
Əhli-dünya simü-zər, əhli-hünər fəzlü-kamal."

(Məhəmməd Füzuli. Qitə.)

***

Vətən binasının bünövrə daşın
Müəllim əliylə düzür bu həyat.
Günəş də Məktəblə qaldırır başın:
Fırlanır başına bütün kainat.

Qovur bir-birini aylarla illər,
Önündə hələ çox məqsədlər durur.
Bir vaxt könül verib sevdiyi Dilbər
Onunla ailə həyatı qurur...

Soyunun estafet davamın etmək:
İnsanlıq içində əsl arzudur.
Vətənə şərəfli övlad böyütmək--
Həyatda ən böyük səadət budur.

Nənələr, babalar sevinc içində,
Onlardan görəni onlar da gördü!
Babaya, nənəyə ev-eşiyində
Hər nəvə özüylə dünya gətirdi:

***

Nə qədər çərxi dönə nəslidə şahdır babalar.
Eldəniz, Şah İsmayıl, Xəlilullahdır babalar.

Onların bəyaz başı dağlarımın zirvəsidir,
Mürşidim, pirim, həmi evdə ocaqdır babalar.

Tarixin yol nişanı, ömrümüzün məşəlidir,
Gündüzə nurlu Günəş, şəbə çıraqdır babalar.

Gələnim, gedənlərimdən ibrət dərsliyimiz,
Gələcək günlərimə canlı soraqdır babalar.

Dostu, ya düşməni ilk baxışda sərraf tanıyar,
Mərdü-mərdanəliyə bir ittifaqdır babalar.

Başları dağ vüqarı, rişələri, kökü dərin,
Göylərə qollar atan ilahi tağdır babalar.

Ey Ata, nəvələrin nə qədər el qeyrəti var:
Ölməyib, ölməyəcək, daima sağdır babalar!

***

Çıxmayıb, çıxmayacaq yaddan əsla xan nənələr!
Bir nağıl aləmidir canımıza can nənələr!..

Nənələr sevdiyi tək kimsə sevənməz bizi bil,
Qəlbə qəlb atəşidir qəlbi mehriban nənələr.

Ən ağır gündə belə başımızın üstə durar,
Ürəyi, qəlbi bütün bizlədir hər an nənələr.

Babalar at belinə onların eşqilə çıxıb,
Eşqi, sevdası bütün dillərə dastan nənələr.

Oğula, övlada bir sirri-xudadır çox əcəb:
Dolanar kölgə kimi bəs niyə pünhan nənələr?!

Həcərin şücaəti, şah Nigarın şuxluğudur,
Qüvvədə tək doğulub bir şiri-aslan nənələr.

Ey Ata, yad eləyək onaları gəl daima biz:
Bizlədir daima həm şadü-xuraman nənələr!!

***

Böyüdü Mikayıl, Müşfiq bu evdə,
Cümşidin, Afətin sədası gəldi...
Onlar "beş" alanda hər gün məktəbdə
Nənənin, babanın qəddi düzəldi.

Seyid Əzimimin Təhsil işığı
İsmayılovların bəxtinə güldü.
Onların evində hər Dərs qabağı
Dan yeri səhərdən əvvəl söküldü.

Şirvan! Məbədisən elmi-ürfanın,
Sənin tarixinlə fəxr edirəm mən.
Böyük Xaqanimin İntibahının
Məşəlin vermədin özgə ələ sən!!

5

***

“Mənim könlüm müəllimdir, dizim üstü
dəbistanı,
O şagirdəm ki, öyrəndim sükut ilə Əlifbanı.

...Mənə öyrətdi çox şeylər, yazarsam cüzini
çatmaz
Səmanı dəftərim etsəm, mürəkkəb cümlə
dəryanı.”*

Xaqani, Xosrovü Cami, Füzulim də mənəm indi:
Ucaldam Dehli, Xorasan, ya Bağdadı, ya
Şirvanı...

”Sözün şəni o əndazə böyükdür ki, Müəllimlər
Sözün məhsulu bilmişlər duanı, vəhyi,
Quranı.”**

Nəmə lazımdı malü-mülk, cəvahirat, ya simuzər,
Mənəm həmin o qarışqa, tutub adım bu cahanı.

Şad etmişəm çəyirtgənin qanadıyla yari-dostu:
Qazanıb bu kəramətlə bütün təxti-Süleymanı.

------------------------

* PS: Əfzələddin Xaqani Şirvani. İlk dünya İntibah şairi. Ə.X.Dəhləvi, Ə.Cami, M.Füzulinin nəzirə yazdıqları məşhur ”Qəsideyi-şiniyə”- sindən.

**PS: Məhəmməd Füzuli. Xaqaninin “Qəsideyi-şiniyə”-sinə nəzirə yazılmış “Ənisül-qəlb” (Könül dostu) qəsidəsindən.

Bu gün eşqi-məhəbbətdə sadiq Məcnun adım
vardır,
Mən intixab eləmişəm zora dəşti-biyabanı.

Gecə-gündüz qılıb kəsbi-kəramətlər təhsil aldım,
Dəyişmərəm cahana da nə bu elmi, nə ürfanı...

Vətən eşqim ilə daim yanıb şəm tək külə döndüm,
Məni pərvanə bilmişlər, şəmim Azərbaycanı!

Seyid Əzim, müəllimim! Sənə rəhmət deyir Vətən,
Yaratmısan tariximdə sən ilk Milli Dəbistanı!

Cəhalətlə, nadanlarla aparıram cihadımı:
Cahillərdir edən təmsil bu dünyada hər şeytanı.

Bu gün dünyavü-aləmdə bir İblisdir, nə ki vardır:
Fanatizm, xürafatla kor edənlər müsəlmanı.

Ulu Şirvan, öz oğlunam, qəbul eylə dualarla
Baba Dağımdan açdığım bu salavat, bu şükranı.

Sənin zəvvarınam, Yurdum, üzü Kəbəyə
səcdəndə:
Xudaya eylərəm dua verib bizə Həcc imkanı.

Baba Dağın ətəyində əziz Ağsum mühafizdir:
İgid Çiyni ərənləri el-obamın qəhrəmanı!

Nadirlərin əsarətin devirmişdir həmin bu el,
Unutmarıq o Şıxmüzə üstə milli o Meydanı...*

Gözəl dinim, imanım var: Məhəmmədin (ə.s.)
ümmətiyəm,
Qəbul etmiş elim həm də Musa (ə.s.), İsa
Məsihanı (ə.s.)...

Başım üstən atəş yağa, qılınc çəkə mənə ədu,
Dəyişmərəm dünya qopa bu din ilə bu imanı!

Xərabat əhli bir muğam, yerim künci-kitabxanə,
Mənim könül aləmimə yığın əhli-ürəfanı.

Müridim, Mürşidim, Mövlam Müəllimlər olub
daim,
Oların bir dırnağına dəyişmərəm bu dünyanı.

------------------------

*PS:1749-cu ildə Quzey Azərbaycan xanları Şirvan camaatının çağırışına yetərək, işğalçı Nadir şahın Şirvandakı satrapı Şahsevən Əhməd şahın zülmünə son qoymuşlar. Bu, Azərbaycanın Quzeyində Azadlıq hərakatının ilk məşəli idi. Həmin tarixi savaş indiki Ağsu rayonunun Şixmüzə düzündə baş vermişdir. Dədəgünəşli dahi şairimiz Ağa Məsih Şirvaninin həmin il qələmə aldığı “Şahnamə” poemasında bu tarixi Zəfər mükəmməl bədii əksini tapmışdır.

Şirini-eşq ilə daim külüng vurdum nadanlığa,
Bisütunlar yerə yıxar şagirdimin çalışqanı.

Neçə Soktat və Əflatun, Ərəstunlar gəlib gedə:
Aça bilməz Araz adlı taleyimdə müəmmanı...

Maariflə, Məktəb ilə yazılıbdır ürəyimdə
Bu dünyanın tanıdığım mənə əziz hər ünvanı.

Müəllimin önündə hey təzimdədir bütün aləm:
Odur Adəm edən bizim bu dünyada hər insanı!!

Dahi Seyid Əzimimin məktəbidir ürəyimin
Ümid verən gecə-gündüz, Ata, şəmi-şəbistanı.

***

6

İsmayıl müəllim eldə, obada
Qazanıb işiylə hörmət, ehtiram.
(Onu da söyləyim elə burada
Mən bəxtə, taleyə az inanıram.)

Hər kəs öz ağlıyla bir həyat qurur
Elmə, təcrübəyə əsaslanaraq.
Savadsız ayağın nahaqdan yorur:
Qələbə biliyi tanıyır ancaq...

Köksüz bir ağacdır, vətənsiz insan.
Çiyni kökümüzdür, ona bağlıyıq.
Kökümüz üstündə durduğumuzdan
Həyatda hər zaman qol-budaqlıyıq.

Gəlir xatirinə hər ötüb keçən:
O qarlı, baharlı, yağışlı günlər...
O könül güldürən, o göz güldürən
Yerə-göyə sığmaz toylar-düyünlər.

Körpəlik, uşaqlıq... O da bir aləm.
Ömrün hər vərəqi canlı əsərdir.
Bütün xalq deməkdir bəzən bir adam,
Bəzən ilkin addım bütün Zəfərdir.

O hələ kiçikdi, Dərsə getmirdi...
Keçdi taleyindən tufanlı bir gün.
Baxıb bu dünyanın üzünü gördü:
Həyat ilk mənasın aldı onunçün.

Gecə qeyzə gəlib tufan, qasırğa
Yüzlərcə ağacı yıxdı torpağa.
Tək bir palıd dözdü külək kəsincən:
Dayandı ayaqda necə var həmən!..

Meşədən uzağa düşənlər bütün
Qırılıb töküldü, tapşırıb canın.
Kökü torpaqlarda üzdə olanlar
Yıxılıb yer ilə oldular yeksan.

İsmayıl çox uşaq idi o zaman,
Hələ bilməyirdi nədir sel, tufan...
Məktəbə getməyə çatmırdı yaşı,
Qaçdı-tut oynardı dostu-yoldaşı.

Əlini alnına dayayıb bir an
O dərin bir məna çıxardı bundan:
Eldən uzaq düşən qüdrətsiz olar,
Hər tufan, qasırğa canını alar.

Mən də bu Palıd tək kök atsam dərin:
Başım üzərində durar göylərin!
Məni yıxa bilməz bir boran, külək,
Sinəmi gərərəm daim Palıd tək!

Beşcə yaşındaydı verəndə qərar:
Çiynidə yaşasın ömrü nə ki var.
(Köklə, gövdə ilə qaldı budaqlar,
Küləklərlə uçub getdi yarpaqlar...)

Gör neçə tanışlar elindən küsdü,
Öz doğma kəndini tərk elədilər.
Nə qədər ömürün ipini kəsdi
Geriyə dönüşü olmayan səfər...

Dövr: sosializm.  Tələb: oxumaq!
Məmur yetişdirmək ali məqsəddir.
Gedib Moskvaya çıxsan da ancaq:
Qarşında milliyət birinci şərtdir...

Hər şeyi danışmaq olmaz məktəbdə,
Cənab Komenski, bağışla bizi.
"Hamıya hər şeyi" biz öyrədə,
Əyilir azacıq "Sağa" tərəzi...

Yoxdur məktəblərin muxtar hüququ,
Kimsə bilə bilməz tam həqiqəti.
Dalana dirənib Kommunizm yolu,
Uduzulub Qərbə "oyunlar" qəti.

Nə ağır sənaye, nə kollektiv kənd
Daha müşkilləri həll edə bilmir.
"Silahlanma yarış" olsa da, hərçənd
Büdcə məxaricə heç uyğun gəlmir.

Hər bir şəraitdə Məktəb çalışıb,
Təhsil verməlidir bəşəriyyətə.
Prometey atəşi daim alışıb,
Kamalı yönəltsin Tək Həqiqətə!
(Tanrıya!)

Şagird həyatının hər vərəqində
Gərək Müəllimin qiyməti dursun.
Həyat hər dəqiqə, saniyəsində
Müəllim qəlbinin ritmiylə vursun.

Bu, bəlkə, düzgündür, bəlkə də haqsız:
Məktəb həqiqətə cami olubdur.
Dünya yaranandan sual-sorğusuz
Müəllim bəşərə hami olubdur.

Dünyanın ən böyük Həcc zəvvarlığı
Məktəbə üz tutub getməkdən başlar.
Dünyanın ən böyük padişahlığı
Bir dərsi idarə etməkdən başlar...

Məktəb tərbiyəsi, məktəb təlimi:
Bu iki qanadla ruhumuz uçar.
Könül dinlədikcə bir Müəllimi
Arzular göylərdə min qanad açar.

Yalana, doğruya bölünüb dəhir:
Müşküldür məqsədə düzlüklə yetmək.
Müəllim olmağın ilkin şərtidir,
Bu əyri dünyanın düz yolun getmək.

70- ci illər... Paytaxt Bakıda
Avqust müəllimlər konfransıdır.
Nazir M.Mehdizadə* tribunada
Deyir: nədən razı, ya narazıdır...



Karrar, Şilyan kənd, Çiyni, Sığırlı...
Ali məktəblərdə çoxdur məzunu...
Kənd məktəb işimiz xeyli uğurlu:
"Pravda" qəzeti qeyd edib bunu...

----------------------

*PS: Akademik Mehdi Medizadə (Cəbrayıl qəzası Daşkəsən kəndi: 1903-1984). İki dəfə Azərbaycanın Təhsil (Maarif) naziri təyin edilmişdir: 1952-ci ildə və 1960-cı ildə (1980-ci ilədək). Azərbaycan maarifçiliyinin Qızıl dövrü onun adı ilə bağlıdır..

Bəli, fəxarətdir, böyük uğurdur:
Kənddə maarifimiz yüksəlir, demək!
Gözəl bəhrəsini veribdir, budur
Fasiləsiz təhsil, fədakar əmək.

O, örnək gətirir Seyid Əzimdən.
Danışır Sabirdən, Sultan Məciddən...
Məktəb öncülüdür, görürəm ki, mən
“Əhli-ürfan yurdu”(Xaqani) Şirvan da
həmən.

Nazir adlar çəkir, ismlər çəkir,
Müəllim zəhmətin qaldırır göyə.
“İsmayıl!- üzlərə təbəssüm çökür,-
Şərəf gətirmişsiz Müəllimliyə!..”

İsmayıl müəllim təşəkkür edir:
--Borcumuz Vətənə xidmətimizdir.
--Bağ əsl bağbanlar əliylə bitir,
Nəticə: Pedaqoq qiymətimizdir!

Nazir öz keçmişin salır yadına,
Söz salır dahimiz Üzeyir bəydən.
Qayıdır Cəbrayıl, kənd həyatına,
Danışır bir yerdə dərs deməyindən...

Üzeyir və Mehdi! Bu iki İnsan*
Seyid məktəbimin aynası oldu.
Milli məktəbimdə daima, hər an:
Vətənin ziyalı mənası oldu!..

7

(...İndisə Qarabağ, o gözəl diyar
İşğal zonasında boyun burubdur.
23 ildir hey mat-mat baxar:
Çaqqallar qoynunda yuva qurubdur?..

Hanı Cəbrayılın Daşkəsən kəndi,
Orda Mehdi ruhu nigaran gəzir.
Haylar Cəbrayılı alandan bəri
Vətəndə şaxtalı ruzigar əsir...

Oğuz dara düşsə, topdan, tüfəngdən
Öncə bayatılar, laylalar dinib.
Türklərdə bir qayda olub əzəldən:
Ədalət susanda Qayalar dinib...

-------------------------

*PS: Hər iki dahi şəxsiyyət ilk pedaqoji fəaliyyətlərinə Cəbrayıl qəzasında (Hadrutda) başlamışlar. Bu dövrdən də onların əbədi dostluqları yaranmışdır.



Susub Qarabağın dərdinə dünya,
Böyük diplomatik oyunlar içrə.
Utanmaz cahandan eyləyib həya
Dikmişdir başını Yzeyir yerə...):

Vətən içrə nə gözəl cənnətü-bağdır Üzeyir!
Gecə-gündüz Şuşama şəbi-çıraqdır Üzeyir!

Heçə tufanlı zamanlarda Nuhi-gəmim olub:
Gecə zülmətdə yenə tənha mayakdır Üzeyir!

Nə qədər xotkar-ədu Çənlibelə hücum  çəkə,
Qıratın üstdə hazır hey duracaqdır Üzeyir!

Azərbaycanımızın Himni kimi səslənərək:
Vətən Azadlığına çağıracaqdır Üzeyir!

Mavi-al rəngli-yaşıl Bayrağımız min yaşasın,
Ədu-əğyariləri dağıdacaqdır Üzeyir!

Atanın bağrı kimi parçalanan yurdumuza
Milli Birlik gətirən şanlı sabahdır Üzeyir!

***

Yenə qəlbimdə mənim cuşə gəldi "Şur" səsi,
Xanımın, Hacıbabamın, Yaqubumun gur səsi.

Çəkib hardan-haraya Şuşaya qaldırdı məni,
Qədir Rüstəmovumun həmən o məhşur səsi…

"Bərdaşt", "Əraq-Kabil," "Herat" gəzdim "Zil-Qatar"da,
Rübabə Ərdəbilə yetirdi "Mahur" səsi.

Əlibabam Arif ilə, Alimim Zahid ilə,
Ağaxan, Mənsum ilə qaldıralar sur səsi.

"Üşşaq"i "Hüseyni"də "Raki-Hindi" dolaşdım mən,
Pəncgah"i, "Rak Xorasan" "Rast" etdi fəxfur səsi.

“Çahargah”,”Zabil-segah,” “Bayati-Şiraz”
istərəm,
“Hümayun,” “Şüştər” ilə yaşayam “Mənsur”
səsi.

Nola, ey Ata, Musa əsasilə Araz bölüb,
Xəlqimi qurtaraydı Əsarətdən Tur səsi!..

***

Yetir, ey badi-səba, yarə bizim naməmizi,
Ədu ədnalıq edib, zəbt eləyib xanəmizi...

Saqi, bir badə gətir, dərdimizə şərab səpək,
Bəlkə, dəmlik geriyə qaytara peymanəmizi.

Fərhadı, Məcnunu çoxdan dilə salmış bu
vətən,
Biz hələ ölməmişik, yaymayın əfsanəmizi.

Yıxılıb könlüm evi, bayqular üstə ulayır,
Ədu-əğyarə verə gənceyi-viranəmizi...

Bizə min cövri-cəfa yar eləyə, xoşdu bizə,
Verəməz qəlbim ələ ölsə də cananəmizi.

Bizə ağıl nə gərək? Saqi, şərab süz bir içək:
Gətirək göz önünə Bəhluli-Danəndəmizi.

Atanın hər qəzəli bir Muğamat dəstgahıdır:
Fəqət hardan bulalım Xan kimi xanəndəmizi?!

Qarabağ dərdini yaşayır könül,
Sanki Təbriz dərdi az imiş bizə.
Üzeyir "Azadlıq!" deyir, elə bil:
Vətən, Xalq sevdalı hər birimizə.

Azəri muğamı-- ürək yanğısı,
Dünyaya sığmayan milli aləmim.
Üzeyir qüdrətli ömrün mənası:
Taleyim, tarixim, sevincim, qəmim...

"Konservatoriya Qarabağdırsa,
Akademiya da Şirvandır bizdə!"(Firidun Şuşinski)
Cərrah köksümüzü əgər yararsa,
Muğamat görəcək ürəyimizdə.

Seyid, Mahmud ağa, Abbas Səhhətin
Muğam gecələrin Tarix unutmaz.
Şirvan anasıdır ilk qüdsiyyətin,
Millət öz anasın heş nəyə atmaz.

Tarixin anası Ulu Şirvanım,
Milli qürurumsan, canımsan mənim.
İstiqlal duyğulu Azərbaycanım,
Ürəyim, damarım, qanımsan mənim.

Ulu Şirvanşahlar layla səsində
Muğamı eşidib, Muğamı duydu.
Böyük Axsitanın* şah ölkəsində
Bülbüllər də gülə Muğam oxudu.

Dahi Axsitanım! Şah Xəzərimdə
Hər dalğa bir səhfə xatiratındır.
Bizə qürur verən hər səhərimdə,
Sənin tac zəfərin, şah həyatındır.

--------------------------------

*PS: XIX Şirvanşah I Axsitan (hakimiyyət dövrü:1160-1199). Sarayına bir çox dahi sənətkarları toplayaraq, Dünya İntibahının əsasını qoymuşdur.

N.Gəncəviyə "Leyli və Məcnun" poemasını yazmağı sifariş etmiş və ona yüksək maddi makafat vermişdir (Şairin həyat yoldaşı Afaq xanım da daxil olmaqla). Qızlarından Alçiçək xatunu Azərbaycan Atabəylərindən Cahan Pəhləvanın kiçik oğlu Atabəy Əmir Əmirana ərə vermişdir. Tarixdə Azadlıq mücahidi kimi məşhurdur. 1170-ci ildə Xəzər dənizi uğrunda qıpçaq-rus ordusu ilə vuruşaraq, 73 düşmən hərb gəmisini məhv etmişdir. Vətən ərazisini Dərbəndə qədər işğaldan azad etdiyinə görə bu şücaəti Xaqaninin Qəsidəsində mədh edilmişdir. Nizaminin "İsgəndərnamə"sində ruslarla savaş qəhrəmanının həqiqi tarixi prototipidir.

Əhmədağa oğlu Mahmud ağanın* (1826-1896)
Şamaxı məktəbi yadlardan çıxmaz.
Dinləyin səsini “Beytül-Səfa”nın,
Tarixi səsimdir o “Şur*”, “Dil-Nüvaz”**...

“Şüştər”lə yatardı hər gecə Mahmud,
“Osmanlı” səsinə səhər durardı.
Başının üstündə kaman, tar və ud
Qılınc əvəzinə hazır durardı.

---------------------------
*PS: Mahmud ağa Əhmədağa oğlu (1826-1896) XIX əsr Şamaxı əsilzadələrindən və messanatlarından biridir. Maddi abidələr tikdirməklə bərabər, milli mənəvi sərvətlərimizin qorunması qayğısına qalmışdır. Muğam, musiqi istedadlarımızı maddi həvəsləndirmiş, klassik şairlərimizin bir çoxuna himayədarlıq etmişdir. “Beytül-Səfa” ədəbi-bədii məclisinə Seyid Əzim Şirvaninin rəhbərliyi altında hər yerdən, o cümlədən Fransa, İran, Qarabağ, Bakı, Tiflisdən şeir-sənət xadimlərinin gəlişini təşkil etmişdir. Bu məclisdə müxtəlif sənət yarışmaları keçirilmiş, əsl sənətkarlar mükafatlandırılmışdır. Burada Hacı Hüsü, Məşədi İsi, Sadıqcan, Bülbülcan, Səttar, Cabbar Qaryağdıoğlu kimi böyük ustadlar məclis və müsamirələrdə iştirak etmişlər. Xaricdən rus rəssamı Qaqarin, fransız yazıçısı A.Düma və b. Məclisin tədbirlərinə qatılmışlar.

**PS: “Şur” muğamlarımızdan biridir.

***PS: “Dil-Nüvaz” “Nəva” muğamının “Dəşti”, “Azərbaycan” və “Dilkəş” kimi sərbəst oxunan qollarından biridir.

1858-ci il.
A.Düma bu Məclisə qoymuşdu ayaq.
“Şüştər”in naləsi içində məlul
Şirvandan qaçmışdı o ağlayaraq.

Göz yaşı tökürdi bu əsir Vətən...
Muğam danışırdı Azadlıq haqda.
Xalqa “dur!” deyirdi Məhəmmədhəsən
Sadıqcan tarının “Nalə”si altda.

Seyid qəzəlinin dərin mənası:
“Səfa” məclisinin ruhi-nəvası!
Əhli-Şirvanımın könül səfası:
Budur diyarımın Muğam havası!..

Üç min illik Dövlət keçmişimizə,
Muğamat əbədi könül bağıdır.
Şahanə duyğular söyləyir bizə:
Şirvan Muğamatın ilk ocağıdır.

1915. Dədəgünəşdə
“Səfa” məclisimin son səsi gəldi.
Camo, Ağalar bəy, Veysov, Səhhət də
Son kərə dağlarla ağladı, güldü...

Seyid Şuşinski oxudu pəsdən,
Məhəmmədhəsənin "Desinlər"ini.
Vətənim oxudu muğ naləsindən:
Kor olmuş şairin son günlərini...

Mirzə Gülər xanım "erkək" səsilə
"Rast"a can gətirdi, "Segah"a nəfəs.
Məğribdən Məşriqə Tar gəlsə dilə:
Borcludur Muğamda Şirvana hər kəs!

***

"Guşi qıl ey ki, bilirsən özünü vaqifi-kar,
Agah ol gör ki, nədir naleyi-zar, nəğmeyi-tar.
Nədir ol xüşki olan çubidə bu naleyi-zar
Ki, sədasında onun qarət olub səbrü qərar?..
Açma sən pərdəni, hər pərdədə var yüz
əsrar." *
(Seyid Əzim Şirvani)

"Rast" ilə "Şur"a mənim könlümün öz meyli
ki var:
Ruhumu yerdən alıb göylərə qaldırdı bu Tar...
Dəşti-Muğamatımın guşələri duzəxi-nar:
Yarın hicrilə canım daima odlara yanar...
Açma sən pərdəni, hər pərdədə var yüz əsrar.

-------------------------
*PS: Son misranın ilk sözündə dəyişiklik edilmişdir.

Qaili-qismətinəm, ey kəmanəbru, qaşına!
Ney kimi naləm alıb aləmi hər gün başına.
Nədən, ey şuxi, mənim baxmadın bir göz
yaşıma?
Naleyi-ərzi-halım yazılanda baş daşıma:
Açma sən pərdəni, hər pərdədə var yüz
əsrar.

Ey Ata, "Rahab" ilə rahatıyıq rahımızın,
Öz əsiri-quluyuq eşqidə əmrahımızın:
Ləbi-pürxunidi rəng aləmə al ahımızın.
Dönə, bəlkə, üzü bir bizlərə Allahımızın:
Açma sən pərdəni, hər pərdədə var yüz
əsrar.

***

"Daş ürəklərdə qopub daşları yandırdı Muğam,
Haqqa düşmən olanı Haqqa tanındırdı
Muğam."
(Bəxtiyar Vahabzadə)

Düşəli muğilərin məclisi-meyxanəsinə
Məclisi-məhfilimi rahə barındırdı Muğam.

Onun hər guşəsi bir xaldı əhli arif üçün,
Kamanı "Şur"a çəkib, "Rast"ı dayandırdı
Muğam.

Hər səsi, hər nəfəsi məna dolu hikmətdir,
Bu nəva ilə bizi daim utandırdı Muğam.

Ey Ata, “Dəşti” ilə dəşti-biyabana gedək,
Məcnuni-bəxtimizi, bəlkə, oyandırdı Muğam.

***

Musiqi “Cəngi”dir, musiqi “Şur”dur,
Musiqi könüldə ağlayan “Şüştər”.
Musiqi gəranay, musiqi şeypur,
Musiqi düşmənlə döyüşən əsgər!..

Azəri muğamı-- ürək yanğısı,
Dünyaya sığmayan milli aləmim.
Üzeyir qüdrətli ömrün mənası:
Taleyim, tarixim, sevincim, qəmim...

8

“Ana”, “Vətən” deyir ilk dərsdən uşaq,
Anasın tanıyır, Vətənini yox?!.
Hanı Azərbaycan?-Bakıdır ancaq
Onun Vətən haqda bildiyi az-çox...

Bölüb, parçalayıb böyük bir xalqı,
Kiçik əraziyə yerləşdiriblər.
Budurmu cahanda insanlıq haqqı,
Budurmu qərbçilik, ədalət, hünər?..

Şərqin ən mədəni, dahi milləti
Təcrübə sexidir imperiyaların.
BMT eşitsin bu həqiqəti:
Əqlə üstün gəlib cahanda Qarın.

Təbrizim, Kərküküm, Bakım ayrılıb,
Bir torpaq üç yerə bölünüb nədən?
Antitürk quzğunlar əlində qalıb,
Beş min illik dövlət olan bir VƏTƏN...

Övhədi, Xaqani, Nizamisiylə...
Həbibi, Nəsimi, Füzulisiylə...
Seyidi, Sabiri, Cavidi ilə...
Cahan yetirməyib digər Xalq belə!!!

Açın bu zənciri, bu sərhədləri,
Yetər parçalayıb, böldünüz bizi.
Bir Bütöv bilirik bu əziz yeri:
Kəngərdən* Dərbəndə** vətənimizi!

İki əsr oldu qədim yurdumda
Yetər "maraqları" bölüşdürdünüz.
Mənim Təbrizimdə, mənim Urmumda
Rza Pəhləviylə meydan sürdünüz...

--------------
*PS:Kəngər körfəzi indi "Fars" adlandırılır?!
**PS: Dərbənd Qədim Azərbaycan Şirvanşahlar dövlətinin paytaxt şəhərlərindən biri olub.

Eşidin səsini Şəhriyarımın:
“Ayrılıq, ayrılıq, aman Ayrılıq!..”
Sonu yox bu zalım İntizarımın,
“Dünyada ölümdən yaman Ayrılıq!..”

***

“Gecələr fikrindən yata bilmirəm*,
Bu fikri başımdan ata bilmirəm.
Neyləyim ki, sənə çata bilmirəm..”
Ey mənim sağalmaz yaram, Azadlıq!
Ey mənim bütövüm, param, Azadlıq!

Babam Eldənizdir, Şah İsmayıldır!
Yolunu gözlərəm gör neçə ildir.
Bu yurdda kölələr bizdən deyildir:
Ey mənim harayım, ünüm, Azadlıq!
Ey mənim təvəllüd günüm, Azadlıq!

Behrəngim, Səhəndim, Biriyam, yaşa!
Şərəflə həyatı vurdunuz başa...
Qovuşar gün gələr qardaş qardaşa!
Ey mənim birliyim, tamım, Azadlıq!
Ey mənim vüsalım, kamım, Azadlıq!

-----------

*PS:Dırnaq işarəsi ilə verilən misralar Şəhriyarın, ona yazılan musuqi isə Əli Səliminindir . Nəzirə bizimdir.

Urmiya, İrəvan, Qarabağ darda.
Babəkim, Səttarım, hardasız, harda?..
Çağırır sizləri kaman da, tar da:
Ey mənim kök telim, simim, Azadlıq!
Ey mənim ürəyim, sevgim, Azadlıq!

Atayam, könlümün var intizarı,
Savaşda sınaram hər dostu, yarı.
Bütöv bir Vətəndir türkün şüarı:
Ey mənim ilhamım, duyğum, Azadlıq!
Ey mənim əbədi ruhum, Azadlıq!..

***

Fərman kölə etmir-- əsl kölələr
Qorxudan bağırı yarılanlardır.
Ruhu--qul, varlığı – qara kölgələr,
Həyatçın ayağa sarılanlardır.

Qul kimdir?--bilsin ki, dilin yeyənlər:
Qul deyil savaşda kəfən geyənlər!
Qul--zülmə, zalıma boyun əyənlər,
Zəfərə ümidi qırılanlardır.

Xoşbəxtlər güləndə gözündən gülər.
Gülün bahar eşqi daşları dələr.
İgidlər alnından gülləyə gələr,
Kölələr kürəkdən vurulanlardır.

Azaddır-- əməli, sözü doğrular.
Azaddır-- Vicdanı gül qoxulular.
Azaddır--meydanda Qoç Koroğlular.
Kölələr--savaşdan yorulanlardır.

Azadlar--adının üstə duranlar,
Ürəyi Kəbəylə dövrə vuranlar!!
Kölələr-- əmrlə yatıb duranlar,
Zamanı əl ilə qurulanlardır.

***

İranın başına At gedişlərin
İraqda Gülbəndyan-İngilis qurdu.
Turanı bölüşən bütün işlərin
Başında çox yerdə İngilis durdu.

11, 20-də, 46-da da (1911, 1920, 1946-cı illər)
İngilis barmağı yıxdı Təbrizi.
Türkün düşmənləri bütün dünyada
Birləşib daima əzdilər bizi.

Qərbə "şərəf" sözü yaraşmır daha:
Xəyanət, istila-adınız budur.
Kürəkdən vurdunuz Azərbaycana:
Qanlı bıçağınız Tarixdə durur...

Kuti, Manna, Maday, Atropatena,
Şirvanşahım: Bütöv Azərbaycanım!
Bəllidir Tarixdə bütün cahana
Babəkli, Səttarlı şöhrətim, şanım!

Yurdumu, yuvamı düşmən bölsə də,
Tarixim, millətim bütöv qalıbdır.
Neçə kəz taleyim yerə ensə də,
Bayrağım qəlbimdə hey ucalıbdır.

Doqquz əsr bundan irəli yazdı
Xaqanim "Mədain xərabələri"n (1156),
Qərb bura tanklarla ayağın basdı
(1990--...),
Şumladı İraqda kökünü elin...

Hələ bombalanır Füzulim Bağdad:
Tarix od içində, qan içindədir.
Quruca bir sözdür Qərbdə "demokrat",
Bütün qeylü-qallar Neft üstündədir…

...Xanlıqlar tayfaya böldülər bizi (1747—
1828):
Üz-üzə qoydular hər birimizi.
Sonra rus Qartalı leş üçün gəldi (1813—
1828),
Elə ki, azacıq qarnı düzəldi;

Dedi: Azərbaycan yalnız mənimdir,
Həm bir qan çanağım, həm neft
çənimdir.
Qarın qullarına biz bir qul olduq,
Xalqlar zindanında daim boğulduq...

Bir Azərbaycanı bölüb yüz yerə,
Verdilər haqqını səmum yellərə.
Kərküküm, Təbrizim, Bakım ayrıldı.
Ürəyim, damarım, başım ayrıldı.

"Gülüstan" * adını verdi Bəxtiyar,
Milli bəxtimizin qara üzünə.
İmperiya "azadlıq" eləyib şüar:
Qan yazdı tarixin hər səhifəsinə.

150 İllik bir Müqavilənin
Qüvvədən düşdüyü gün Bəxtiyarı
Atdılar qoynuna qara məhbəsin.
Tarix unutmasın gərək bunları!!.

BMT göz yumdu bu həqiqətə,
Duymadı yurdumun Hicran fəryadın.
Məcnunlar ağladı bu müsibətə,
Külüngü dağlarda sındı Fərhadın...

------------------
*PS: Şair-pedaqoq Bəxtiyar Vahabzadənin Sovet dönəmində "Gülüstan" poeması ilə bağlı həbsi nəzərdə tutulur.

İsmayıl müəllim ədəbiyyatın
Milli qüdrətini Dərsdə öyrədir.
Min yalan üzü də olsa həyatın,
Tarix mənəvinin ardınca gedir.

Bədii bərbəzək deyildir Sənət,
O bir məramnamə, məqsəd deməkdir.
Söz, fikir əməldə bir əbədiyyət,
Sənətkar tarixdə Millət deməkdir!

9



Burda yad eləmək istəyirəm mən
İki şəxsiyyəti Müəllimlərdən:
Biri Mir Cəlaldır, digəri Puşkin,
Onlar müəllimdir daim mənimçin.

Olmuş həqiqəti açıb deyim mən
Qorxunc  Sovet dövrü dönəmlərində:
Müəllim köməyə gəlibdir bəzən
Tələbəsi dara düşən zəmində...

Bəxtiyar həbs oldu günün birində,
KQB ən dərin zindana saldı.
Qoca Əzrayılın gözü önündə
Bir Simürq şairi himayə aldı...

Müəllim-Tələbə ehtiramında
Bu şanlı hadisə əsl örnəkdir.
Təhsilin müqəddəs hər ehramında
Bu olay daima deyiləcəkdir.

Bəxtiyar düşəndə dərin zindana,
Ona zamin durdu böyük Mir Cəlal.
Belə bir cəsarət Azərbaycana
Gələrdi o dövr üçün bir xəyal...

Mir Cəlal müəllim öz dəstəyini
Sonacan elədi Bəxtiyar üçün:
Tarix gizlətməsin öz bildiyini,
Açıq yazmalıyıq bunları bu gün!..

KQB zindanı içindən alıb
BDU-ya gətirdi, edib kamiyab.
Baxaq bu gerçəyə nəzərlər salıb:
Qoy bağlı qalmasın bu “Açıq kitab”...*

Eşq olsun o böyük əziz İnsana,
Bir örnək yaratdı Azərbaycana!
Bu, Milli Məktəbin şanlı üzüdür:
Seyid Əzimimin canlı özüdür!!



...Çar Litsey yaratdı Zadəganlara,
Puşkin də birinci Litseyə getdi.
Nazir Turgenevə borclu olsa da,
Ömürlük özünü bir məhbus etdi.

------------------------

PS: “Açıq kitab” romanı tələbə-gənclərə qarşı Sovet dövrü təhsil sistemindəki bürokratiya əleyhinə yazıçı- pedaqoq Mir Cəlal (Paşayev) tərəfindən yazılmış ən maraqlı romanlardan biridir.

Nə Çara təzimlər elədi Puşkin,
Nə də ki Hökmdar övladlarına.
Pərt etdi Litseyin Açılış günün,
Od qoyub Qartalın qanadlarına.



I Nikolay və Aleksandr (II)
Puşkinin ilk Litsey yoldaşlarıykən,
Ona çar taxtında edib min cəbr:
Sürgündən sürgünə sürdülər felən.

İkinci əhv etdi, nəhayət, onu,
Bildi Ruslar üçün kim oduğunu!
Saray divarları içinə aldı:
Zindandan çıxarıb, zindana saldı...

Uğurlu  “məhəbbət süjeti” qurub,
Çəkdi Danteslərin duellerinə.
Belə bir Oyunla arxadan vurub,
Namərdlik göstərdi  Xalq şairinə...



...Cəhalət Sokratı edam edəndə
Dünya zülmət içrə hələ yatırdı.
Əflatun, Ksenofont alıb qələmə,
Sokratı bu günə, bizə çatdırdı...

İmperator dedi: Haqq edin mənə,
Sokrat işıq idi bizə gərəksiz.
Nifrət eləyərək onun elminə,
Bununçün o şamı söndürmüşük biz!

Sokrat!  Ey bəşərin ilk Müəllimi,
Böyük hüzurunda baş əyirəm mən.
Qəbul et məni də tələbən kimi,
Rica eləyirəm tək bunu Səndən!

Sokratın Son sözü: İblisə qarşı
Adəmin birinci İttihamıdır.
Kamil savaşında Naqisə qarşı
Hamımız Sokratıq, Sokrat hamıdır!



--Mən zəhər içərək ölürəm, fəqət
Dəyişib, dünyanı dəyişdirin siz!
Zəhərdən güclüdür hər bir Həqiqət,
Haqq və Həqiqətlə işlər görün siz!

Yalan taxtda belə otursa, yenə
Kölədir Həqiqət önündə daim.
Gec-tez diz çökəcək Haqqın hökmünə
Nə qədər qüdrətli olsa da zalım.

Tarix sökəcəkdir zər-zibasını
Nadanın. Sormayın çoxmu uzaqdır:
Çıxarıb əynindən hər libasını
Həqiqət Yalanı lüt qoyacaqdır!

Gözü aldatsa da süslər, bəzəklər,
Köpük tək yatacaq boş təntənələr...
Qoy bilsin, anlasın təmiz ürəklər:
Tarixlə qardaşdır Ağıl və Hünər!

Əflatun gəlməyib görürəm bura,
Ölüyə tamaşa nəyə gərəkdir!
O, gətirəcək həyat biz Sokratlara:
Sabah "Estafet"i önə çəkərək...

Mən zəhər içərək ölürəm, fəqət
Dəyişin, dünyanı dəyişdirin siz.
Candan əziz olsun sizə Həqiqət,
Dayanın yanında həqiqətin siz!

Xalqın qarşısında boş şöhrət üçün
Mənə Ölüm hökmü çıxarıb Yalan.
Mənə məğlub adı verməyin bu gün:
Qalib gələ bilməz Arifə Nadan!..

Tarixə yazdığım şan-şöhrət üçün
Mənim edamıma qərar verib Şah.
Tarix qarşısında ədalət üçün
Sokratla sırada dayanın Sabah!..

Həqiqət ölümə yenilə bilməz:
Xalqın gücündədir Haqqın qüdrəti.
Cəsarət yiyəsi olunuz bir az:
Sevin Haqqınızı və Həqiqəti!..

Nə qədər bicbala iş qursalar da,
Ağıldan məhrumdur bütün tiranlar.
Ləl üstə yatışır ilan da, mar da:
Uçuq xarabadır könlü viranlar...

Qaldırın məşəlin Zəkanın göyə,
Dünyanı işıqlı bir Məktəb edin.
Nadanı taxtından endirin yerə,
Haqqın dərgahına Alimlə gedin!

Mən zəhər içərək ölürəm, fəqət
Dəyişin, dünyanı dəyişdirin siz!
Həqiqət Allahdır, Allah Həqiqət,
Yalanı dünyada İblis biliniz!..

Afina! Uydurma Tarixdən nağıl:
Zorun tərəfində dayanmaz, bil, Haqq!
Tənhalıq içində düşünür Ağıl,
Təntənə giclərə gərəkdir ancaq!

Tarixə Qılınclar, Qalxanlar deyil,
Elm, Mədəniyyət yol açacaqdır.
Bizi istilalar, tiranlar deyil,
Məktəblər, Qələmlər yaşadacaqdır!

Allahımın hökmü olduğu üçün
Daim qarşı durdum hər cəhalətə.
Həyata gözümü yumsam da bu gün,
Gözümü yummadım bir həqiqətə.

Qaldırın məşəlin Zəkanın göyə,
Dünyanı işıqlı bir Məktəb edin.
Nadanı taxtından endirin yerə,
Haqqın dərgahına Alimlə gedin!

Sokrat şərəfinə, ağlın gücünə
Bir Akademiya Əflatun açdı.
Alıb Estafeti Sokratdan yenə
Ərəstu cahana nur, işıq saçdı!..

Təlimlə, təhsillə, tərbiyə ilə
Özünə işıqlı yol açıb bəşər.
Günəş də bir gündüz deyildir hələ,
İnsan zəkasında açmazsa Səhər!

Bir Sokrat qanmaza güdaza getdi,
Min Sokrat doğuldu onun yerində.
İmperator öldü, Sokratsa indi
Yaşayır dünyanın Məktəblərində.

...Həsənoğlu, Nasir, Qazi, Nəsimi,
Həbibi, Füzuli, Nəbati, Seyid.
Övhədi, Xaqani, Qətran, Nizami,
Vaqif, Ağaməsih, Vidadi, Cavid!..

Müşfiq!.. Bu siyahı burada bitməz,
Səma kağız olsa, yenə də yetməz...
Onlardır bu xalqın, yurdun birliyi,
Onlardır Vətənin soy böyüklüyü!..

... Yan Amos doqmatik, dar baxışları
“Ana məktəb”indən kənara atdı.
İnsandan Xaliqə, Allaha sarı
Əbədi, sarsılmaz körpü yaratdı.

1869-cu il!..
Seyid məktəb açdı doğma Şirvanda.
Milli bir ruh olub, elədi mənzil
Bu, ilk Ana dilli məktəb Turanda!

-- “Cəfər, ey nuri-dideyi-Seyyid!
Qönçeyi-növrəsideyi-Seyyid!
...Demə bu kafər, ol müsəlmandır,
Hər kimin elmi var, o, İnsandır!

Elm bir nur, cəhl zülmətdir,
Cəhl cəhənnəm, elm cənnətdir.
Sənə hər kimsə elm edər təlim,
Ona vacibdir eyləmək təzim.”

Cəsarət lazımdır düz söz deməyə,
Vicdan olan yerdə cəsarət də var.
Bütün zamanlarda, hər yerdə, məncə,
Dekabristdirlər* əsl ziyalılar!

------------------
*PS:Çarizmə qarşı üsyan qaldırmış XIX əsr Rus dekabristləri nəzərdə tutulur.

“Bonapart Napoleon haqqında Oda”
Dahi əsərində Bayron* yazırdı:
“Elə düşünürdün Şan dağlarında
İçi boş təriflər sənə hazırdır?..



Hanı lovğalığın, boş təşəxxüsün,
Sultanlıq, lentalar, ordenlər hanı?..
Hanı əyləncələr, təmtaraq, süsün...
Bədbəxt bir uşaqsan! Şöhrət qurbanı!

Varmıdır İnsanlıq adın ucaldan?
Amerikan Sintsinat! Tanı bir onu!
Yalnız bunun üçün bədbəxtdir cahan:
Yoxdur ikinci bir Vaşinqtonu...” **

-------------------------

*PS:Corc Qordon Bayron. XIX əsr ingilis romantik şairi. Tərcümələr müəllifə məxsusdur.

**PS: ABŞ Azadlıq ordusunun komandanı, general Corc Vaşinqton, ilk Prezident.

--“Ey qul! Azadlığı özün əldə et!
Zəncir dəyişdirmə! Taleyini qur!
Qullar ya qul olur: bir ölü, bir mevt,
Ya da rüsvaylığın qanıyla yuyur!..”
(C.Q.Bayron)

Puşkinin “Azadlıq” şeirindən budur
Mənim anladığım Həqiqət deyə:
“Beyinsiz hər bir xalq yalnız Qoyundur,
Layiqdir qırxılıb, həm kəsilməyə!..”



... Yan Amos doqmatik, dar baxışları
“Ana məktəb”indən kənara atdı.
İnsandan Xaliqə, Allaha sarı
Əbədi, sarsılmaz körpü yaratdı.

-------------------

*PS: C.Q.Bayron. “Çayld-Haroldun səyahəti” poemasından. Tərcümə müəllifə məxsusdur.

"Hamıya hər şeyi öyrətmək !"- budur
Bəşər həyatının dürüst mənası.
Cahanın, vücudun çoxusu sudur,
Düşüncə, fikirdir İnsan dünyası.

Hər bir "Pan"çılığa "daloy" deyirəm:
Panamerikanizmə, Panavropaya...
Panislam, Panturan heç istəmirəm:
Beyət eləyirəm PANSOFİYA-ya!*

Məşriq, çox öyünmə ilk Dan yerinlə,
Nivitsa kəndində Qərb doğdu Günəş.
İblisi məhv etdi orda ilk kərə
İnsan zəkasında açılan Atəş!..

------------------------

PS: Dahi çex maarifçisi. Sinif-dərs sistemli müasir Məktəbin banisi Yan Amos Komenski Çexiyanın Cənubi Moraviya bölgəsində yerləşən kiçik Nivitsa kəndində kasıb ailədə doğulub. Uşaqkən yetim qalıb. Yeddi cildlik "Böyük didaktika" əsərinin əsas tezislərini o, pedaqoji fəaliyyətinin ilk dövründən, 1612- ci ildən "Çex dilinin xəzinəsi" adlı Məktəb ensiklopediyası ilə irəli sürməyə başlayıb. Bəşəriyyətin tam savadlanması üçün hazırlanmış bu ideya indiyəcən bütün mütərəqqi  qüvvələrə hakim kəsilmişdir.

Yan Amos Komenski (28.III.1592-15.XI.1670),
o dahi İNSAN
Dəyişdi bəşərin aqibətini.
“Böyük didaktika” ilə həmzəban
Yaratdı zəkada “Yer cənnəti”ni!

“Dünya labirinti və qəlb cənnəti”(1623):
30 illik savaş, talana cavab!!
Sevgiyə çevirdi min-min nifrəti
Yan Amos qəlbində dərdlə iztirab.

Öz Ana dilinə məhəbbətini
Yazdı “Çex dilinin xəzinəsi”nə (1612-
1656).
Bəşərin, Zəkanın bəsirətini
Çevirdi qəlblərin təranəsinə.

“Çex didaktikası”nı yazdığı üçün
Katolik güruhu qovdu Leşnoya.*
Tərk edib talanmış, dağılmış evin,
Sığındı otuz il qonşu Polşaya.

---------------------
*PS: Leşno şəhəri Polşada yerləşir. Müəllim katolik kilsəsinin məcburiyyəti və talan-təqiblər üzündən öz ölkəsini tərk edərək 28 il bu şəhərdə yaşayıb, pedaqoji fəaliyyət göstərmişdir.

Yalnız məktəbdarlıq etdi burada,
Dərs verdi gənclərə Gimnaziyada.
Vaxt tapıb dərslərdən, işdən arada
Yazdı “Didaktika” * o, latınca da...

Tarixdə ilk dəfə “Ana məktəb”lə
(1632)**
Evdə tərbiyəyə bir önəm verdi.
Ananın verdiyi təlim, ədəblə
Ailəni məktəb, dərsə çevirdi!

Xartlib*** səs verdi ilk kəz Amosa:
İngilislərdirmi mühafizəkar?!
Fəqət müharibələr qoymadı qura
Beynəlxalq Alimlər Birliyin onlar...

------------------------

*PS:Çexcə “Didaktika”nı 1632-ci ildə bitirən Müəllim, bundan sonra 1633-1638-ci illərdə “Böyük didaktika” (Didactica magna) adı ilə onun latın versiyasını yazmışdır.

**PS: “Ana məktəb” (İnformatorium şkoly materske. 1632.) ailə tərbiyəsi ilə bağlı tarixdə yazılmış ilk pedaqoji əsərdir.

***PS: Xartlib XVII əsrin görkəmli İngilis ictimai xadimi. 1637-1638-ci illərdə yazdığı iki hissəli Məqaləsi (Pansophiac prodromus) ilə bütün dünyada ümumbəşəri elmi-texnoloji nailiyyətlərin birləşdirilməsi Pansofik ideyasına ilk dəfə beynəlxalq dəstək vermişdir. O, Beynəlxalq Alimlər Komissiyasının təşkili ilə əlaqədar Müəllimi İngiltərəyə dəvət etmişdir.

Onu dəvət etdi İsveç, həm Macar...

“Pansofiya məktəb”in (1651) Hunqarda
yazdı.
Qələmə aldığı Məktəb-Oyunlar*
Nadanlıq savaşın səhnədən pozdu.

1654-də Leşnoya
Yenidən qayıdıb gəldi Yan Amos.
Yol açdı Polşada Pansofiyaya
Yaratdı tarixdə ilk rəsmli
Qamus**(1658).

Cin-Şeytan niyyətli qanlı savaşlar
Üzündən nə qədər əsər yaxıldı...
Məhv etdi nə qədər Başı kütbaşlar,
Amosdan bəşərə az əsər qaldı...

---------------

*PS: J.A.Komenski Hunqariyada pedaqoji fəaliyyəti dövründə səkkiz pedaqoji pyes yazmışdır. Bunları 1656-cı ildə nəşr etdiyi “Məktəb-Oyun” kitabında bir yerə cəmləşdirmədir.

**PS:Y.A.Komenskinin 1658-ci ildə qələmə aldığı tarixdə ilk rəsmli ensiklopediya (Duyulan əşyalar dünyası Rəsmlərdə) nəzərdə tutulur. Bu əsər XIX əsrin II yarısına qədər Avropa məktəblərində istifadə olunmuşdur.

Hərb qızdı İsveçlə təkrar Polşada.
Amsterdam Senatı Yana yer verdi.
“Bəşər əməlinin təshihi haqda”(1644- ?)*
Kitabdan hissələr nəşr edildi...

“Ümumi oyanış”, “Ümumbəsirət”(1662)
Vətəndən qürbətdə işığa çıxdı.
Neçə dəfələrlə qara cəhalət
O nurlu simanın evini yaxdı...

“Ümumi müdriklik”, “Ümumtərbiyə”,
“Ümumdünyəvi dil”, “Ümumi islah”,
“Ümumxəbərləşmə”--bu Yeddi cildlə**
Tarixin üzünə açıldı Sabah!..

Yan sülhə çağırdı bəşəriyyəti
Gözəl “Sülh mələyi”(1667) əsəri ilə.
Hər cür münaqişə və ziddiyyəti
Dinc yolla həll etmək nəzəri ilə!!

------------------------

*PS,**PS: Böyük Müəllimin bu kitabı ümumilikdə 3000 səhifədir. 1644-cü ildən ömrünün sonunacan yazdığı bu əsər 7 cilddir. Onun ilk iki cildi: “Panqeriya” (Ümumi oyanış) və “Panovqiya” (Ümumbəsirət) 1667-ci ildə nəşr edilmişdir. Digər beş hissə: “Pansofiya” (Ümumi müdriklik), “Panpediya” (Ümumi tərbiyə), “Panqlotiya” (Ümumi dil), “Panortoziya” (Ümumi islah) və “Pannuteziya” (Ümumi xəbərləşmə/məlumatlanma) isə XX əsrin 20-ci illərində tapılıb üzə çıxarılmışdır.

“Böyük didaktika”: borcdur bu həyat,
Varlığın mənbəyi Allahdır!-dedi.
Yan Amos Komenski, o işıqlı ad
Cahanda bəşəri ilk Günəş idi.

Tərbiyə üç qola bölünə bilər:
Mənəvi tərbiyə, Elm, Dini dərk.
Tərbiyə olmasa, Yer üstə bəşər
Cəhalət üzündən olacaq həlak.

Beş təhsil dövrünə bölünüb Həyat:
Ailə məktəbi, Anadilli dərs,
Latın gimnaziyası, Akademiya.
Budur mənəvi can, mənəvi nəfəs!..

Beşinci təhsildir Həyatın özü:
Həyat dərsi dedi Yan Amos buna.
“Pansofiya” deyə öyrətdi bizi
Həyatın əbədi Dərs olduğuna!!

Dünya, İnsan, Vəhy,-- Qurani-Şərif
Bunlara Allahın kitabı deyib.
Qutsaldır Yazıdan oxunan Hərf,
Onlara Tanrının nəfəsi dəyib.

10

Bu gün Ellinizm yunan dövrünün
Dünyaya açılan son vərəqidir.
Nizami* Bəşərin bütövlüyünün
Planet üstündə nəcib fəxridir.

Böyük ədəbiyyat camiyəsində
Böyük Azərbaycan dühası budur!
Böyük Füzulilər hər səhifəsində
Qəlbimizdə Milli Birlik oyadır.

Bir gün qovuşacaq gücü Millətin,
O gün uzaq deyil, yaxındır bizə.
Dahillər şahidlik gətirir bü gün
Böyük Azərbaycan taleyimizə!

37-ci il. Məhşəri dəhrin:
Neçə dahimizin ömrünü kəsdi...
Qəlbində min nifrət, min hiddət, min
kin:
Dağlar dözməyənə bu millət dözdü...

---------------------
*PS:Dahi Azərbaycan şairi, Xaqanidən başlayan ilk dünya intibahının layiqli davamçısı Şeyx Nizami Gəncəvi və onun son Azərbaycan Atabəylərinə ithaf etdiyi “İsgəndərnamə” poeması nəzərdə tutulur.

Ömürlər yaşayır neçə könüldə,
Şairlər əbədi canlı həyatdır.
Ailədə, yurdda, dostluqda, eldə
Sədaqət ən böyük mənəviyyatdır.

...Qan rəngi almışdı o günü üfüq,
Edam olunurdu şair Vətəndə:
30 yaşda idi Mikayıl Müşfiq (1908-1938)
Nargin adasında güllələnəndə.

Bir Dilbər başına qara bağladı,
Göz yumdu dünyanın "Ədalət"inə.
Tarix bulud-bulud göydən ağladı
Bu dahi şairin müsibətinə.

Haqqı, Həqiqəti güllələdilər,
Fəqət öldürməyi bacarmadılar.
Günəş zülməti yox edənə qədər
Bulanıb duruldu nə qədər sular...

Xeyr! Bu məhəbbət sonsuz qalmadı:
Müşfiqlər doğuldu bu yurdda bir də.
Daima canlıdır şərəf həyatda:
Cavidlər ölmədi əsla Sibirdə...

Yaşatdı bu eşqi minlərcə Dilbər:
Neçə Mikayıllar!.. Neçə Müşfiqlər!..
İsmayıl müəllim öz ocağında
Bir mələk saxladı Dilbər adında.

İsmayılovlar ailəsindən
O Dilbər xanımın hökmiylə tezdən
Mikayıl, Müfiqlər Məktəbə getdi.
Şairin ruhunu şadiman etdi!!

Nə gözəl örnəkdir ailə üçün bu!
Necə də ölməzdir könüldə arzu!
Eşq olsun Xalqımın təmiz qəlbinə,
Vəfalı eşqinə, sadiq eşqinə!..

Nə gözəl, müqəddəc adətimiz var:
Adın daşıyırıq kiminsə biz də...
Deyirəm hər zaman, hər yerdə, Dostlar,
Yaşadaq adları əməlimizdə!!

...Qan rəngi almışdı o günü üfüq,
Edam olunurdu şair Vətəndə:
30 yaşda idi Mikayıl Müşfiq
Nargin adasında güllələnəndə...

*“Sən onun eşilə, məhəbbətilə*
*Vurmadın ömrünü başa, ürəyim!*
*Sevgi hədəfinə nişan alanda,*
*Dəydimi oxların daşa, ürəyim?..”*
(M.Müşfiq)



Müəllim evində Müşfiq doğuldu,
Ata “Ana dil” müəllimidi..
Cəfər Cabbarlı tək şagirdi oldu:
“Səadət”* canlı bir Seyid Əzimdi.

---------------------

*PS:M.Müşfiqin atası Ə.İsmayılzadə (Vüsuqi) ömrünün sonunacan “Səadət” məktəbində Ana dili və ədəbiyat müəllimi olub. Şair idi. M.Maqomayevin “Şah İsmayıl” və digər operaların liberettosunu yazıb.

Fəhlə hökuməti adından onu
Gənc ikən öldürtdü bir kəndli oğlu...
(O cür də qurtardı özünün sonu):
Budur xəyanətin Marr Cəfər yolu!..

Güllə iki Dilbər bəxtini vurdu,
Bacı da ömrünü yarıda qırdı...
İntihar elədi Balacaxanım:
Ah, nələr yaşadın, Azərbaycanım?!.



Tarix həqiqəti gizlətmir heç vaxt,
Hesabı göylərdə gedir bu Yerin.
Goruna söyəcək Millət hər sabah
Vətənə xəyanət eləyənlərin.

Fəhlə hökuməti adından onu,
Gənc ikən öldürtdü bir kəndli oğlu...
(O cür də qurtardı özünün sonu):
Budur xəyanətin Mircəfər yolu!..

Böyükdür Yurdumda Sözün qiyməti,
Fikrin şeir qatı daha dərindir.
Gözlər önündədir Xalq məhəbbəti:
Ən uca heykəllər şairlərindir!..

Bir zaman yazmışdı Əmir Keykavus*:
"Elmdən yaranan sənətdir şeir."**
"Nəsr--rəiyyət, şeir şahdır!"***--der
Qabus
Tarixə xitabən düz Doqquz əsr.

-----------------------

*PS: Əmir Keykavus ibn İsgəndər ibn Ziyar (1022--?). Ziyarilər xanədanının son hökmdarı. "Qabusnamə " əsərini 1083-cü ildə oğluna nəsihət olaraq yazıb.

**PS: "Qabusnamə" ("Elm öyrənmək və fəqhlik haqqında" bölümü), Azərnəşr, Bakı-1989, səh.:136.

***PS:Göst. əsər ("Şairlik qaydaları haqqında" bölümü), səh.:163.

Elmsiz şeirin bünyadı olmaz,
Biliksiz şairlər köksüz ağacdır.
Şeir insanlığa fani iltimas:
Şairlik əbədi bir ehtiyacdır.

Hər addım başında Nəsimi, Nişad,
Nizami, Füzuli, Cavid, Mikayıl...
Şairi yaşadır həm şeir, həm ad:
Məgər bu sənətə məhəbbət deyil?!.

"Artıran Söz qədrini sidq ilə qədrin artırar,
Kim nə miqdar olsa, qədrin eylər ol miqdar(i)
Söz.
...Olmayan qəvvasi-bəhri-mərifət arif degil,
Kim, sədəf tərkibi-təndir, lölöyi-şəhvar(i) Söz"
(Məhəmməd Füzuli:1494-1556)

Bir vaxt ad verərdi Dədəmiz Qorqud
Yalnız əməlinə görə gənclərə.
Həyatda olmaqçın adıyla məsud:
Adın doğrultmalı olurdu hərə...

Vətənə sevgidən, Xalqa sevgidən
Sınmadı Tiranlar önündə Müşfiq!
Odur ki, Mikayıl adından Vətən
Daima şövq alıb, keçirdi təşviq!

Xaliqim əvvəlcə Sözü yaratdı,
Sonra da Sözlərə can verdi Allah.
Tarix Sözlə durub, Söz ilə yatdı,
Söz ilə açıldı Fikirdə Sabah!..

Qiyməti qanmayan Sözü anlamaz,
Çünki Ad birinci Qiymətimizdir.
Sözdür Yer üzündə ən parlaq almaz:
Adımız pürbaha ziynətimizdir.

İsmayıl müəllim Dilbər xanımla
Mikayıl Müşfiqin adın yaşatdı:
Elə ki, cahana arzu, inamla
Mikayılla Müşfiq qədəmin atdı!!

Böyüyüb hır biri doğma Vətəndə
Millətə gərəkli bir oğul oldu.
Onların ömründə, əməllərində
Müşfiqin arzusu, eşqi doğuldu...

Mətanət rəhnidir Azərbaycanım:
Otuz Yeddilərə sinə gərdilər!
İsmayıl müəllim, bir Dilbər xanım
Bir şairə iki ömür verdilər!!

Böyükdür Yurdumda Sözün qiyməti,
Fikrin şeir qatı daha dərindir.
Gözlər önündədir Xalq məhəbbəti:
Ən uca heykəllər şairlərindir!..

Nə gözəl örnəkdir Vətən üçün bu!
Necə də ölməzdir könüldə arzu!
Eşq olsun Xalqımın təmiz qəlbinə,
Şairə eşqinə, şeirə eşqinə!..

# IV HİSSƏ

# AZADLIQ MƏKTƏBİ



*"Azadlıq- böhtanın, yalanın sonu,*
*Azadlıq- bu sənin qızıl haqqındır.*
*Cəlladın ağzından çək çıxart onu,*
*Böyük azadlıqlar böyük Xalqındır!.."*
(Söhrab Tahir. "Azərbaycan" poemasından.)

## 1

İrəli, xalqım, əziz can ola Bayrağa fəda,
Mavi-al rəngli-yaşıl tarixi övrağa fəda!

Bu gözəl Azər(i)baycan cahanın cənnətidir:
Canımız hər çəmənə, gülşənə, hər bağə fəda!

Vətən eşqidi bizim könlümüzə şahlıq edən,
Olalım gündə neçə yol bu gözəl şahə fəda!

Uca tutmaq gərəkir bizlərə Ulduzlu Tuğu
Ki, olaq həm Hilala, Ülkərə, həm Tuğə fəda!

Edər aləmə şayan bizləri Fərhadi-hünər,
Edə bilsək bu Şirin canları biz dağə fəda!

Vətən uğrunda şəhid olmuş əziz gənc əsgər,
Canımız olsun o sizlər bükülən ağə fəda!

Şühəda əhlinə min rəhmət oxur şanlı Vətən,
Olar etmiş canını çünki bu torpağə fəda!

Bizi Azadlıq üçün doğdu, doğurdu ki zaman,
Yaşayaq özgür, edək ömrü bu növrağə fəda!

Bir ömür azdır, Ata, can Vətən uğrunda verək,
Neçə  yol gündə olaq biz də bu Bayrağə fəda!!.

2

*“O tülkü siyasilər, o hər an,*
*Məzhəb çıxaran, yol ayıran*
*sahibi-hədyan…”*
(Hüseyn Cavid)

“ŞAHİD”:*
“Kreml oynayır Qərblə üz-üzə,
Qurbanlıq rolunu veriblər bizə,
Qlobal fırıldaq belə qurulub:
Altında *“Qorbaçov”* imzası durub.

Gedir demontajı vicdanın, əqlin,
Gedir Ədaləti pozan Oyunlar.
Gedir “uğurunda millətin, xəlqin...”
Vətənin məzarın qazan Oyunlar.

Qaldırıb kürsüyə nadan kəsləri,
Çevirib mandata saxta “səsləri”,
Bütün bəlaları, müsibətləri
Millətin adına yazan Oyunlar.

-----------

*PS: Dırnaq işarəsi ilə verilmiş şeir bəndləri 2010-cu ildə Bakıda nəşr edilmiş “Terrorizm: qan çilənən torpaqlar” toplusunun III cildində Müəllifin işıq üzü görmüş İkinci poemasından götürülmüşdür.

Hər şəhər, hər oba, ev batıb yasa,
Min divan tutulur Azərbaycana.
Yalanı çevirib gur mikrafona
Oyunun ardında susan Oyunlar.”

***

Yenidənqurmadır: gedir demontaj:
Bir Yenidənqırma, qırmızı şantaj…
Qafqazda hərbi güc saxlamaq üçün
Etnik münaqişə kartı var bu gün.

Ortadan qaldırıb KP Bürosun,
Ortaya atıblar Daşnak Ordusun...
Sonra da beynəlxalq qurdlarla birgə
“Demokrat” savaşı açıblar Türkə.

Cəsarət lazımdır bu böyük xalqa:
Sarılsın silaha, bir də Bayrağa!..
Qurtuluş bir yalnız İstiqlaldadır,
Milli düşüncədə və amaldadır.

Ağsu ayaqdadır, bir an yatmayır,
Bakıdan müxtəlif xəbərlər gəlir.
Ahlar BMT-yə gedib çatmayır,
Nalələr göylərin bağrını dəlir.

Qarabağ, İrəvan türkü silahsız
Erməni gülləsi qabağındadır.
Daşnak güruhları dinsiz, Allahsız:
Tarixin barbarlıq ilk çağındadır.

Rayondanköməyə gedir cavanlar,
Yaşasın Azadlıq və Vətən!-deyə.
Vuruşur liderlik üstə Meydanlar
Bakıda Kim ondan, Kim məndən?-deyə.

Azadlıq, İstiqlal üzünü görməz
Şəhidlik Məktəbi keçməyən bir xalq.
"Azadlıq alınır, bir kimsə verməz!"—
İstiqlal Bizneslə deyildir ortaq.

Qarabağa sarı düzübdür səfin
Qəhrəman Ağsumuz mərd oğulların!..
Bütün obaların, evin, məktəbin
Döyüşə açıbdır mərdlik yolların!

İsmayıl müəllim gənclərə deyir:
Halaldır Ağsumun çörəyi sizə.
Əsl imtahandır bu şanlı dövr:
İstiqlal bağlıdır iradəmizə...

Siz, ey Şıxmüzənin* məğrur köksündə
İstiqlal Marşını oxuyan gənclər!
Sabah da, dünən də, elə bu gün də
Ən böyük Məktəbdir gənclərə Zəfər!

İgidlər, min şəhid məzarı vardır,
Qəhrəman Ağsunun hər guşəsində.
Bir Savaş Meydanı Ağsuya dardır:
Döyüşün dünyanın hər cəbhəsində!..

---------------------------

PS: 1749-cu ildə Ağsu ərazisində yerləşən Şıxmüzə düzündə Nadir Əfşarinin Şirvan üzərindəki satrapı Şahsevən Əhməd xanın 10 illik dövr ərzində yerli camaata edilən zülmünə qarşı üsyan olmuşdur. Dədəgünəşli Ağaməsih Şirvani məşhur "Şahnamə" poemasında həmin hadisəni tarixi mənzumə kimi qələmə alınmışdır.

## BİR KƏRƏ YÜKSƏLƏN BAYRAQ
(simfonik marş)

Bir kərə yüksələn Bayraq,
Hürriyyətlər doğdu səni!
Bir kərə yüksələn Bayraq,
Əsarətlər boğdu səni...

Dünənimiz təkcə sənsən,
Sabahımız səndən keçir.
Dincliyimiz təkcə sənsən.
Savaşımız səndən keçir.
Bir kərə yüksələn Bayraq!

Qılınc vuran qolumuzsan,
Sən azadlıq yolumuzsan.
Simurq kimi doğulmusan,
Bir kərə yüksələn Bayraq!

Topla yenə gücümüzü,
Yenilməyən əzmimizi.
Nəsil-nəsil qaldır bizi,
Bir kərə yüksələn Bayraq!

---

PS: N. Atabəylinin bu şeiri ilk dəfə 1991-cı ilin 2 fevralında "İlham"(N-13) qəzetində (şöbə müdri olub) Sovet işğalı və Hərbi Vəziyyət rejimi şəraitində "A.Atasoy" psevdonimi ilə dərc edilib. 90-cı illərin ortasında bəstəkar Ədviyyə Rəhmətova bu şeirə Arif Məlikovun tövsiyəsi ilə eyniadlı simfonik Marş yazmışdır.



Həyat bir savaşdır, könül silahdaş,
Can deyil canını yormayan insan...
Sayılmaz Vətənə heç vaxt vətəndaş,
Xalq üçün yaradıb, qurmayan insan.

Dağların zivəsi Qartalı yıxmaz,
Meşələr, ormanlar Aslanı sıxmaz.
Gecədən gündüzə hünərlə çıxmaz,
Günəşdən irəli durmayan insan.

Ömür-gün arifə deyil boş həvəs.
Sonuncu ümiddir sonuncu nəfəs.
Fərhadlıq eşqinə düşməsin əbəs,
Külüngü qayalar yarmayan insan.

Dünya qanan üçün Elm aləmidir.
Ağıl Yer üzünün Müəllimidir.
Həyatda cavabsız sual kimidir,
Dünyanı özündən sormayan insan.

***

3

Çağırır milləti Birliyə Nüsrət!*
(O da bu Vətənin bir Müşfiqidir.)
Nəsimi tinətli o məğrur cürət
Milli qeyrətimin Qılınc dilidir.

Meydan etirazla dolub boşalır,
İmperiya üz-üzə qoyur bir Xalqı:
Vəzifə eşqi ki, qəlbdə kök salır,
Bölünür min yerə Vətənin haqqı...

---------------------------

*PS: 80-90-cı illərdə "Azadlıq meydanı"nda ən fəallardan biri olmuş rəhmətlik şair Nüsrət Kəsəmənli nəzərdə tutulur.

Çağırır Meydanı birliyə Nüsrət,
Dilində Azadlıq, qəlbində həsrət.
(Atəşə başlayıb Atəş kəsəcən
Nə udduq, uduzduq, canım ey Vətən?):

*"Bir budağı təklikdə*
*Uşaq da qıra bilər.*
*Bir damlanın önündə*
*Yarpaq da dura bilər.*

*Birdən qıra bilərmi*
*Yüz budağı bir nəfər?*
*Sellərin qabağında*
*Nə durar, nə tab edər?"**

(N.Kəsəmənli)

Al qan "Göy" kapitala çevrilən yerdə
Savadsız baş əldə bir alət olur.
Gündə bir hökumət devrilən yerdə
Tülkülük ən böyük siyasət olur.

Mübarizə təlim, metodsuz gedir,
Bu, müharibə yox, özfəaliyyətdir.
Nadanı savaşda ağıl məhv edir,
İntizam hər işdə ilk nailiyyətdir.

---------------

*PS: Nüsrət Kəsəmənli. "Yaddan çıxmaz Qarabağ..." poemasından.

Çağırır milləti Birliyə Nüsrət!
(O da bu Vətənin bir Müşfiqidir.)
Nəsimi tinətli o məğrur cürət
Milli qeyrətimin Qılınc dilidir.

Millət mütəşəkkil ayağa dursa,
Dağlar da tərpənər onun gücündən.
Palıdı yıxanmaz şimşək də vursa:
Yıxar qurd yeyərək yalnız içindən.

Min plan qəsd edir Milli canıma,
Türkün haqq səsini batırmaq üçün.
Baxır Qərb sakitcə axan Qanıma:
Sabah göy sərmayə yatırmaq üçün.

Meydan millətimin Azadlıq səsi,
İstiqlaliyyətə ilk imzasıdır.
Meydan haqsızlığın mühakiməsi,
Xalqımın Tarixə etirazıdır.

4

...Nəhayət İstiqlal qazandı Xalqım,
Qayıtdı özümə mənim də Haqqım!..

Ədu min müsibət açdı başıma:
20 Yanvardan Xocalıyacan...
BMT, ATƏT-lər çıxdı qarşıma,
Qəyyuma alındı cəllad Hayastan.

Həyat Oyun deyil, İnsan oyuncaq,
Həyat nəsillərə bir ESTAFET-dir.
Həyat onun üçün həyatdır ancaq:
Vətənə tarixi məsuliyyətdir.

Ömrünün 23 İlini ancaq
Yaşadı İstiqlal çağı İsmayıl.
Edərək Vətənə eşqini Bayraq,
Ucaltdı Hilalı, Tuğu İsmayıl!

Haqqın dərgahına Fərhadlar kimi
Əlində külüngü gələnlərik biz.
Qəlbində gizlədib kədəri, qəmi,
Həsrətin üzünə gülənlərik biz.

Mənasız gəlmədik heç də həyata,
Andı, sədaqəti vermədik bada.
Bu zəri, zərgəri saxta dünyada
Saf zərin qədrini bilənlərik biz.

Hər ağıl anlamaz sevdanın gücün.
Tacdan yuxarıdır bizimçin hüsn.
Bir zərif ürəyə yol açmaq üçün
Min dağın köksünü dələnlərik biz.

Birdən uca deyil məqamı yüzün.
Əyrinin ağası, quluyuq düzün.
Eşqin kitabından xəyanət sözün
Bağrının qanıyla silənlərik biz.

Eldən ayrı deyil bizim baxtımız.
Haqqa dua ilə keçir vaxtımız.
Qurulub qəm üstə könül taxtımız,
Sevincin hamıyla bölənlərik biz.

***

Vətənin İstiqlal mərəmnaməsi
Şəhid qanlarının halallığıdır!
İbrətdir Sokratın mühakiməsi:
Həqiqət hər yerdə zəhər-öd dadır...

Vətən Haqq davası aparır, fəqət
Gödən davasına çıxıb nadanlar...
Bəli, çox acıdır hər vaxt Həqiqət,
Bununçun da gözəl bir Rəvayət var:

Bir gün şah oğlu şah hamıdan gizli
Sarayı tərk edib, el içinə çıxdı.
Nəzərdən keçirib, bağı, mənzili
Ayaq yorulunca şəhərə baxdı.

Paytaxt kənarında bir bağça vardı,
Bəhəri, meyvəsi göz oxşayardı.
Nəfsinə hakim olmayaraq şah,
Basdı bu ünvana, qapıya ayaq...

Döydü darvazanı.  Sahibi çıxıb
Soruşdu: Buyurun, eşidirəm mən!
Şah dedi: Qəribəm, qarnım acıxıb,
Mümkünsə kəsərdik duz-çörəyindən...

Dəvətsiz qonağı çəkib həyətə,
Ona süfrə açdı evin Sahibi.
Hərdən bir eləyib onunla söhbət,
İstədi şad olsun qəribin qəlbi.

--Gözəl meynən vardır, bircə stəkan
Üzüm suyu versən, bununla yetər...
--Olar! Bu dəqiqə,-söylədi bağban,-
Əsl zamanıdır. Yetişib bəhər!

Dərib bircə salxım, sıxıb suyunu
Qərib qonağına ikram eylədi.
--Aradan götürə bilərsəm bunu,
Sahibi olaram bağın,-- Şah dedi...

Sonra ikinci bir cam da istədi,
Qara nəzərlərlə süzərək bağı...
Olar!--Qoca bağban,- baş üstə,-dedi,
Durdu ikram edə bir də qonağı.

İki salxım üzüm dərib gətirir,
Sıxır salxımları bardağa, dolmur...
Təkrar iltifatlar durub göstərir:
Daha iki salxım, beş salxım... Olmur!

--Bayaq bir salxımla doldu bu bardaq,
İndi on kiloyla bəs niyə dolmur?
--Halallıq var idi burada bayaq,
İndisə haram var: nizamı pozur...

Danışa bilmərik biz halallıqdan,
O getdi süfrədən, biləsən, qəti!
Hansısa bədnəzər, bəd niyyət insan
Yox etdi bu bağdan bar-bərəkəti.

Şah gördü əyilib Haqq tərəzisi,
Haram nəzərləri altında onun.
Tərk etdi bağçanı dinməzcə özü,
Dərk edib haramla halalın sonun.

...İstiqlal ümumi milli sərvətdir,
Heç kəsin adına bağlana bilməz.
Bayraq Vətən üçün Milli Qeyrətdir:
Ayaqlar altına atıla bilməz!..

Şirvan Diyarımın bircə kəndində
Tək bircə nəsildən üç şəhidim var.
Can qoydu Qarabağ döyüşlərində
Vətən Bütövlüyü uğrunda onlar:

3

Uca Tanrım, qoru özün bizi hər cür bəlalərdən,
Ədu-əğyaridən hər gün gələn alçaq xətalərdən.

Şəhid oldu Qarabağın davasında Atabəylər*:
Gözləməsin El ərənlik fərar etmiş gədalərdən...

----

*PS: Şairin üç qohumu, həmkəndli və həmtayfası olan gənc atabəylilər: Cavanşir Qədir oğlu Quliyev (1958- 8.V.1992, Şuşa), Famil Firidun oğlu Həşimov (1973-16.XI.1992, Qarağağ) və Cabbar Aydın oğlu Əsgərov (1972-28.XII. 1993, Qarvənd) Qarabağ-Vətən müharibəsində qəhrəmancasına həlak olmuşlar.

Bürüyübdür gülizarı gör nə şaxta, çovğun, ey dil,
Aça bilməz bağçada gül  zəif üzlü ziyalərdən.

Hardadır o Möminələr, o Zübeydə, Cəlaliyyə?!
Doğa bu gün yurdumuza Atabəyli fədalərdən!!

Körfəzi-Kəngəridən ta Dəmiri-Dərbəndiyəcən,
Gələr, o Şah İsmayıl tək Yurda qazi atalərdən.

Oxu, ey Tar! Gülər,əlbət, zəfər iləAzərbaycan,
Sari simim zilə qalxar döyüş ünlü sədalərdən.

Səslən, İlham, Atabəylər Ordusuna ərən hayla:
Beytimizə düzək, əlan, Misri qılınc nidalərdən!!.

***

...Oğuz qəhrəmanı Şahid haqqında
Eşitməyən varmı? Bu mümkün deyil!
Şöhrətə şayandı bütün cahanda,
Əsl Babək idi hərbdə elə bil!..

***

“Mənə dəstək verin, mənə ün verin,
Tarixi nizama sala bilim mən!
Mənə möhlət verin, mənə gün verin
Daşnakdan intiqam ala bilim mən!

Alçaq zəmanədən cana yığmışam,
Demə öz evimi özüm yıxmışam?!
Bütün əcəllərlə cəngə çıxmışam:
Ölümlə üz-üzə qala bilim mən!..

Düşmən var olubdur yurdumda yoxdan,*
Vardır qiyamətim Haykla çoxdan.
Qüdrət istəyirəm uca Allahdan:
İsrafil surunu çala bilim mən!..

-------------------------

*PS: Dırnaqda verilən parçalar müəllifin "Şahid" qəhrəmanlıq poemasından götürülüb. Şahid Həbibullayev (1952-2013) Oğuz rayonunun Muxas kəndindəndir. Politexnik İnstitutunu bitirib. İdarə rəisi olub. 88-ci illərdə Lefertofo məhbəsində həbsdə yatıb. 90-cı illərdə könüllü Qarabağ Vətən savaşına qoşulub. 181-ci briqadanın VI tank taborunun komandiri olub. Ağır döyüş yarası alıb. 1994-cü il oktyabrın 9-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Fərmanı ilə "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunmuşdur.O, həmçinin Xeyriyyəçi və Milli abidələrimizin himayəçisi idi. Ömrünün sonlarında Qala Misgərlik abidələri Muzeyini yaratmışdı. Muzey Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə tikilmişdir.

***

Əzəl katibləri, ey dil, səni cananə yazmışlar,
Canı-cananın hər dərdin bizim bu canə
yazmışlar.

Derəm yoxdur bu dünyada nəyi dersən, fəqət,
ey can,
Səni ol cani-cananə verəm imkanə yazmışlar.

Götür, ey dil, başını tez, yürü Mənsur kimi
darə,
Məhəbbət əhlinin başın verə meydanə
yazmışlar.

İçə bilmək üçün cürmü meyi-nabın, Saqi,
çoxdur:
"Səbuh" üçün mənə dürdi-meyi şəbanə
yazmışlar.

Könül dərdim mənim, ey şux, sənə zərrə təsir
etməz,
Dəvanı dərdə yox, dərdi mənə dərmanə
yazmışlar.

Bu nə sirdir, əcəb, ey yar, bizə dərdi verən
sənsən,
Nədən cövri-sitəmləri bütün dövranə
yazmışlar?!

Ey Ata, gəl, Füzuliylə az ovut bu könül dərdin:
Onu Kərbübəlaya, bil, səni Şirvanə yazmışlar!..

***



...Vətənin İstiqlal mərəmnaməsi
Şəhid qanlarının halallığıdır!
İbrətdir Sokratın mühakiməsi:
Həqiqət hər zaman zəhər-öd dadır...

Ömürlər yaşayır neçə könüldə,
Şəhidlər əbədi canlı həyatdır.
Ailədə, yurdda, dostluqda, eldə
Rəşadət ilahi mənəviyyatdır.

“94-cü ilin soyuq yanvarı:
Bəytəpə uğrunda vuruşlar gedir.
Öndədir Şahidin cəsur taboru,
Döyüş qalibiyyət, zəfərlə bitir!..

Böyük Qələbəmin gəlir sorağı,
Sancılır dağlara Vətən bayrağı.
Alqışlar bürüyüb dili, dodağı:
Uzaqda deyildir son Zəfər çağı!..

Harami düzündə bax “Dərs” verirlər:
Yanıb tüstülənir düşmən tankları.
Bizdə öz qanıyla yedizdirirlər
Dəvət olunmamış ac Haykları!

Zərdablı Haqverdi kimi igidlər
Qurban elədilər Vətənə canı.
Cismini torpağa yıxan şəhidlər
Ayaqda saxladı Azərbaycanı!!”*

------------

*PS:Bax, Terrorizm, qan çilənən torpaqlar. III Kitab.Bakı-2010. “Avropa” nəşriyyatı, Müəllifin “Şahid” poeması, səh.: 200-201.

...Bir deyil, yüz deyil, neçə minlərlə
Şəhid oğulları vardır Şirvanın.
Axsitan tinətli mərdlik, hünərlə
Onlar fəxridirlər Azərbaycanın!..

Savaş mövzuların Dərsdə öyrədir
İsmayıl müəllim bu qanlı gündə.
Hər şagird qəlbində müharibədir:
Daşnak məhv eləmək vardır könlündə

Alovun içindən, odun içindən
Keçərək Salnamə yazır ki Qələm:
Vətən silahlansın Söz sənətindən,
Sussun hüzurunda BMT, ATƏM..

Ömürlər yaşayır neçə könüldə,
Şəhidlər əbədi canlı həyatdır.
Ailədə, yurdda, dostluqda, eldə
Rəşadət ilahi mənəviyyatdır.

l



Qəhrəman Ağsumun neçə gənc oğlu
Canını Vətənə fəda etdilər.
Şirvanşah yoludur onların yolu,
Rəşid gəlmişdilər, şəhid getdilər...

Ağsumun Şamili* Qarabağımda
Mərdlik kitabına atdı imzasın.
Müşviqlər, Aqşinim, Hüseynqulum da
Qan ilə yazdılar Zəfər yazısın.

-------------------

*PS: Şamil Ramazanov Ağasəf oğlu (1976-1995) - Azərbaycanın Milli Qəhrəmanı. Şəhidlərimizə Allahdan rəhmət diləyirik!

Hafis, Xilqət, Aslan, Rauf, Yadigar,
Sarvan, Kamal, Mahmud, Qabillə Rizvan...
Cəbrayıl, Məzahir, Mahmudla Sərdar:
Sizlə qürur duyur can Azərbaycan!

Qaniçən deməsin qoy Tarix bizə:
Bizdə könül də var, məhəbbət də var:
Göz dikən kim olsa Vətənimizə,
Burada cənnət yox, cəhənnəm tapar!

Mənim Ümumbəşər söz sənətimdə
Sevgi də yer alıb, müharibə də.
Ayrı-seçkilik yox məhəbbətimdə,
Yeganə bir Şirəm döyüşdə, hərbdə!

Nəsimim (1369-1414) yazıbdır Eşq hekayəti
Orda "Erməni" də yer alıb fəqət.
Qoy bilsin bunları Daşnak erməni:
Hər şeydən ucadır təmiz Məhəbbət!

"Kəbə üzündür, ey sənəm, üzünədir sücudumuz,
Ta ki bu səcdeyi narə yanə həsudumuz.
...Surəti-xəttü xalinə sacidü abid olmayan,
Millətimizdə oldurur müşrikimiz, yəhudumuz."

(İ.Nəsimi)

Dahi Nəsimimiz erməni qızın
Çox gözəl sezibdir: “könlü zindandır”.
Necə gizlənsə də ardında Xaçın,
Daxili canavar, üzü insandır:

“Anca kim, səy eylədim nazik camalın görməyə,
Zərrəcə yumşalmadın, *ey könlü Zindan erməni.*

...İsayi-Məryəm həqiçün heç qərarım qalmadı,
Didəmi giryan edərsən, bağrımı qan, erməni.

*Qorxuram mən dərvişə sən deyəsən din tərkin et,*
*Necə ki, bağladı zünnar Şeyx Sənan, erməni.”*

(İ.Nəsimi)

Qadın ayrı şeydir, Vətən ayrı şey:
Torpaqdan axçiyə pay ola bilməz!
Vətəni güzəştə etsə bir ürək:
Dəryalar o qara ləkəni silməz!..

Milli- Ümumbəşər söz sənətimdə
Sevgi də yer alıb, müharibə də.
Ürəyim bülbüldür məhəbbətimdə,
Nifrətim pələngdir, aslandır hərbdə!

İndisə öz saxta "Tarixlər"indən
Söz salım erməni cahillərə mən.
Yetər cəfəngiyyat yazıb özündən,
Bağırdı, çığırdı: " Vay Vətən! Vətən!.."

...Girsin gözünüzə səxt "Xəritə"niz:
Hayasa hardadır, Hayastan harda?..
Yetər səxt "tarixlər" uydurdunuz siz,
Ərmən türklərinin torpaqlarında.

Yetər dəm vurdunuz "Hind-
Avropa"dan :
Bütün kök-şəkilçi "dil"iniz Bizdən!
Az uydur "ən qədim kültür", ay nadan,
Utan "adımızdan", "musiqimizdən":

Ey MUĞAM kökümdən cücərmiş
"Yanlar",
Əl çəkin Türkümün kaman, tarından!
"Kəçəryan", "Balayan",
"Atambekyanlar..."
Çıxın soy adımın formatlarından.

Səfeh göftgulərə gülür bu aləm,
Türkün ayağı var həyatınızda.
Nənəniz kim olub, deyə bilmərəm,
"Dədəniz" yaşayır Soy adınızda!

Hun Mamikonyanı, nestori Türkü,
Oğuzla vuruşmuş Qıpçaq Məliki...
Alban Bakurları az özünkü say.
Yüz dərya yalanı tutmaz kiçik çay...

"Matendaran" adlı mətndarını:
O saxta, o süxtə gop anbarını...
Az sırı Ermitaj "baranlarına":
"Arınberd" konyakdan "vuranlarına"!..

Nestori Monqolla müsəlman Qıpçaq
Vuruşdu Sidonda, demə, bilmirsən?!
"Sasunlu Davud"u cızmalayaraq,
Nədən mənimsədin Tariximi sən?..

Davudun anası Məmlükə getdi,
O da anasına müharibə etdi...
Necə də iyrəncdir, necə bayağı:
Metisin Dastanı hardandır, axı?!.

Ey mələz Hayklar! Ey bir ovuclar!
300 Milyonluq bu Türkə nedərsiz?
Sizi çaşdırmasın Xaça març-murçlar:
BİR türk zərbəsinə ancaq yetərsiz!..

Kimlərəsə Forpost lazımdır burda,
Noxta keçrirblər sarsaq boynuna:
ASSALA... deyilən alçaq terrorla
Salıblar Tarixin murdar Oynuna.

Türk dilində yazdı Sayat Novanız,
Mədətov Pərimə qoşmalar dedi.
Mirzə Məlkum kimi qoca "xanınız"
Xaçı atıb, özünü Müsəlman etdi...

(Gəl, əziz oxucum, üzrün ilə mən
Xoş söz deyim Hayın bir neçəsindən:
Avetik İshakyan, Şirvanzadənin,
Qrant Metovasyanın türk sevgisindən!)

Qarabörklülərə, Qarabağlara
"Arsak" adı verdi "erməni": olsun!
Nə dersiz Altaydan enən Saklara--
Bizim Su-oklara?! Qurtara gopun!

O parf Qara Qorun dini inancın
"Qirqoryan" dini tək mənimsədiniz.
Mələzin, metisin, ac-yalavacın
Tarixdə yeganə sifətisiniz.

Parflar Türkün Orta Asiyasından
Yunanlar üstünə baş qaldırdılar.
Şərqi ellinlərdən qurtardı TURAN:
Bu bütün Tarixi kitablarda var!!

Bir türk savaşlarda bir əsgər olur,
Döyüşdən çıxanda sevdalı İnsan.
Savaşda qılıncla savaşçı vurur,
Qırmaz qoca, qadın, uşaq heç zaman!!

…Bəlkə də, xalqların günahı yoxdur,
Bəla başçı olan başsızlardadır.
Hər xalqın içində yaxşısı çoxdur:
Yalan xor quranda, bu "Səslər" batır...

Xocalı göstərdi Haykın sifətin,
Dünya bu "məzlumun " gördü üzünü.
Vəhşət göz önündə: "mədəniyyətin"
Avropası yumdu hər iki gözün?!.

İkili standart!.. Nə sayaq bunu?
Cənab diplomatlar, utanın barı!
Genosid qurbanı Türk olduğunu
Bilib, duymadınız iztirabları...

Haqqın, Həqiqətin milləti olmur,
Haqqın, Həqiqətin Allahı olur.
Boğulmaz zülmətdə əbədilik Nur,
Bütün gecələrin Sabahı olur!!

Kimlərəsə Forpost lazımdır Qafda,
Noxta keçrirblər Haykın boynuna:
ASSALA... deyilən Terroriyada
Salıblar Tarixin murdar Oynuna.

Turanın Rəşadət salnaməsində
Adını qan ilə yazdı Şəhidlər!
Vətənin Azadlıq müharibəsində
Xalqımı yaşatdı bu qeyrət, hünər!

Ömürlər yaşayır neçə könüldə,
Şəhidlər əbədi canlı həyatdır.
Ailədə, yurdda, dostluqda, eldə
Rəşadət ən halal mənəviyyatdır.

Qarabağa sarı düzübdür səfin
Qəhrəman Ağsumuz mərd oğulların!..
Bütün obaların, evin, məktəbin
Döyüşə açıbdır mərdlik yolların!

İsmayıl müəllim gənclərə deyir:
Halaldır Ağsumun çörəyi sizə.
Əsl imtahandır bu şanlı dövr:
İstiqlal bağlıdır iradənizə...

4

Qurub yaratmaqdan yorulmur ürək,
Xaliqə səcdədən doymur xəlayiq.
“Elmi ateist”dən üz çevirəndək
Millətə Mədrəsə, Məscidlər layiq!..

Ötən 1912-ci il.
Bakıda bir Şirvan Ziyaratgahın
Xeyriyyə puluyla Nabat nənəmin*
Xalqımız elədi evi Allahın.




İlk təməl daşını yeni Məscidin
Hacı Zeynalabdin Tağıyev qoydu.
Hacı Abbasqulu: oğlu nənənin
14-də** bu işi xitama vurdu!..

--------------------

*PS: Təzəpir məscidi 1912-1914-cü illərdə Şirvan Neft milyonçuları ailəsindən 114 yaşlı Nabat xanım Aşurbəyli və oğlu Hacı Abbasqulu bəyin maliyyə vəsaiti ilə memar Zivər bəy tərəfindən inşa edilmişdir. Ana-bala hər ikisinin məzarı Məscidin giriş qapısı ağzındadır.

**PS: 1914-cü ildə bu Məscid-Ziyarətgahın inşası tamamlanmışdır.—Səhifədə müəllifin Nabat xanım haqqında "Ana ürəyi" (Bakı-2013) kitabının üz şəklini görürsünüz.

Həzrəti-Rəsulum (ə.s.) buyurub belə:
Tanrı Gözəlliyin özüdür, bilin!
Kamal təşəbbüsü alsin ki ələ
Qəlbi məbuduna qovuşsun elin:

***

Ey bəşər! Könlünü daim açıq tut,
Gözəl rəhmi var gözəl Allahın.
Şeytanın, iblisin adını unut,
Gözəl ismi var gözəl Allahın.

Tanrı məhəbbətdir, iman bir barış.
Tale bir oyundur, həyat bir yarış.
Nə işə əl atsan "Allah!" de, çalış,
Gözəl əzmi var gözəl Allahın.

Qəlblərin şahı ol, Allahın qulu.
Səadət yoludur Quranın yolu.
124 min nəfər rəsulu--
Gözəl məsumu var çözəl Allahın.

Həyatda diriykən qazma qəbrini.
Qeybdə yazan var şərin cəbrini.
Qoru ümidini, üzmə səbrini.
Gözəl dözümü var gözəl Allahın.

Xızrı, İlyasıdır bir an yatmayan.
Nuhun gəmisidir heç vaxt batmayan.
İblisin, şeytanın əli çatmayan
Gözəl bəzmi var gözəl Allahın.

Arzular ardınca ağıl at çapar.
Könüllər ünvanı Tanrıda tapar.
Ədalət pozulsa, Qiyamət qopar--
Gözəl çözümü var gözəl Allahın.

Ey Ata, könüldə tək Allahlı ol!
Müqəddəs İslamdır tutduğumuz yol!
Gözüm Ona heyran, qəlbim Ona qul:
Gözəl rəsmi var gözəl Allahın!

***

Milli Neft maqnatı Aşurbəylilər
Vətənin mənəvi iftixarıdır.
Bala bəy, Bəşir bəy: soylu nəsillər
Milli xəzinəmin ləl-şəhvarıdır!

Tağıyevin Bakı qız məktəbində
Sonuncu bu iki Aşurbəylilər
Ən kasıb qızların, şagirdlərin də
Təqaüdlərini daim verdilər!..

Tanrıya beyəti bəşərin Haqdır:
Mənası qutsaldır Səcdəgah yerin.
Allah tifaqını dağıdacaqdır
Məscidə biznesi gətirənlərin.

Doğma balasının boynundan açdı,
Allahın Rəsulu "Beytül-Mal"ını.
Elin nəzərində ziynətsiz qoydu
Fatmeyi-Zəhranın gül camalını...

...İsmayıl müəllim bir bahar çağı
Çiynidə bir Məscid planı qurdu.
Qutsal Azan səsi səhər qabağı
İmana səsləsin bu eli, yurdu.

Qoy ruhu şad olsun şəhidlərin də,
Onlar dolaşırlar Şirvan göyündə.
İman yerləşsə də Qəlbdə dərində:
Məscidsiz nə İslam?.. Haqqın gözündə!

Gün o gün olsun ki, Müstəqilliyin
Hər bir guşəsində Məscidlər olsun!
Keçirək onlarda Millət Birliyin:
Qarabağımızda Zəfər doğulsun!



Çiynidə hər səhər, axşam Məsciddə
Azanlar duyurur Haqqın kəlamın!
Bu gözəl əzəli əziz beyətdə
Yüksəlir qüdrəti böyük İslamın!..

...VI əsrdə Xosrov Pərvizin
Şirinə tikdiyi Sarayı vardır.
Ermənilər ona deyir “Eçmədzin”:
Guya ki, bu dünya tam bixəbərdir...

Onun ildönümün keçirdi Haylar.
Dünyanın diqqətin cəlb etmək üçün.

Cənab keşiş Marlar, Tarix- Kitab var:
Açar gopunuzun üstünü bir gün!

301-ci il... Vassal erməni
Guya ki, Romaya qarşı gedərək
Xristianlığı "rəsmi din" kimi
Qəbul eləyibdir ilk kəz?! Nə deyək!

313-dək Romada heç kəs
Belə xam xəyala düşə bilməzdi.
Konstantinəcən Romada Zevs
Neçə həvvarinin başını kəsdi...

Dünyaya Xaçpərəst dini, ay nadan,
Latın əlifbası ilə yayıldı.
Başına dəysin o "Qədim Əlifba"n,
Alban Əlifbam da sənin sayıldı?..

Səni sırıdılar bizə də xeyli,
Qədim Əlifbası olan "xalq" kimi?!.
Bitir nağılları, Hayasa veyli,
Yalançı görmədik heç Hayk kimi.

Tarix yazılmayıb komplekslərlə,
Tarixin nə işi axı nökərlə?..

Yunanla açıldı Yer üzündə Dan:
Oradan göründü daima Turan (Turoya)!

Haykın yalanları keçərsiz bu gün
Kiber təhlilərlə düşünür İNSAN.
Zəka faciəyə qərq olar bütün,
Elm məzhəkəyə çevrilən zaman.

YAZI müqəddəsdir! Yazı əzizdir,
“Yaziçnik” dedi Rus öz ilk dininə.
Xaçlı Hayka nisbət deyirəm: şükr
Yaziçnik yunanın müdrikliyinə.

Dünyaya Xaçpərəst dini, ay nadan,
Latın əlifbası ilə yayıldı.
Başına dəysin o “Qədim Əlifba”n,
Alban Əlifbam da sənin sayıldı?..

Bütöv bir fəsili Yazı barədə,
Məcburam yazmağa, qalsın Yadigar.
Turan Əlifbamız olduğu yerdə
Dursun dizi üstə Mesrop Maştoslar.

Qrammatolgiya deyildir qəsdim,
Erməni züyçüyə cavab verməkdir:

Atasız, anasız “etnik” bir yetim
Guya ki, Qafqazda elmdə təkdir?!

Sağ olsun Firudin Ağasıoğlunu*,
Təhlilin aparıb Mesropun əzəl.
Turandan Maştosun oğurluğunu
Öz “Azər xalqı”nda açıbdır gözəl.

Nə şəkli, nə fikri, nə heca, nə səs
Yazısı qurmağa Haykın ağlı yox.
İmperiya onunçün melenxol həvəs:
Odur ki, uydurur “Yazı nağlı” çox...

Eramızdan əvvəl 3100-dən
Şumer yazıları Tarixdə durur.
Misirdə, Elamda, Hinddə, Kritdə,
Hetdəsə Hayklar “Hayastan” qurur?..

3000 il irəli Finikiyada
Səs yazısını yaratdı Başlar.
Təəssüf etməyə bilərik, onda:
Mövcud deyildilər Hay-qaravaşlar.

*PS: Azərbaycanın yeni müstəqillik çağının ilk islahatçı Təhsil naziri. Ötən 70-ci illərdə Müəllifin BDU-da müəllimi olmuşdur. Morfonologiya mütəxəssisidir. Hazırda qədim türk, Türk-şumer və etrusk-Turan yazılarının tədqiqi ilə məşğuldur.

Eradan 1300 il bundan qabaq,
Qədim Çin yaratdı Heroqliflərin.
Haykın "Əlifbasın", "Yazı"sın ancaq
Aradım orada, tapmadım yerin...

Ərəb Əlifbası: dilruba şəkil,
Könül, göz oxşayan əsl tablodur.
Kufidən Nəsxəcən Qəlbin elə bil
Tanrıya açılan duası odur!

Nə qədər sonsuzdur xətt çeşidləri,
Odur ki, dünyada əvəzi yoxdur.
Reyhani, mühəqqəq, nəstəliq, tuği...
Divanı, şəcəri, hilali... Çoxdur!

"Əl-xəttü nisf ül-Elm" dedi Pəsulum (ə.s.):
"Gözəl xətt Elmin yarısıdır, bil!"
Keçmişə top-güllə atmasın heç kim,
Əlifba cəhalət səbəbi deyil...

Xaqani, Nizami, Füzuli, Xətib...
Ərəb hürufunda çatıbdır bizə.
Mesropun küyünə, cüyünə gedib
Gəlin daş atmayaq keçmişimizə...

Xarəzmi, əl-Kindi, Sina, Xəldunlar...
Hansı Əlifbada yaratdı, deyin?
Ərəb hurufunda bu gözəllik var:
Həm şəkil, həm söz tək qavrayır beyin!

...İsmayıl müəllim bir bahar çağı
Çiynidə bir Məscid planı qurdu.
Qutsal Azan səsi səhər qabağı
İmana səsləsin bu gözəl yurdu.



Qoy ruhu şad olsun şəhidlərin də,
Onlar dolaşırlar Şirvan göyündə.
İman yerləşsə də Qəlbdə dərində:
Məscidsiz nə İslam?.. Haqqın gözündə!

Çiynidə hər səhər, axşam Məsciddə
Azanlar duyurur Haqqın kəlamın!
Bu gözəl əzəli əziz beyətdə
Yüksəlir qüdrəti böyük İslamın!..

5

YAZI

*"Taliba, əvvəl qədəm üç-dörd gərək,*
*Dördü dörddür, dördünə üç dörd gərək.*
*Əqrə əl Quran əla hərfi ki var,*
*Yar üzündə səksən dörd gərək!"*

(İmadəddin Nəsimi. Seçilmiş əsərləri,
Azərnəşr, Bakı-1973, səh.: 596.)




Qələmə aldığım kiçik Dastanda
Möhtərəm Yazıdır, bu Baş qəhrəman!

Yazı müqəddəsdir Azərbaycanda,
"Oxu"ya* beyətin edibdir hər an.

Yazıya çevrilib Haqqın Sözləri,
Yazı xəlq eləyib Səmanı, Yeri.
İdrakın İlahi gözüdür Yazı.
Böri Meteyimin** közüdür Yazı!..

Yazı yaranandan Müəllim də var,
Ərzin Prometeyi onlardır, onlar.
Bir hərfi işarə cana nəfəsdir:
Minlərlə zülməti yarmağa bəsdir.

"Elmdən oldu həzrəti-Loğman
Hikmət ilə səramədi-dövran.
Elm bir nur, cəhl zülmətdir,
Cəhl düzəxdir, elm cənnətdir."
(Seyid Əzim Şirvani. "Müəllimə hörmət"
şeirindən)

"Avropa qürubu",--yazır Şpenqler:
"Bomboşca bir sözdür tüm Bəşəriyyət!"

-----------------

*PS: Qurani-şərif ərəbcə "oxu", "qiraət" deməkdir.
**PS: Əfsanəvi Prometey nəzərdə tutulur.

Elədirsə nədir Elm və Hünər?!.
“Yazıya pozu yox,”--budur Həqiqət!

Əvvəl  Söz  yarandı!- Haqqın sözüdür,
Sözün güzgüsüdür yazılan Yazı.
Hərf İnsanlığın sufi üzüdür:
Könül mövlasıdır İnsan avazı.




Surəti ruhun çəkili sandı
Çəkildi bununçün dara Nəsimi.
Göstərdi rəssama Hüruf insandı!
(Bəyənmirəm Kirill, Latın hərfimi...)

Məhv oldu nəqşlər, xəttatlıq bütün,
Min illik bir sənət tərk etdi bizi.
Latın hərfləri cəzb etmir bu gün,
Hürufi sevdalı ürəyimizi...

Əvvəl şəkillərlə "danışdı" İnsan,
Piktoqramlarla "yazdı" fikrini.
Bəşər düşündükcə hey zaman-zaman
Rəsm İdeoqrama verdi yerini.



( Latın da, ərəb də Finikiyanın
Qədim Yazısından əxz olunubdur.
Ərəb hürufatı Şərqin, İslamın,
İnamın min illik eşq alovudur...)

Söz fikri obrazdan Lüğətə döndü,
Dilin Sintaktika gücü göründü.
Sonra Dan yerində Babil* parladı,
Tarixə yazıldı Türk-Şumer adı!!

Mixi yazıları yaşatdı Turan (Dağ)**,
Ona şagird oldu diz qoyub A/İran
(düzəngah)...
Babil böyük, uca "Haqqın dərgahı":
Bütün yaranışın fikir Allahı!..

---------------------

*PS: Miladdan 3000 il əvvəl şəhərlər salınmağa başladı. Bibl (Babil) şəhərini finikiyalilar Qebal(a), yəni dağlıq adlandırırdılar. Qədim Şumerlər isə bu şəhərə Babil (bab+İl), yəni "Allahın qapısı" deyirdilər.İsgəndər imperiya qurub Babili (Vavılyoniya) bütün dünyanın paytaxtı etdi.

**PS: Finikiyalılar Livan dağlarındakı şəhərlərdən birini Tir adlandırırdılar. "Tir" fənəklərin dilincə qaya demək idi.

Hər gil kitabəsi Xammurapinin*
İnsan varlığının bir vərəqidir.
Aşşurbanapalda** onun hər birin
Assur qoruyarkən bilirdi nədir...

I Daranın Bisütundakı***
İstila yazısı haqda nə deyək:
Danışır bu qədim Qaya da sanki
İranı Turana çevirmək gərək!




------------------

*PS: Qədim Babilistanın ən qüdrətli hökmdarı olub. I Babil sülaləsinin VI hökmdarı (b.e. əv. 1792-1750). **PS: Qədim Şumer və Akkad əlyazmaları saxlanan ilk dünya kitabxanası. Miladdan əvvəl IX-VII minilliklər.

“Kemet”--Qara ölkə, Nilin palçığı
Misirin heroqlif hekayətidir.
3500 illik “uşaqlıq çağı”
Müdrik bir dövranın həqiqətidir.

O, oğru, vicdansız Birinci Ramzes
Böyük  ehramlardan sildi adları.
Öz  adından başqa qalmasın əziz,
Geriyə Tarixin yadigarları...

Ramzeslər həmişə olub cahanda,
Doğruya güc gəlib bəzən Yalanlar.
Azəri Yurduma qarşı hər yanda,
Görür bu işlərdən Dığalar, Yanlar...

MİsirIə, Babillə həməsr vaxtda
Ucaldı Harappa Hind ruhu kimi.
Qədim Hindistanın Tarixi haqda
Dravid-tamillər yazdı hökmünü...

------------

***PS:Bisütün qayası Kermanşahdan Bağdada gedən yolun kənarında yerləşir. Miladdan əvvəl 522-ci ildə Şahənşah I Daranın əmri ilə burada onun nailiyyətləri mixi yazıda həkk olunmuşdur

Uydurmanı kəsin, Avropalılar,
"Ari" nağılları uydurduz, yetər.
Tarixin içində "tarix"imiz var:
Bizimlə açıbdır sabahın bəşər!..

Moxenco-Daro, həm Harappa bilin,
"Arilər" odunda kül olub, gedib.
Sonuna çıxmısız çox yurdun, elin:
Yerində "aricə" Yalanlar bitib...

Dünyanın tarixi dünya tək bütöv
Doğmadır, əzizdir bəşəriyyətə.
Ağıldır, məntiqdir Qılınca bülöv,
Oyun yox, Elmdir yol Həqiqətə.

Fikirdən Hecaya, Hecadan Səsə,
Ağıl Yazısının tarixi budur.
Bütün bəşəriyyət borcludur Şərqə:
Məktəb də, elm də Şərqin yoludur...

Bir qara tablodur Yazı taxtası,
Bir də ağ təbaşir Məktəbin gücü...
Bütün ömrümüzün bəyaz mənası
Bir qara tabloya cəmləyir bizi!..

Müəllim tanıdır Haqqın sevgisin
Bütün insanlığa gündə yüz kərə.
Salavat çevirib, "Amin"lər desin
Gərək bəşəriyyət Dərs olan yerə!

Babil, Qədim Misir, Hindistanla Çin:
İlk Müəllimləridir bəşərin bunlar.
Odur ki, deyirəm bütün Qərb üçün:
Tərbiyəsizlikdir Şərqdə Oyunlar...

Turan dağ deməkdir, A/İran çöl, "ara!.."
Az salın irqçilik söhbətin bura.
Dara kitabəsi üstə "arika"
"Azğın" söyləməkdir, "ari irq" hara?..

Norman Şarp, cənab Kont, Oyunlar
bitib.
Con Melkomun "İran tarixi" nədir?..
"Ari" "ari Hind"ə bildik nə edib:
Savaş Əfqanıstan, İraqda gedir...

Yazıdan danışmaq istəyirəm mən,
Yazıdır bəşərin ağlı, kamalı.
Yalandır yetişən Şeytan, İblisdən,
Doğrunun haqqıdır Haqqın amalı.

Kiber linqvistlər danışın, görək,
Dillərin inkişaf tarixin bizə...
Baxaq bundan belə biz Türklər gərək
Köklü nəzərlərlə Kök dilimizə!!

Şərqin nəyi vardı daşıyıbdı Qərb
Hələ İsgəndərdən, Pompeydən bəri.
Bizə də söyləyin lütf göstərib,
Hardandır Latında Türkün sözləri?!

Romanın əsasın qoyan Sakların,
Ulu Kimmerlərin, et-Turskların,
Bəlkə, kimliyini bilmirsiniz siz?
O latlar, elatlar... elə bizik, Biz!

“Uru” bir “hörgü”dür, “Uruk ” baş
şəhər,
“Eştu”—eşitməkdir, “tirik” də diri...
Bizimdir, bizimdir, bizimdir ŞUMER:
Hayandan oxusaz bizim “sözləri”!

Heroqlif, Heratik, Demotik yazı
Mənbəyin Şumerdən götürür, bilin!
Livan-Finikiya səs Əlifbası
Zəka məhsuludur qədim Türklərin!

Krit əlifbası (Egey Dənizi):
Yeni Turanımın geoəsası!
Heroqlif ilə "B" xətti yazısı
Turan hürufudur, Türk əlifbası!..

"J", "V", "X" hərfi yoxdur Turanın
İlk Orxon-Yenisey yazılarında.
Onlar mövcud deyil Krit-Mikenanın
Heca-ideoqram yadigarında!

Xətti "B" sistemli sillabarisi
Niyə oxunmayır Mikenalının?
Əgər Yunandırsa onun varisi
Niyə açmır "sirrin" pürkamalının?..

400-dən yuxarı Yazı növü var,
200 ildir ki, tədqiq edilir...
Çoxunu oxuya bilmir İnsanlar,
Səbəbun "arilər" çox yaxşı bilir...

Dörd min il Miladdan irəli Livan--
Finikiya kecdi ilk Əlifbaya.
Ondan mənimsədi Aramey, Yunan...
Yaydılar bunları bütün dünyaya.

Ərəb Əlifbası qədim Aramey
Əlifbası üstə yaradılıbdır:
1000 ildən yuxarı Türklər də həmrəy
Oldular Ərəblə. Tatix qalıbdır!!

Kökü eyni yerdən gəlir Hürufun,
Ərəb də, Kirill də, Latın da eyni
Fənək yazısıdır! Nə fərqi bunun:
İldə bir Əlifba dəyişək yəni?!.

...Tutdu Yer üzünü Böyük İsgəndər,
Babili eylədi özünə paytaxt!
Neçə Assuriya uydura bəşər:
Şumerdir tarixə Ata gələn Xalq!

Dünya tufanından sonra Şumerdə
İlk paytaxt şəhəri müqəddəs Kişdir:
Bu Ad Şəkimizdə Aydın* bir yerdə
Bizimlə bu günə birgə gəlmişdir.

Açın Krameri**, O.Suleymenevi:***
Şumeri, Etruski öyrənin dərin.
Düzəlin, düzəldin antitürk səhvi,
İlk Sözü Türkcədir uca göylərin!!

---------------

*PS:Ölməz türkoloq alimimiz Aydın Məmmədovun doğulduğu kəndin adıdır.

**PS: S.Kramer. (ABŞ alimi). “Tarix Şumerdən başlayır”. Moskva-1991.

753. Miladdan əvvəl:
Etrusk!.. Romanın əsasın qoydu.
Qərb də Qaf dağımdan yandırdı məşəl:
Börü Metey odu bax elə budur!..

Daş piltə, sarkofaq, qab, vaza, güzgü...
2000 Yazıda görün Turanı!..
Yaşadır bu qızıl hər mətn, bilgi:
Ulu Etruyanı, türk Troyanı!!.

Urum*, Urumiya**, Urumçi***,
Uruk****...
Mənim Turanımın sədalarıdır.
Tarixin əsasın bizlər qoymuşuq:
Düşmənin gözünü çıxardan budur!

VIII əsr, Miladdan qabaq
Marsilianadan bir yazı qalır.
Göy Türk yazımızın eynidir ancaq!
Bir Fil sümüyünün üstən nur calır.

-----------------

***PS: Oljas Süleymenev. Qazax şairi. “Az i Ya” əsərinin müəllifi.

*PS: Urum/Roma. **PS: Urmiya gölü. Güney Azərbaycanda müqəddəs göl. ***PS: Urumçi. Uyğur türk Muxtariyyətinin paytaxtı. ****PS:Uruk. Şumer dövlətinin ilk paytaxtı.



Fera adasının qayalarında
“Ellada arxivi” lal durub hələ:
X-VIII əsr əvvəl eradan:
Yunanca “danışmır” bəs nədən belə?..

Fənəklər kimlərdir. Tarix lal durur,
2000 etrusk yazıları tək.
Heyrət də doğuran cəhəti budur:
Kiber linqvistika eləmir kömək?..

Orxon-Yeniseyə necə oxşayır:
Diqqətlə baxınız bu yazılara.
Desin kim özünü bir alim sayır:
Yunan hərfi hara, bu Yazı hara?!

Dünyanın Türk “Üzüm arxepalaqı”:
Qədim Latınlar tək təklənib Türklər.
BMT-də yoxdur türkcəmin haqqı,
Budur Demokratiya, Ədalət məgər?!.

Bilik İlahinin odudur! Sanma
Biriylə başladı, biriylə bitdi.
Bəşər yaranandan bəri daima
Məktəb sona çatmaz bir ESTAFETdir!!

6

...Birinci minilin ortalarında
552-ci ildə Tümen xan
Böyük Xaqanlığı ilk yaradanda
Parladı tarixdə yeni bir Turan!

O ox, üzəngili, o At cizgili
Yadigar Əlifbam, Runi yazılar...
O daş kitabələr üstdə Türk dili
Min tufan, sel qopa, məgər pozular?..

O mənim kamalım, ərən keçmişim,
O mənim sabaha bir Kimliyimdir.
O mənim ağalıq sürən keçmişim,
O mənim özümə hakimliyimdir.

Tarix üzərimdən sükutla keçdi,
O danimark əsir V.Tomsenə qədər.
Tale əsarətdə Azadlıq seçdi:
Dünyalar tanısın kimlərdir Türklər!

Sənaye əsrinin ideoloqları:
Saxta tarixçilər, saxta dilçilər...
Danışın, Pyotr "türkoloqları":
Elmdə, fikirdə tüm bidətçilər...

Orxon abidəsi: Ongin (700), Tonyukuk
(716),
Gültəgin (732), Bilgə xan (735), Moyun
çur (745)-Bizik!
Yenisey şedevri... 140 əsər,
Qızıl yalanların üstdəki Zəfər!!.

Yazısız, kitabsız Xalq dedin mənə,
Böyük Hun keçmişim gözə dəymədi.
Semyon Remezov, Pyotr, sənə
Runu 1690-da dedi...

Üç əsr sahibi çıxmadı Sözün...
Türkologiya yumdu Türklərə gözün...
15 Dekabr (1893). Milli Dil Günüm!
Tanrıya yetişdi yenidən ünüm!..

Vilhelm Tomsenə borcluyuq bu gün,
Bizə "Tarix"də yol açdığı üçün!
*"Tenri tek tenride bolmuş Türk Bilgə
Kağan..."* bir dünyadır! Turan bir ölkə!!

Şərqi Türküstanda: Turfan, Duxanda...
Hər daş kitabə min illik uyğumdur.
Orxon-Yeniseyim o Gündoğanda
Tanrı məhəbbətim, könül duyğumdur.

Bilik İlahinin odudur! Sanma
Biriylə başladı, biriylə bitdi.
Bəşər yaranandan bəri daima
Məktəb sonu olmaz bir ESTAFETdir!!

Turan Əlifbası "alban", "erməni",
"Gürcü" əlfbası sayıldı, əcəb?!.
Tarixi o yerə çəkdilər, yəni:
Türkə hər dövlətsiz "xalq" oldu
"Məktəb"?..

Nuhun sədasından qopan bir Bitik*
Qədim Naxçıvanda ilk Yazılardır.
Kiçik Asiyada deyib ATATÜRK:
"TürkünYeddi min il Tarixi vardır!"

----------------
* PS: Naxçıvan Muxtar Respublikasında qədim
Yazı abidəsi Gəmiqaya nəzərdə tutulur.

*Gəmiqaya* üstə o işarələr,
Bəşər zəkasının ilk əsəridir.
O zərif cizgilər, xətt, dairələr
İnsanın Tarixə pak nəzəridir!

Bir qara tablodur Yazı taxtası,
Bir də ağ təbaşir Məktəbin gücü...
Bütün ömrümüzün bəyaz mənası
Bu qara tabloya cəmləyir bizi!..

7

Canlı mənəviyyat olsun bu Dəftər:
Davam elətdirin bu "ESTAFET"i.
Mənəvi yollarla, ey gənc nəsillər,
İrəli aparın bəşəriyyəti!..

Hörmətlə baxınız bu "Gündəliy"ə,
Yazılan hər sətir "Tarix"dir deyə!

Dostlar, qəbahətdir, həm də bir günah:
Şıxəli Qurbanov ismin unutmaq.
Milli adətlərə rəsmən qayıtmaq
Onunla bağlıdır, onunla ancaq!

------------------------

* PS: Tanrı elçilərindən Nuh ə.s.-ın adı ilə bağlı müqəddəs məkan.

Böyük Repressiya məhşərin görüb,
Oradan təsadüf sağ çıxanların
Həqiqi tarixi qiymətin verib,
Gəlin qaytarağın əsl haqların...

NOVRUZ!  O müqəddəs, əziz bayramın
Yolunu Şıxəlim bizlə gözləyir.
Vətən pərvanəsi yandırıb şamın,
Simurq qanadı tək bizi səsləyir.

Fələk çox sınadı Xalqımı, əbəs,
Məhv edə eşqini, arzularını:
NOVRUZ coşqusuyla keçirdik ilk kəz
67-ci ilin ilk baharını.





l

Əzizdir Vətənə onun  "KİTAB"ı,
Bizi unutmayan "Sənsiz"i qədər.
Ayrılıq kədəri, eşq iztirabı
Gedərmi könüldən bircə an, məgər?!

Bütün Tarix boyu ürəkdən bizi
O dahi insanın Kitab sevgisi
"KİTAB" qəzəliylə kitaba çəkir!
Səcdəyə, imana, mehraba çəkir:

***

“Mən öylə bir aləməm ki, hər dəqiqəm bir
kitab,
Əfsuslar ki, yadda qalmaz oxunulan hər kitab.

Göz baxdıqca sözüm vardır bu aləmdə
yazmağa,
Qoca dünya rəfə bənzər, səma kitab, yer
kitab.

İnsanlığın əlifbası yazılmamış qələmlə,
Bax ətrafa: cocuq kitab, qadın kitab, ər
kitab…

Hər sənətin qiyməti var sənətkarlar əlində,
Nə eybi var, bənna olsun, daş-kəsəkdən hör
kitab.

Sənət, kitab zinətidir bu dünyanın əzəldən,
Sənə nadan zəhər versə, əvəzinə ver kitab!

Mənası var qəlb evində nəqş edilmiş hər
sözün,
Neçə Adəm övladını İnsan etmiş gör kitab!”
(Şıxəli Qurbanov)

Ədəbi dil olan Şirvan ləhcəsin
Arıtdı Səməndər* büllur səsilə.
Qatdı "Araz"lara "Bulağ"ın səsin
Əlvənd Dağlarının gül nəfəsilə.



Ruhunu sevdalı qəlblərə verdi
Ata** qəzəlilə Çuxuryurd, Məlhəm!!
"Əruz sənəti"ni Elmə çevirdi,
Məhbəslər, sürgünlər yaşayan Əkrəm.***

--------------------

*PS: Ağsu torpağının yetirməsi, görkəli aktyorumuz, "Bulaq" verilişinin əvəzsiz ifaçısı Səməndər Rzayev nəzərdə tutlur.

**PS: Müəllifin qəzəllərindəki əsas təxəllüsü.

***PS: Əkrəm Cəfər. Azərbaycan əruzşünaslığının banisidir. Dahi şairimiz Hüseyn Cavidin BDU-da ilk tələbələrindən biri olmuşdur. Gənclik dövrü Stalinin məhbəslərində və sürgünlərində keçmişdir. 1977-ci ildə "Əruzun nəzəri əsasları və Azərbaycan əruzu" fundamental elmi əsərini "Elm" nəşriyyatında 1000 nüsxə ilə nəşr (ardı sonrakı səhifədə.-Red.)



l

(Əkrəm müəllimə nəzirə):
"Ya Rəb! Səfayi-eşq ilə qıl aşina Bizi,
Bir dəm səfayi-eşqidən etmə cüda Bizi."*

Məcnun kimi səhraları gəzdik fəraq ilə:
Tərk etmədi bir ləhzə möhnəti-cəfa Bizi.

PS: ...etdirmiş, həmin Kitabın ilk nüsxəsini öz tələbəsinə (N.Atabəyliyə) şəxsən hədiyyə etmişdir. Həmin il BDU-da müəllifə əruzşunaslıqdan dərs vermişdir.

*PS: Əkrəm Cəfər. Füzuliyə nəzirə: "Təhzil". "Yandım avazeyi- eşqinlə sənin..." kitabı. Çaşıoğlu. Bakı-2010, səh.: 163.

Züleyxamıza Yusifi-eşqilə vurulduq,
Öz zindanına mötad elərmi rəva Bizi?..

Ol bivəfa yar üçün Ədularla vuruşduq,
Vüsali-yar eşqilə buldu min cəfa Bizi.

Kəröminik, Əsli-can, elə bizə inayət
Ki, duzəxi-narınla yaxa hər bəla Bizi.

Dövri-dunun əzabi-əziyyəti içində
Qorumasın xətayi-bəladan Xuda Bizi.

Vətənimiz eşqinə fəda elədik ömrü,
Xatırlayar daima bu ellər, Ata, Bizi!

***

Bir adi söz deyil: işıqdır, nurdur.
Allahım "OL" deyən sözdür Müəllim.
Tanrı Dağımızdır, Sinadır, Turdur,
Dirilik ecazlı nəfəsdir Müəllim.

Sənə Kəbə kimi baxdıq hər zaman.
Adam cismimizdən İNSAN yoğurdun.
Anadan bir kərə doğulmuş ikən,
Sən bizi yenidən bir də doğurdun.

Müəllim! Güclüdür sənin cazibən
Dünyanın cazibə qanunlarından.
Kamalın bağçadır, ürəyin bağban--
Bir kimsə doymadı Bilik barından.

Sən açıb dünyanı bir KİTAB kimi
Açılmaz sirləri öyrətdin bizə.
Allaha yönəlmiş bir xitab kimi
Günəşi tanıtdın gözlərimizə.

Tarix oxuyanda ilk anda yada
İsğəndər deyəndə, Ərəstun düşdü.
Müəllimdən uca kimdir dünyada?!
Allah Müəllim tək bizlə görüşdü...



Tanrı ali vicdan, elm, ədəbdir.
Bir “Oxu” kitabı deyilmi Quran!?.

Həyat başdan-başa dərsdir, məktəbdir.
Tanrı kitabıdır-- İnsanlıq, Cahan…

Bir adi Söz deyil--İşıqdır, Nurdur.
Allahım "Ol!" deyən Sözdür Müəllim.
Tanrı Dağımızdır, Sinadır, Turdur.
Dirilik gətirən nəfəsdir Müəllim.

Müəllim!--Simurq tək yetişib dada,
Dağları oynadar düzün gücüylə.
Ən Böyük Müəllim Allahdır! O da
Dünyanı yaratdı Sözün gücüylə!

# V HİSSƏ

# ƏBƏDİYYƏT MƏKTƏBİ



1

Ömür ötəridir, arzu əbədi:
İnsan köç etsə də, arzular qalır.
Həyat nəsil-nəsil yoldur, körpüdür:
Babadan sonrasın nəvələr salır...

Mənəvi gücdədir ən böyük qüdrət,
Əsrlər bu güclə bir-birin ötür.
Bəşər yaranandan budur həqiqət:
Tarix mənəvinin ardınca gedir...

Bu gücdür yaşadan Sokratı, Seyidi...
Yan Komenskini , mən--İsmayılı.
Dəyişin, dünyanı dəyişdirin ki,
İnsan əlindədir sabahın halı!..

Canlı mənəviyyat olsun bu Dəftər:
Davam elətdirin bu “ESTAFET”i.
Mənəvi yollarla, ey gənc nəsillər,
İrəli aparın bəşəriyyəti!..

Hörmətlə baxınız bu “Gündəliy”ə,
Yazılan hər sətir ”Tarix”dir deyə!

***

Günəş tək cahanda sönmək bilməyən
Şərəfdir, şöhrətdir, şandır Müəllim!
Bəşər yaranandan heç vaxt ölməyən
Əbədi ömürdür, candır Müəllim!

Ən uca dağların şah zirvəsidir,
Bütün insanlığın Vicdan səsidir.
Ürək döyüntüsü, can nəfəsidir,
Damardır, nəbzdir, qandır Müəllim!

Başdır: bilənlərin bilən yerində,
Eşqdir: vüsalın gələn yerində.
Günəşin səhərə gülən yerində
Qızaran üfüqdür, Dandır Müəllim!

Bir Misri Qılıncdır, paslanmaz qında.
Dastanlar qoşular daim haqqında.
Qoç Koroğluların könül taxtında
Xanlar əleyhinə xandır Müəllim!

Odur yer üzündə ən canlı Məbəd:
Səcdəsində durub tüm bəşəriyyət.
Bir ömrün içində min əbədiyyət,
Əbədiyyət içrə andır Müəllim!..

***

2

Bəli, acı olur hər bir həqiqət,
Sokrat tək yaşayıb, ölmək çətindir.
Yalanlar bugünçün varsa da, əlbət,
Tarix tarix boyu Həqiqətindir!

Pul-para əxlaqı üstələyəndə,
Kiçik bir hekayət yazmışam mən də.
Didaktik alovdur Söz Sənətim də:
Məşəl çatdıranam "Estafet"imdə...

--Ötən 90-cı illər zamanı
Kapital kabusu sardı hər yanı.
Milyoner olmağa hər kəs həvəsdə,
Puldan danışırdı şagird də dərsdə.

Hər şeyin təkcə Pul ölçüsü vardı,
Hər şeydən yuxarı Pul sayılardı...
Var idi Məktəbdə iki yaxın Dost,
Könül aynasına düşməzdi bir toz.

İki yaxın dostun bu iki oğlu,
Tutdu atalardan fərqli bir yolu.
--Atalarımız çox fərsiz olublar,
Yığa bilməyiblər heç vaxt dövlət-var.

Daha oxumağın daşın atıb biz,
Olaq bundan belə əsl Kapitalist!
"Oxumaq" nə olan şeydir həyatda?
Bizi də batırar bu batabatda...

...Zavodlar sökülür, kolxoz dağılır,
Adamlar mitinqə, bunta yığılır...
Qorbaçov "Yenidən qurma" deyirdi,
Haylar da "Yenidən qırma" deyirdi.

Dolların yenicə gələn çağıydı,
Qoca kapitalın "gəlin" çağıydı...
Dərs, kitab adını yox idi tutan,
Pul, Para deyirdi yerindən duran.

Bitirməmiş son sinfini dostlar:
Təhsildə, kitabda,-dedilər,-nə var?..
"Əla" oxumuşuq, axmaq olmuşuq:
Daha bu dünyada azad bir quşuq!

Beləcə Əmirlə Dəmir o gündən
Məktəbi, kitabı atdı beyindən.
Tazə bir sevdayə ürcah oldular,
Silindi qəlblərdən "ali" arzular...

Vəd üzrə bir səhər qalxıb ayağa,
Səfər eylədilər Keçəlli dağa.
Qərarlı idilər bu gənc yaşında:
Qərara gəlsinlər dağlar başında!!

Əmir:-Nə etməli?-sordu Dəmirdən.
Dəmir dedi:-Sübhü gözləyirəm mən!
Gün batıb, qaranlıq düşəndə dağa,
Xəyallar Dəmiri çəkdi uzağa...

Rokfeller *beş litr qara nöyütlə,
Cahanın birinci varlısı oldu:
Dabaq xəstəsinə qara öyüdlə,
Oğluna milyarder taxtını buldu...

Dünya xəzinəsin tapacağıq biz
Keçəlli dağının boş dərəsində.
Rokfeller biləndə var küplərimiz:
Heyrət götürəcək lap dədəsin də!..

------------------------

*PS: Con Devid Rokfeller (1840-1937: milliyyətcə alman yəhudisidir). Amerikaya bir neçə butulka Bakı neftilə xoşbəxtlik arxasınca gələn qərbli ilk Ata Rokfeller (özünü Xərçəng xəstəliyi üzrə həkim sayırdı) onu dərman adı ilə damcı-damcı Qızıl və qaradərilililərə sataraq varlana bilmiş, oğlu Con üçün şərait yaratmışdır. Con kolleci bitirməyə iki ay qalmış məktəbi ataraq, 1855-ci ilin 26 sentyabrından (--ardı sonrakı səhifədə--Red.)

Parisdən Vətənə döndüyü üçün*,
(Ağsaqqal vətənçin çox darıxmışdı):
Hacı Zeynalabdin xətrinə üç gün
Avropa savaşı dayandırmışdı...

...Bizi də görəndə nə ki insanlar,
Fələk önümüzdən çəkiləcəkdir.
Biləndə nə qədər sərvətimiz var,
Sem dayılar** bizə baş əyəcəkdir...

------------

(16 yaşından) əmək fəaliyyətinə başlamışdır.O həmin günü hər il evdə "İş Günü" bayramı kimi qeyd etmişdir. Sonralar o, Neft tədarükçiləri ilə Dəmiryolçu kompaniyalar arasında ittifaqlar quraraq , ABŞ-ın ən iri maqnatlarından birinə və Birincisinə çevrilmişdir. 1916-cı ildə 77 yaşlı Con D.Rokfeller dünyanın ilk rəsmi milyarderi oldu. Hazırda ABŞ-ın bütün əsas iqtisadi strukturları özəlləşdirilmiş Anonim şirkətlər halında (Banklarla birgə) onun nəslinə məxsusdur.

*PS: Bakı neft milyoneri I Cahan savaşınının başlanğıcını Parisdə səfərdə olarkən qarşıladı. Rusiya çarının devrilməsi və Neft dollarının batırılması məqsədini özündə ehtiva edən bu Müharibə Dünya neft baronlarının ortaq layihəsi idi. Elə onların tələbi ilə də məhtərəm Hacımızın geri dönüşü üçün Hərbi teatr üç gün dondurulmuşdu. Savaş sonunda Rusiya milyoneri tək Hacının da dünya banklarındakı bütün varidatı mənimsənildi.

**PS: Sem dayı keçmiş SSRİ-də ABŞ varlılarına verilən ümumi addır.

Nəhayət, Dan yeri təkrar qızardı,
Dağları Günəşin şöləsi sardı.
“EVRİKA!”-tapmışam dilləndi Dəmir:
-Əmir, qulağını yaxına gətir!

Dağın da, daşın da qulağı vardır:
Bunları bilməyən tək qanmazlardır.
De görüm keçmişdə ağıllı başlar
Dövlətü-varını hara yığmışlar?..

--Dərin quyulara, uca dağlara!
-Eləsə, çıxmışıq indi biz hara?..
Nə inək otarıb, nə bir yer əkib,
Nə də kitabların üstə tər töküb,

Milyonçu olmayıb hələ bir nəfər.
Zəhməti xoşlamır ləlü-simuzər.
Önəmli olan şey odur pulun var,
Halallıq-haramlıq soruşmur banklar.

Ən dərin Quyunun yanındayıq biz
Ki,  burda quylanıb ümidlərimiz...
Qayıt kəndə, bura bir kəndir gətir,
Bir an da gecikmə, Qızıl vaxt gedir.

...Nəhayət, Quyuya endilər onlar:
Gül açdı bir anda bütün arzular...
Yeməyin-içməyin həm bol yeriydi,
İki Cənnət varsa, bura biriydi...

Durmuşdu yanaşı iki darvaza,
Biri bürünmüşdü min bir avaza.
O biri ah-nalə səsilə dolu:
Böyük Cəhənnəmin əsas Baş yolu!..

Elə ki küpələrin ağzın açdılar,
Ləlü-cəvahirlər şəfəq saçdılar.
İki iri torba doldurub onlar,
Dedilər bəs edər bizə bunca var!..

Əmir kəndir ilə əvvəlcə çıxdı,
Ordan da bir sağa, bir sola baxdı...
Dedi:- Dəmir, bağla ver torbaları,
Gərək bircə-bircə çəkəm yuxarı.

Torbalar çəkilib Quyudan çıxdı,
Dəmir də kəndiri əlində sıxdı...
Fəqət taleyinin sonuncu ipi
Töküldü başına gur yağış kimi.

--Əlvida!..Əziz Dost!.. Mən gedər oldum!
Anadan mən bu gün təkrar doğuldum.
İndi nə dostum var, nə də qardaşım.
Nə dərdim, nə də ki axan göz yaşım.

Səbr diləyirəm Allahdan sənə.
Haydı, ey vallah! Yaxşı yol mənə!..
Yanında hər şey var, nəğmə, neyin də...
Ye, orda kef elə özünçün sən də...

Biz adsız doğulduq adla ölməkçin,
Əvvəli-axırı ölümdür bir gün.
Atandan, anandan arxayın ol sən,
Deyiləm dostluqda çörək itirən...

Səhər evinizə gedəcəyəm mən,
Düşüb öldüyünü deyəcəyəm mən.
Coşqun sel apardı, qaya uçurdu...
Günahkar edəcəm şir ilə, qurdu...

Qəlbən Dost yasında ağlayacağam,
40 gün matəmini saxlayacağam...
Kefimə düşəndə gələrəm bura,
Sənlə başlayarıq gövtgulara...

--Anladın səhvimi, Əmirçik, eşit,
Belə alçaqlığı etməz ər igid.
Bərabər deyildir barmağın beşi:
Dünyada az deyil sən tək nakişi.

Səhv mənimkidir: sənə Dost dedim,
Bu gün o "Dost bağ"ın meyvəsin yedim...
Xaindən dost olmaz, alçaqdan kişi,
Əzəldən belədir dünyanın işi.

--Dəmir, səadəti bölməz ki Ağıl,
O dostluq dediyin köhnə bir nağıl...
Mənimçin nağıllar dövrü qurtardı:
Daha Dəmir yoxdu. Tək ƏMİR vardır!!.

...Elə istəyirəm səni ürəkdən,
İnan ki, halına ağlayıram mən...
Mən burda əsirəm, sən orda azad,
Əsl işgəncədir burdakı Həyat.

Bəlkə də, Rokfeller ola bilmədim,
Bəlkə də, həyatda heç vaxt gülmədim...
Fəqət sayacaqlar məni bu Pulla:
Quyruq bulayacaq yüzlərcə tula...

Həyat başdan-başa qanlı Oyundur,
Qəssaba inanan adi Qoyundur.
Əgər sən çıxsaydın əvvəlcə bura,
Layiq biləcəkdin məni də ora...

--Adın Əmir idi, ürəyin kölə,
Ağalıq eşqində təzəsən hələ...
Qoyun loqotipi sənin üçündür,
Qoyun da ağılda səndən üstündür!

Sən boş lovğalığı vüqarın saydın,
İdrakın, düşüncən deyildir aydın...
Cahan dalğalanan dəryadır . Bu var:
Orda akulalar dövrə vururlar.

Əsl dost qədrini itirən biri,
Akula ağzından dönəmməz geri.
Get daha. Sonunu görəcəyəm mən,
İmdad istəmirəm alçaq birindən.

Paxıllıq qurdudur daxilin, için,
Nəyin var üzünə çıxıbdır bu gün.
Əxlaq, vicdan sözü səninçin yaddır,
Varlığın, mənliyin bir həşaratdır.

Fəqət kötük deyil,  ömür, gün yedin:
Bir dost sifətində məni məhv etdin...
Mən sənə inandım dostumsan mənim,
Odur ki, bu dərin Quyudur yerim.

...Beləcə ay ötdü, illər dəyişdi,
Qapqara tellərə bəyaz dən düşdü.
Bir gün dağ başında göylər gurladı,
Quyuya səs saldı "Dəmir"in adı!..

--Dəmir, heyy! Hardasan, dostum,
qardaşım?
Sənsiz nələr çəkdi bəlalı başım...
Quyuda saxladım bir ömür səni,
Bağışla, əziz Dost, bağışla məni!!.

Heç vaxt yarımadım öz taleyimdən,
Təzəcə çıxmışam, Dostum, həbsdən.
Gəldim ki, qocalar görüm nə edib,
Bizi gözləmədən köç edib gedib...

Çox ağır günləri yaşayıb onlar,
Bizim üzümüzdən, Dostum, o ki var.
Mən nəyi saymışdım, fələk nə saydı:
Kaş mənim tək oğul heç olmayaydı...

--Əmirçik, Quyuya "dost" deyən sənsən?
Yoxsa qara basır məni bu tezdən?..
Ömrün qürub çağı yadamı düşdüm...
Mən sənə bir zaman nələr demişdim...

Bəlkə, peşimansan öz əməlindən,
Xoş deyil eşitmək bu sözü səndən...
Səsində qəm notu duyulur nədən,
Yoxsa cana doydun simüzərindən?..

Həyatın mənası bilmişdin onu,
Nə oldu, Rokveller, sərvətin sonu?..
Əlindəki kartın kozır Tuz ikən,
Məğlubmu çıxmısan Oyun içindən?..

Mənlə məsləhətə gəlibsən yenə,
Nə deyim bu dərin Quyudan sənə?
Elə dərin ağlım olsaydı mənim,
Belə dərin Quyu olmazdı yerim...

Təəssüf edirəm sən kimi biri,
Mənimlə dost olub neçə illəri.
Cahilin cihadı sonunda budur:
Sənə həbsxana, mənə Quyudur!!

Oxudu, öyrəndi atalarımız,
Onların elmiydi bütün varımız.
Zəhmətsiz qazanca meyl elədik biz,
Budur qazancımız, budur xərcimiz!..

Sən kimi axmağa uydum bir zaman,
İndi Quyudayam hali-pərişan...
Hazırdır hər zaman kütbaşa bıçaq:
Biz İnsan cildində qoyunuq ancaq!

--Bir Qoyun olsam da, qəlbim mətindir,
Qəlbi yox, ağılı seçəydim gərək:
Qurd ilə savaşdan qat-qat çətindir,
Qoyun sürüsilə davaya girmək.

Nadanlar içində məhv olmuşam mən:
Hər kəs qulu idi nəfsi-ləinin.
Başbilənimizdin: ayrıldım səndən,
Yazısı beləymiş alçaq taleyin.

Nadanlıq ömrümə qara don biçdi,
Həyatım həbsdə, zindanda keçdi...
Bir yalnız əhvini diləyirəm mən,
“Yox” sözün ağırdır, ey Dost, ölümdən:

***

Qoca qəmxanədə tək mey gətirir xoş dəmi,
dost!
Mey ilə, meynab ilə gəl dağıdaq dərd-qəmi,
dost!

Camı Cəmşid yaradıb, meylə könül şad
eləyək:
Əgər adəm isək, öz qəlbinə tut adəmi Dost!

Neçə Loğman uyuyur torpağın altında bu
gün,
Hanı öz canına öz dərmanı, öz məlhəmi, dost?

Dolu Qarun olasan, əllərin axır boşalar,
Çəkəcək köksə qəbir aqili, həm sərsəmi, dost.

Tufana düşsək əgər, Nuh nəyə lazımdı bizə,
Sağəri-səhpadı tək can qutaran Nuh-gəmi,
dost.

Səni nanü-nəməyin ilə fəqir bilsə cahan,
Bəzəyər dostluq ilə sənlə bütün aləmi dost.

Uzaq ol düşməninə dostluq edən kimsənədən,
Ola bilməz sənə dost, düşmənin ilə həmi dost.

Öz ömür sünbülünün bir dəni say hər
gününü,
Bir ucundan biçilir həm quru, həm göy zəmi,
dost.

Ey Ata, güzgüdülər dost ilə dost şadlığı, bil,
Çəkər öz güzgüsünə dostu üçün dost qəmi,
Dost!

***

...Bir gündə alındı onların canı,
Hüzura çağırdı Haqqın sultanı:
Biri Cəhənnəmə, biri Cənnətə!
Son qoydu bu cür Haqq bu hekayətə.

--Xeyr! Etirazım vardır Tanrıya...
Ədalət yoxdur bu Qərarda, axı.
Nə qədər batsaq da Yerdə günaha,
Adil tanıyırıq Göydə Allahı.

Çəkdik cəzamızı Yer üstündə biz,
Hər şeyi bilənsiz: bunu bilirsiz.
Cəhalət taleyin öz cəzasıdır,
Haqq onun üstünə nə yazasıdır?..

--Sən Dosta xəyanət etmiş birisən,
Qurtula bilməzsən bu Cəhənnəmdən.
--Dost məni bağışlar, bəs göylər necə?
Tanrı yaratdığın məhv etməz, məncə...

--Dostun əhv etsə, əhv edərəm səni!
Ruhunun Cəhənnəm olmaz məskəni.
Ədalət vicdandan kənar deyildir.
Tanrı qərəzsizdir, çünki Kamildir!..

İlahi vicdandır Allah göylərdə,
Hökmü  keçərlidir tüm göylə yerdə.
Dostun əhv etsə, əhv edərəm səni,
Ruhunun Cəhənnəm olmaz məskəni.

--Ya Rəbbim! Əbədi hökm-fərmasız:
Dünənsiz, bu günsüz, bütün fərdasız.
Cəhənnəm, ya Cənnət dostlarçın birdir,
Dostluqsuz cənnət də elə qəbirdir.

Madam ki, ölümdən sonrası da var:
Bir yerdə olmalı orda da Dostlar!..
Səhvimiz ağırdır, bağışla bizi:
Ya da cəhənnəmlik et ikimizi!!

Gənc idik, aldandıq bir gün Şeytana,
Biliyi dəyişdik cəhlə, nadana.
Öz cəzamızı da çəkdik necə var:
Bizdən ibrət alsın bütün insanlar.

3

Dövran mənəvini ayaqlayanda,
Hücrəyə çəkildi əhli-ürəfa.
Tarix həqiqətə susan zamanda,
Nadanlıq xalqları apardı məhvə.

Tanrının İlahi nəzərlərində
“Ariflə nadanlar bərabər deyil."
Ağıldır hakimi göyün, yerin də:
Allahı bir ağıl, ağlı Allah bil!

Sərvətin sonunu Tağıyevdə gör:
Hər bir cəh-cəlalın nöqtəsi vardır.
Dərin “Quyu”larda gizlədilir zər:
Mənəvi olanlar Ucalıqlardır.



(Hacının ruhuna rəhmətlər deyək,
Çəkdiyi zəhmətlər hədər getmədi.
Millətə sevgiylə o dolu ürək,
Mövlalar içində bir səhifə idi...

1901-də onun açdığı
Məktəb xalqımıza nurunu saçdı.
“Aleksadrinskaya” Qızlar Məktəbin
Vətən göyün gördü, həm də kövkəbin...



1906. Qız məktəbində
İlk buraxılışda on beşcə nəfər:
Sona, Nabat, Mina, Ayna, Xeyransə...
Səidə, Firuzə, Tutu və kimlər...

Üzünü güldürdü El atasının.
Deməyin nə qaldı Tağıyevlərdən?
O, parlaq nurudur Qəlb aynamızın:
Çıxmaz xatirəsi halal evlərdən...

İlahi mizana tabedir həyat:
Dəqiq ölçüsü var yerin, göyün də.
İtib bata bilər bütün kainat
Bir Ana qəlbinin dərinliyində.

Dünyadan ağırdır bir qəlbin yükü.
İnsan əbədiyyət, tarix axırdır.
Bir damcı göz yaşı bütün göydəki
Qara buludlardan daha ağırdır.

Hər körpə doğulur təzə səhərtək.
Ölən hər ürəklə bir Günəş sönür.
Göydə əqrəb üstə fırlanır fələk,
Tanrının saatı qəlbdə döyünür.

Dünyada əbədi sabahdır bəşər.
Günəşdən parlaqdır könüldəki nur.
Nə vaxt insan üçün başlayır məşhər,
Qiyamət birinci ürəkdə qopur.

Eşqdir, məhəbbətdir qəlbin diləyi,
İmansız yaşayan bir sərsəridir.
Dünya yaranandan Ana ürəyi
Allahın yeganə şah əsəridir!

4

Bir sərgi deyildir məktəbin işi,
Zəhmətdir, rəncidir, alın təridir.
Elmlə fırlanır göyün gərdişi,
Məktəb kainatın tək məhvəridir.

Bir qara tablodur Yazı taxtası,
Bir də ağ təbaşir Məktəbin gücü...
Bütün ömrümüzün bəyaz mənası
Bu qara tabloya cəmləyir bizi!..

Dünyaya gözünü açdığı ilk gün
"İSMAYIL" söylədi ona atası.
Vətənə, millətə pak xidmət üçün
Fədakar böyüsün könül dünyası.

...Götürüb çiyninə Çiyninin yükün
Can qoydu yurdunun, elin işində.
Bələdiyyə sədri seçildiyiçün
Məktəb və Mədrəsə tikdirdi kəndə.

İsmayıl müəllim təzə Məktəbin
Təməlini qoydu, lentini açdı.
O gülər üzündə hər belə bir gün
Könül arzuları Günəş tək saçdı!

Bir can yanğısıyla yandı Çiyniyə,
Yandıqca kül oldu günlər saçında...
Bir İsmaıl* vardı: mövlaydı bizdə,
Buldu Şirvanımız bir mövlasın da.



--------------------------

*PS:XVIII əsrin sonu XIX əsrin əvvəllərində yaşamış kürdəmirli Mövlanə İsmayıl Siracəddin Şirvani nəzərdə tutulur. Mövlanə İsmayıl müstəmləkə əleyhinə Qafqaz müridizm hərakatının Mürşidi və Baş ideoloqu olmuşdur. Çarın tələbi ilə Vətəndən deportasiya edilmişdir. Mövlananın bir oğulu Osmanlı dövlətində Sədr-əzəm (Baş nazir) vəzifəsini tutub. Mövlanə İsmayıl 1848-ci ildə qürbətdə vəfat etmiş, Türkiyənin Amasiya şəhərinin Şamlar məzarlığında dəfn edilmişdir. Məzarı üstə türbə tikilmişdir.--Rəşid Fərəcov. Kürdəmir salnaməsi. Şirvannəşr. B-2006. Səh.:21-30.

Hər yolun başında arzular durub,
Hər ömrün sonunda Haqqın divanı.
Ömrün əvvəlini Söz ilə qurub,
Əməllə sorğuyur Tanrı İnsanı...

Nə qədər Elm var bu Yer üzündə
Bəşər həyatında fədakarlıq var.
Hər qara zülmətin, hər güdüzün də
İşığı, nurudur bu İsmayıllar!!

Nə yalan, nə şöhrət əbədiyyətdir,
Ədədi olan şey tək Həqiqətdir!
Allahlıq taxtını sevər Yalanlar,
Haqqın Allahı, həm Müəllimi var.

Taleyin Dan yeri Məktəb çağıdır,
Sönməz əsrlərcə ağlın şəfəqi.
Dünyanın zirvəsi Elm dağıdır,
İnsanlığın tacı Kitab vərəqi.

Elmdən kənarda dünya qaranlıq,
Müəllimsiz məclis cəhalət xoru.
Açılan sabaha baxın bir anlıq,
Günəş tülu edir Kitaba sarı.

Vaxtdır: bitiririk Səfərimizi,
Zirvəyə yetişmiş bir Qartal kimi.
Tarix yaşadacaq əsərimizi
Tükənməz bir arzu, bir amal kimi!

Şərəflə yaşadı bizim Qəhrəman,
Bir ömrə min ömür məna gətirdi.
Bildiyi elmlər, sevdiyi İman
Onu arzusuna, kama yetirdi.

Nə qədər fədakar İsmayıllar var,
İnsanlıq dünyanın başında tacdır.
Nöqtəylə bitsə də bütün kitablar:
İnsan sonluq deyil, başlanığıcdır...

## 5
## Epiloq əvəzi:

“Söz bilib söyləyən adam çoxdur,
Mənim üçün Sözü qanan insan əzizdir...”
*(Yusif Xas Hacib Balsaqunlu:1017-1077. “Qutadqu Bilik” poemasından)*

Ey gülün hicriylə bülbül kimi fəryad eyləyən,
Ey Kərəm tək Əsliçün pərvaneyi-ad eyləyən!
Ey Şirini-candan ötrü qəlbi Fərhad eyləyən.
Gəl də gör bu bağrı parça-parça kuhikanəni,
Gəl eşit bu Məktəb haqda bitməyən əfsanəni!

Ey günəştələt, qəmərbehcət həbibi-yarımız,
Ey bizi tərk eyləməz pak arzumuz, ilqarımız.
Yusifi-Misri misalı qətidir qərarımız:
Gəl də gör bu bağrı yanmış Yaqubi-Kənanəni,
Gəl eşit Müəllim haqda bitməyən əfsanəni!

Ey dəhənin höqqeyi-yaqutü inci xanəsi,
Əhli-eşqin yerdə, göydə ən uca kaşanəsi.
Ey xəzini-gəncinənin can-könül viranəsi,
Gəl də gör bu mar içində parlayan dürdanəni,
Gəl eşit bu Seyid haqda bitməyən əfsanəni!..

Kim deyir ki, aşiq oldur həqiri-gün rusiyah?!
Oxunacaq üzümüzə həm savab, həmi günah.
Ən Böyük tək Allahımdır! “La İlahə İlləllah!..”
Tərk elə bu düyada Haqq mənaya biganəni,
Gəl eşit İsmayıl haqda bitməyən əfsanəni!

Azəri-müshəfdən ötrü oxu, Övlad, hər xəti.
Avazeyi-cəng iləndir qəlbdə Quran heyrəti.
Azad elə torpağını Azərbaycan millətı!
Yandır özün şəminə hər aşiqi-pərvanəni,
Gəl eşit bu Vətən haqda bitməyən əfsanəni!

Ey məhi-rüxsarilərin zərrin üzlü haləsi,
Ey güli-həmraların hər sübhi qanlı jaləsi,
Ey əlif tək rasti-qəddin sərviməzər qaləsi,
Gəl də gör bu tirə bəxtdə zülfi-müşkəfşanəni,
Gəl eşit bu Kitab Haqda bitməyən əfsanəni!

Tökmə, ey bəxt, xunidil bu suzi çeşmi-tərini,
Məşriqi-iqbalda axtar tüluni-Əxtərini.
Məclisi-muğ içrə gör öz ləligun sağərini.
Saxla əldə daima sidq ilə bu peymanəni,
Gəl eşit Dəbistanımda bitməyən əfsanəni!

Bir Atayi-pirini gör yari-intizarında,
Xakə baş qoymuş ki, yatsın payi-rəhgüzarında.
Əhli-Şirvan qaim olmuş əhdü-etibarında.
Anla duy, ey elmü-ürfan, sözdə bu nişanəni:
Gəl eşit bu Ata haqda bitməyən əfsanəni!..

Son

Bakı-2015.

## “Bir kərə yüksələn Bayraq!”

(simfonik marş: mətn və not)

Bəstəkarı Ədviyyə Rəhmətovadır.

Bir kərə yüksələn  Bayraq,
Hürriyyətlər doğdu səni!
Bir kərə yüksələn Bayraq,
Əsarətlər boğdu səni...

Dünənimiz təkcə sənsən,
Sabahımız səndən keçir.
Dincliyimiz təkcə sənsən.
Savaşımız səndən keçir.
Bir kərə yüksələn Bayraq!

Qılınc vuran qolumuzsan,
Sən azadlıq yolumuzsan.
Simurq kimi doğulmusan,
Bir kərə yüksələn Bayraq!

Topla yenə gücümüzü,
Yenilməyən əzmimizi.
Nəsil-nəsil qaldır bizi,
Bir kərə yüksələn Bayraq!

-------------------

PS:  N. Atabəylinin 20 Yanvarda yazdığı bu şeiri ilk dəfə 1991-cı ilin 2 fevralında “İlham”  (N-13.Müəllif qəzetin şöbə müdiri olub) qəzetində Sovet işğalı və Hərbi Vəziyyət rejimi şəraitində  “A.Atasoy” psevdonimi ilə dərc edilib.

# Bir kərə yüksələn bayraq




Dü-nə-ni-miz tək-cə sən - sən,
Sa-ba-hı-mız sən-dən ke - çir, dinc-li - yi-miz sən - dən ke-çir.
Sa - va - şı - mız sən-dən ke - çir bir kə-rə yük - sə-lən bay - raq.
Qı-linc vu - ran qo-lu - muz san,


sən a - zad - dıq yo - lu - muz - san, Bir kə - rə yük - sə - lən bay - raq
Bir kə - rə yük - sə - lən bay - raq,
Top-la ye - nə gü-cü - nü - zü, ye-nil-mə-yən əz-mi - mi - zi
Top - la ye - ni gü - cü - nü - zü, nə - sil, nə - sil qal - dır bi - zi


Qı-lınc vu-ran qo-lu - muz - san
Sən a-zad-lıq yo-lu - muz - san. Si-murq ki-mi do-ğul - mu - san,
bir kə-rə yük-sə-lən bay-raq
1.
2.
Bir kə-rə yük-sə-lən bay-raq

## *Müəllif haqqında qısa məlumat*

*Namiq Atabəyli (Fərəcov)— 1958-ci ilin 4 aprelində Kürdəmir rayonunun Sığırlı kəndində pedaqoq-jurnalist ailəsində doğulub.*

*Atası—Rəşid Fərəcov veteran-jurnalist, yazıçı-publisisdir: 6 kitabın, o cümlədən 3 cild "Şirvannamə", "Aran səlnaməsi" və s. müəllifidir. Müəllifin atası, özü və kiçik övladı-- Gülnar BDU-nun (jurnalistika, filologiya, informatika fakültələrinin) məzunudurlar.*

*Böyük qızı Aynur Atabəyli ixtisasca nono-biotexnoloqdur, ADNA-nı bitirib, bir müddət Türkiyənin İzmir şəhərində təhsilini artırıb və ixtisası üzrə çalışıb.Hal-hazırda İstanbulda Bahçeşehir Universitetində Reklam, dizayn, markaçılıq üzrə magistr təhsili alır. Bədii əsərləri ilə də qardaş ölkədə tez-tez çıxış edir. Kiçik qızı Gülnar informatika və iqtisadi kibernetika üzrə mütəxəssisdir.*

*N. Atabəyli "Azərbaycan", "Dan Ulduzu", "İlham", "Həftə içi","Yeni Azərbaycan" və s. qəzetlərdə, "Ulduz", "Region+" jurnallarında müxtəlif vəzifələrdə çalışıb.*

*10 il Bakı şəhərində pedaqoji fəaliyyət göstərib.*

*1994-2004-cü illərdə Azərbaycan Respublikası Prezidentlərinin Mətbuat xidmətində böyük məsləhətçi olmuşdur.*

*İlk kitabı—"Azadlığın qədri" 1996-cı ildə Bakıda "İşıq" nəşriyyatında 3000 nüsxə ilə işıq üzü görüb.*

*Bədii yaradıcılığa, əsasən, tələbəlik illərində başlayıb. Dərc olunmuş xeyli şeir, poema, esse, marş, hekayə və tərcümələri var. İlk şeiri hələ orta məktəb illərində rayon qəzetində ("Arzular"), ilk poeması isə İİR-da ("Eol arfası"- şahlığın devrilməsi ilə bağlı) tələbəlik illərində dərc edilib.*

*BDU Elmi Şurasının qərarı ilə aspiranturada saxlanması qərara alınıb. Tələbəlik illərində elmi işləri Respublika Təhsil Nazirliyi, LKGİ MK, Tələbə Elmi-tədqiqat işləri üzrə Respublika Şurası tərəfindən "Qızıl medal" və Birinci dərəcəli Diploma (VIII Respublika elmi konfransında müvəffəqiyyətlərinə görə:1980/1981-ci illər) və habelə digər mükafatlara layiq görülmüşdür. Elmi yazıları BDU-nun tematik məcmuələrində nəşr edilmişdir.*

*Ali təhsili bitirib, Elmi Şuranın qərarı ilə aspiranturada saxlanılsa da, ailə ənənəsinə uyğun olaraq, həqiqi hərbi xidmətə getmiş, keçmiş SSRİ Silahlı Qüvvələrinin iki illik zabiti olmuşdur.*

*20 YANVAR soyqırımından sonra bitərəf-demokrat kimi siyasi fəaliyyətə başlamış, 20 YANVAR İctimai Tribunalının ((Xalq Təhqiqat Qrupu—1990) təşkilatçısı olmuş və uzun müddət Azər.SSR-in Ali Sovetinin OOO135 saylı Mandatı ilə İmperiyanın 20 Yanvar cinayətinə qarşı davamlı jurnalist-təhqiqat işləri aparmışdır, bu barədə "Azərbaycan" qəzetində (fevral 1990-cı il , " Kimdir cavabdeh?") ilk araşdırma məqaləsinin həmmüəllifidir (tarixçi alim Rizvan Zeynalov ilə).*

*1991-ci ilin 2 fevralında "İlham" qəzetində dərc etdiyi (nəşrin şöbə müdiri olub) "Bir kərə yüksələn BAYRAQ" şeiri ilə İstiqlaliyyətimizin Üç rəngli Bayrağına sovet istilası şəraitində ilk bədii əsər yazmış, həmin şeir Arif Məlikovun tövsiyyəsi ilə bəstəkar Ədviyyə Rəhmətova tərəfindən simfonik marş kimi Müsabiqə üçün bəstələnmişdir. Hazırda əsər Dövlət orkestrinin ifasında müsabiqə əsasında Qızıl Fondda saxlanılır.*

*Müəllifin ikinci poeması "Azərbaycan Bayrağı" ordenli qazi, qədim milli misgərlik abidələrimizin kolleksiyaçısı Şahid Həbibullayevin həyat və fəaliyyətinə həsr etdiyi "Şahid" lirik-fəlsəfi əsəridir. Bu əsər ilk dəfə "TERRORİZM:qan çilənmiş torpaqlar" adlı çox cildliyin III Kitabında ("Avropa" nəşriyyatı, Bakı-2010, səh.171-212) nəşr olunmuş və nəşrlə birgə Respublika Mədəniyyət və Turizm Nazirliyinin mükafatına layiq görülmüşdür.*

*Şairin ücüncü poeması "Ana ürəyi" (2013) lirik-dini-fəlsəfi əsəridir. Təzəpir məscid-ziyarətgahın inşasının 100 İlliyi (1912\1914--2014) münasibətilə, Bakı neft milyonçuları ailəsindən olmuş Şirvanəsilli təsisçi, 114 yaşlı Nabat nənə Aşurbəylinin həyat və fəaliyyətindən bəhs edir. Bunlardan əlavə müəllifin klassik janrda yazdığı üç Yubiley kitabı son illərdə ("Vahidiyəm Azərbaycanımın". Bakı-2014; "Seyidəm ərseyi-eşq içrə..." Bakı-2014; "O, xəyalımdakı Şirvan". Bakı-2015) nəşr olunmuşdur.*

*Oxuculara təqdim olunan "Müəllim" əsəri müəllifin dördüncü nəşr edilmiş poemasıdır. Bu barədə Ön Sözdə geniş açıqlama vardır.*

*Hazırda şair, yazıçı-pedaqoq Milli İstiqlal Bayrağımızın qarşıdan gələn 100 illiyinə (1918-2018) həsr etdiyi "Azərbaycan Bayrağı" poeması və XIX Şirvanşah I Axsitanın (1160-1197) həyatı haqqında "Şirvanşah Böyük Axsitan" tarixi romanı üzərində çalışır.*



*Elm İlahinin odudur! Sanma*
*Biriylə başlayıb, biriylə bitdi.*
*Bəşər yaranandan bəri daima*
*Məktəb sona çatmaz bir Estafetdir.*

*Yan Amos doqmatik, dar baxışları*
*"Ana məktəb"indən kənara atdı.*
*İnsandan Xaliqə, Allaha sarı*
*Əbədi, sarsılmaz körpü yaratdı.*

*"Elmdir baisi-tərəqqiyi-tam,*
*Alimə tay deyil güruhi-əvam.*
*Hələ qalsın bu rəmzlər bari,*
*Elmsiz adəmin nə miqdari?.."*
*(Seyid Əzim Şirvani)*

9 783945 686126